# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 214 (8530) ŞƏNBƏ, 17 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Azərbaycan tarixinin şanlı səhifəsi yazılır

**Azərbaycan Ordusunun Qarabağda apardığı uğurlu əməliyyatlar, haqq savaşı sürətlə böyük qələbəni yaxınlaşdırır. Bu günə qədər 40-dan çox yaşayış məntəqəsi, şəhərlər və kəndlərimiz işğalçılardan azad edilib. Hər gün bu rəqəmlər dəyişir. Həm şimal, həm cənub və həm də şərq istiqamətlərində strateji yüksəkliklər artıq ordumuzun nəzarətindədir. Təcavüzkar Ermənistanın silahlı bölmələri isə haqq savaşı aparan Azərbaycan əsgəri qarşısında duruş gətirə bilmir. Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusu pərən-pərən salınıb. Düşmənin yüzlərlə zirehli texnikası, çoxsaylı artilleriya qurğuları, raket sistemləri, canlı qüvvəsi məhv edilib, xeyli sayda hərbi texnikası, silah-sursatı ələ keçirilib.**

Bu gün də cəbhə xətti boyu işğalçının müdafiə istehkamları darmadağın edilməkdədir. Erməni əsgəri sağ qalmaq üçün yeganə çıxış yolunu silahını, hərbi texnikasını, döyüş bayrağını atıb qaçmaqda görür. İşğal edilmiş torpaqlarımız azad edildikdən sonra ucaldılan üçrəngli bayrağımız düşmənə göz dağı verir. İlham Əliyevin müəllifliyi ilə Azərbaycanın müstəqillik tarixinin şanlı səhifəsi yazılır.

### Ermənistan dünyanın gözü qarşısında müharibə cinayəti törədir

Tərəflər arasında humanitar atəşkəs razılaşmasının əldə olunmasına baxmayaraq, Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribatlarından, çirkin əməllərindən əl çəkmir. Səbəbi isə hər kəsə bəllidir.

Ermənistanın baş naziri Nikol Paşinyan yaxşı anlayır ki, savaş meydanındakı uğursuzluq onun siyasi hakimiyyətinin sonunu qaçılmaz edir. Azərbaycan torpaqlarında məhv edilən minlərlə erməni hərbçisinin cəsədlərinin Ermənistana daşınması isə bu prosesi daha da sürətləndirəcək. Ona görə də düşmən oktyabrın 11-dən, hələ atəşkəs razılaşmasının mürəkkəbi qurumamış döyüş əməliyyatları zonasından aralıda yerləşən şəhər və rayonlarımıza ballistik raketlər ataraq vəziyyəti daha da gərginləşdirməyə çalışdı. Azərbaycan Ordusunun hədəfi hərbi obyektlər olduğu halda, Ermənistan, hər zamankı kimi, "gücünü" dinc əhaliyə göstərir. Mülki əhalinin hədəfə alınması Gəncəyə ballistik raket atması ilə pik həddə çatdı. Tərtərdə dəfn mərasimində iştirak edən insanlara artilleriya atəşi açıb dərdlərinin üstünə dərd əlavə etmək isə Ermənistanın dünyanın gözü qarşısında törətdiyi növbəti müharibə cinayəti oldu.

Erməni əsgərinin savaş meydanından qaçdığını görən N.Paşinyanın bu çirkin oyunları oynamaqda əsas məqsədi Azərbaycanı dayandırmaq və münaqişəyə kənar qüvvələri cəlb etməkdir.

*Ardı 4-cü səh.*

# Vətəndaş məsuliyyəti əsas şərtdir

### Koronavirusla mübarizədə əsas vəzifələrdən biri də karantin rejiminin tələblərinə əməl etməklə Azərbaycan əsgərini qorumaqdır

**Dünyada COVID-19 pandemiyasının yaratdığı gərginlik davam edir. Planeti bürüyən təhlükəli virus payızqış mövsümünün başlaması ilə yoluxma riskini daha da artırıb. Son statistikaya əsasən, dünyada COVID-19-a yoluxanların sayı 39 milyon nəfəri keçib, 1 milyondan çox insan bu virus səbəbindən dünyasını dəyişib.**

Bir müddət əvvələ qədər Azərbaycanda COVID-19-a qarşı aparılan mübarizədə müsbət dinamika əldə olunsa da, təəssüf ki, son günlər bunun əksi ilə qarşılaşırıq. Bir çox ölkələrdə olduğu kimi, respublikamızda da yeni növ koronavirus infeksiyasına yoluxma hallarında artım müşahidə olunur. Bu səbəbdən də mövcud sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib. Belə ki, oktyabrın 19-dan noyabrın 2-dək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub.

*Ardı 5-ci səh.*

## Prezident İlham ƏLİYEV: "Azərbaycan Ordusu Xocavənd rayonunun daha üç kəndini işğaldan azad edib"

**Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

# "Şuşasız bizim işimiz yarımçıq olar"

### Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

*- "A Haber" ekranlarından hər kəsə salamlar. Bütün dünyanın gözü Qarabağ bölgəsindədir. Otuz ildir erməni işğalı altındakı Qarabağda hazırda böyük bir faciə yaşanır. Çünki ermənilər humanitar atəşkəsə baxmayaraq, xüsusilə mülki şəxsləri və Azərbaycan Ordusunu hədəfə almaqda davam edirlər. Təbii ki, Azərbaycan Ordusu da bu hücumları cavabsız qoymur və erməni ordusuna ağır zərbələr vurulur.*

*Bəs, bölgədə son durum necədir, bundan sonra nələr yaşanacaq? Bu durumla bağlı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fikirlərini öyrənəcəyik.*

*Cənab Prezident, bizi qəbul etdiyiniz üçün sağ olun, xüsusilə "A Haber" adından çox təşəkkür edirik.*

- Sağ olun, təşəkkür edirəm.

*- Cənab Prezident, təbii ki, müsahibəmizə bölgədəki vəziyyətlə başlayacağıq. Dünən Ermənistan yenə mülki şəxsləri hədəfə aldı. Tərtərdə bir məzarlıq hədəfə alındı və 3 azərbaycanlı qardaşımız şəhid oldu. Siz bu hücumu necə dəyərləndirirsiniz?*



- Bu, erməni faşizminin növbəti təzahürüdür. Onlar, adətən, döyüş meydanında məğlubiyyətə uğrayanda mülki şəxslərə atəş açırlar. Bunu biz birinci Qarabağ savaşında da gördük. Məhz Xocalı soyqırımını törədənlər bizim həmin mənfur qonşularımızdır.

Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusu qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə qarşı müqavimət göstərə bilmirlər, onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd hücum nəticəsində bizim insanlarımız həlak oldular, həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda.

*Ardı 2-ci səh.*

# Yolumuz Qarabağadır, üzü Şuşaya doğru!

### Azərbaycan Ordusunun müzəffər yürüşü artıq 10 minlərlə məcburi köçkünün yurdsuzluq həsrətinə son qoyur

**Yolumuz Qarabağadır! 30 ilə yaxındır doğma yurdundan didərgin salınaraq məcburi köçkün kimi respublikamızın hər yerində məskunlaşan soydaşlarımızın bugünkü sevincdən axan göz yaşları dualarına qarışıb.**

Başda Ali Baş Komandan olmaqla xilaskar Azərbaycan Ordusunun müzəffər yürüşündə Tanrının onlara dayaq olmasını diləyirlər. Müqəddəs diləkli xalqımız inanır ki, qısa zamanda xeyli ərazimizi düşməndən azad edən Ordumuzun qələbə soraqlı yürüşləri Şuşayadır! Düşmən layiq olduğu cavabı sonadək alacaq! Çünki  Ordumuz buna qadirdir: hər gün yeni-yeni mövqeləri azad edir.

*Ardı 11-ci səh.*



# Erməni faşizminin qanlı cinayətləri

Sentyabrın 27-dən başlayaraq Azərbaycanın tarixinə yeni, şərəfli səhifələr yazılır. Ermənistanın növbəti təxribatına cavab olaraq rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində 30 ildir düşmən tapdağında qalan doğma torpaqlarımız işğaldan azad edilir.

Cəbhədən gələn hər xoş müjdə Azərbaycanın qələbəyə getdikcə daha çox yaxınlaşdığını, Ermənistanın isə rəzil duruma düşdüyünü göstərir. Əslində, erməni faşistləri özləri də döyüşlər başlayandan, Silahlı Qüvvələrimizin hünərini görəndən bəri uduzduqlarının fərqindədirlər. Lakin məğlubiyyətlərini heç cür həzm edə bilmirlər.

Döyüş meydanında güclü ordumuzla üz-üzə gəlməyə cürət etmədikləri üçün də hirs-hikkələrini, nifrətlərini günahsız insanlardan çıxmağa çalışırlar. Xislətlərindəki namərdliyə, qorxaqlığa, murdarlığa xas olaraq döyüş meydanındakı məğlubiyyətlərinin acısını əliyalın camaatdan alırlar. Bu faşist xislətli rejim əvvəlki ənənəsinə sadiq qalaraq yenə də çirkin simasını göstərir, insanlığa sığmayan əməllərə imza atır, uşaq, qoca, körpə bilmədən dinc əhalini hədəfə alır.

Artıq iyirmi günə yaxındır ki, təcavüzkar Ermənistanın silahlı qüvvələri hər gün  beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror törədirlər.

*Ardı 8-ci səh.*

# "Sərhəd tanımayan vəhşilik"

### İşğalçı Ermənistanın mülki əhalini hədəf alması Türkiyə mediasında diqqətdə saxlanılır




*Bax: səh. 7*

**Azərbaycan Ordusu tərəfindən düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Şuşasız bizim işimiz yarımçıq olar”

### Prezident İlham Əliyev Türkiyənin “A Haber” televiziya kanalına müsahibə verib

Əvvəli 1-ci səh.



Bu insanların dəfn mərasimində iştirak etdikləri bir yerdir, hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir, bir daha Ermənistanın yırtıcı xislətini göstərir. Ancaq bir də onu göstərir ki, bu namərd hücumlar bizi yolumuzdan döndərə bilməz, Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik.

*- Təbii ki, Azərbaycan mülki şəxslər məsələsində olduqca diqqətli, çox dəqiq davranır. Bu ana qədər bir erməni mülki şəxsin belə burnu qanamadı. Ancaq indiyədək 46 azərbaycanlı qardaşımız şəhid oldu. Qərbə baxdığımız zaman, Qərb bu qətliamlara münasibətdə niyə səssizdir?*

- Təəssüf ki, mülki şəxslər arasında insan itkisi davam edir, artıq 47 nəfər oldu və 222 mülki şəxs yaralandı, 2 minə yaxın ev ya tamamilə dağıldı, ya da ki, böyük ziyan gördü. Mən bunu demişdim, biz bu insanların qisasını döyüş meydanında alacağıq. Biz heç zaman mülki şəxslərə qarşı atəş açmamışıq, bu gün də açmırıq, baxmayaraq ki, Gəncəyə, Tərtərə hücumlar oldu. Bu gün səhər saat 6-dan 8-ə qədər, - indi saat 9:10-dur, - Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb. Yəni bu namərd hücumlar davam edir. Onların əsas hədəfi mülki şəxsləri öldürmək, Azərbaycan əhalisi arasında panika, qorxu yaratmaq, bizi dayandırmaq və öz çirkin niyyətlərinə çatmaqdır. Ancaq görürlər ki, bu, alınmır və nə qədər mərmi düşürsə-düşsün Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Onları birləşdirən bir amal var - Qarabağın qaytarılması, Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsidir.

O ki qaldı, toxunduğunuz ikinci məsələyə - niyə Qərb səssiz qalır? Biz bunu birinci Qarabağ savaşında gördük. Ermənistan bizə təcavüz etdi, Ermənistan bizim torpaqlarımızı işğal etdi, Ermənistan bizim xalqımıza qarşı soyqırımı törətdi, ancaq sanksiyalar Azərbaycana tətbiq edildi. O zaman - 1992-ci ildə, 1993-cü ildə Qərb mətbuatında belə bir təsəvvür yarandı ki, sanki Azərbaycan işğalçıdır, Azərbaycan təcavüzkardır, Ermənistan isə bu təcavüzün qurbanıdır. Bu gün də bunu az miqdarda, az həcmdə görürük. Çünki artıq həqiqəti danmaq, gizlətmək mümkün deyil.

*- Cənab Prezident, 1993-cü ildə, xüsusilə noyabr ayında yenə o dönəmdə atəşkəs elan edilmişdi. Atəşkəsi yenə Ermənistan pozmuşdu, qətliamlar törətmişdi. İndi baxdığımız zaman atəşkəsi pozan yenə Ermənistandır. Bu atəşkəslə Azərbaycan Ordusunun irəliləyişinin dayandırılmasımı istənilir?*

- Bilirsiniz, bu, onların taktikasıdır. Atəşkəsi istəyən Ermənistan oldu. Onlar görəndə ki, artıq döyüş meydanında işğal edilmiş torpaqları qoruya bilmirlər, onları saxlaya bilmirlər, onlar atəşkəs üçün müraciət etdilər. Bizə də belə müraciət gəldi, - bilirsiniz ki, Rusiya bu missiyanı öz üzərinə götürmüşdür, - biz də dedik ki, humanitar məqsədlər üçün, cəsədlərin dəyişdirilməsi, əsirlərin dəyişdirilməsi üçün atəşkəs elan oluna bilər. Amma, eyni zamanda, Moskva açıqlamasında bu, göstərildi ki, müzakirələr mahiyyət üzrə bərpa edilməlidir. Həmçinin müzakirələrin formatı da dəyişməz qalmalıdır. Ancaq görünür ki, onlar bu atəşkəsdən istifadə etmək istəyiblər, bir gün keçməmiş Gəncəyə bu namərd hücumu təşkil etdilər. Ondan sonra bizim digər şəhərlərimizi vurmağa başladılar və faktiki olaraq bu atəşkəsi kobudcasına pozdular. Ona görə bu, onların taktikasıdır. Görünür, onlara bu atəşkəs ona görə lazım idi ki, öz qüvvələrini toparlasınlar, səfərbərlik tədbirləri görülsün və bizə yeni hücum təşkil edilsin. Çünki bu atəşkəsdən sonra onlar Hadrut qəsəbəsini yenə də işğal altına almaq istədilər, üç dəfə oraya hücum etdilər. Amma üç dəfə də məğlub oldular. Onların niyyəti itirilmiş və onlara mənsub olmayan torpaqları yenə də qaytarmaq və beləliklə, öz işğalçılıq siyasətini davam etdirməkdir.

*- Bu arada, “Hadrut hələ də bizdədir”, - deyə hazırda yalan təbliğat aparılır, qəbul edə bilmirlər.*

- Bəli, bu günə qədər bu yalan təbliğatı aparırlar. Hadrutda artıq neçə gündür ki, Azərbaycan bayrağı dalğalanır. Hadrutun ətrafındakı yüksəkliklərin, təpələrin mütləq əksəriyyəti bizim nəzarətimizdədir. Əgər Hadrut götürülməsəydi, Xocavənd rayonunun kəndləri də götürülə bilməzdi, o zaman Füzuli rayonunun kəndləri də götürülə bilməzdi. Biz ancaq Hadrut istiqamətindən oraya irəlilədik.

*- Cənab Prezident, humanitar atəşkəsin tətbiq edildiyi tarixdən etibarən xüsusilə İrəvanın hava limanına Rusiyadan, İrandan karqo təyyarələri ilə davamlı olaraq raketlər göndərilir. Bununla da, əslində, cinayət törədilir. Bu barədə, xüsusilə İran Prezidenti Ruhani ilə sərhəd qapısının bağlanması ilə bağlı danışdınız, Rusiya ilə də danışdınız, raketlərin göndərilməsi barədə. Bu silahlar ödənişsiz verilir. Bu baxımdan İran və Rusiyaya nə demək istərdiniz?*

- İrandan Ermənistana silahların göndərilməsi ilə əlaqədar bizdə hər hansı bir məlumat yoxdur. Əksinə, deyə bilərəm ki, İran və Gürcüstan öz hava məkanını və quru yollarını Ermənistana silahların daşınmaması üçün bağladı. Buna görə biz İran və Gürcüstan hökumətlərinə bir daha təşəkkürümüzü bildirmək istəyirik. Bizdə olan məlumata görə, Gürcüstan ərazisindən bu gün mülki təyyarələrlə, eyni zamanda, karqo təyyarələri ilə qaçaq yolla silah göndərilir.

Ermənistan bu yaxınlarda bir təyyarə satın almışdır. Bizdə olan məlumata görə, təqribən 30-40 milyon dollara almışdır. Bu təyyarəni alan Rusiyada yaşayan zəngin erməni iş adamlarıdır, Karapetyan, Abramyan və başqaları. Onlar Rusiyada yaşayan ermənilər bizə qarşı vuruşmaq üçün Qarabağa muzdlu kimi göndərirlər. Eyni zamanda bu “İl-76” təyyarəsinin alınması Ermənistana imkan verdi ki, o silahları qaçaq yollarla Ermənistana gətirsin. Çünki hər dəfə hərbi təyinatlı məhsullar göndəriləndə bu, bəyan edilir. Onların bəyanatlarında isə bu, mülki karqodur. Amma onun içərisində tank əleyhinə “Kornet” və “Konkurs” silahları, “İqla” hava hücumuna qarşı silahlar, eyni zamanda, bizdə olan məlumata görə, Rusiyada qaçaq yollarla alınmış raketlər göndərilir. Ona görə biz Beynəlxalq Mülki Aviasiya Təşkilatına rəsmən müraciət etdik ki, bu məsələni araşdırsın, bunu dayandırsın. Bu, beynəlxalq cinayət sayılır. Bu qaçaq silahların Ermənistana göndərilməsi qəbuledilməzdir.

Rusiya rəsmi orqanları tərəfindən də bizə açıqlama verildi ki, Rusiya Ermənistana silah göndərmir. Ona görə bizim fikrimizcə, bu silahları Rusiyada yaşayan erməni iş adamları, zəngin iş adamları qanunsuz yollarla bəzi hərbi zavodlardan alıb Ermənistana göndərirlər. Bu istiqamətdə araşdırmalar davam etdirilir.

*- İndi isə, cənab Prezident, cəbhəyə “gedəcəyik”. Təbii ki, Azərbaycan və Türkiyə xalqları cəbhədən gözəl xəbərlər, gözəl müjdələr gözləyirlər. Mən xəritəni göstərmək istəyirəm, təbii ki, 18 min kvadratkilometrlik bir ərazidən bəhs edirik. Bu ərazi otuz ildir ki, işğal altındadır. Bu bölgələrin bu günə qədər neçə min kvadratkilometrlik sahəsi azad edilib? Hazırda Azərbaycan Ordusu irəliləyir, böyük zərbələr vurur. Deyirik ki, bu günə qədər erməni ordusu öz gücünün yarısını itirib. Rəqəm olaraq erməni ordusu nə qədər itkiyə uğradıldı? Bununla bağlı bir rəqəm öyrənə bilərikmi, cənab Prezident?*

- Azad edilmiş torpaqları hesablamaq o qədər də çətin məsələ deyil, halbuki hər gün bu, dəyişir. Dünən mən yeni altı kəndin işğaldan azad edilməsi xəbərini Azərbaycan xalqına çatdırdım. Ondan əvvəlki gündə daha çox sayda kəndlər azad edildi. Bu proses davam edir. Demək olar ki, hər gün biz yeni əraziləri işğaldan azad edirik, hər gün yeni strateji yüksəklikləri azad edirik. Ona görə bu rəqəmlər dəyişir. Ancaq bu gün rəsmi qaydada verilən məlumat deməyə əsas verir ki, hansı bölgələr azad edildi.

İndi bu xəritədə, misal üçün, Hadrut yoxdur. Artıq Hadrut bizdədir. Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir. Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün əlbəttə, bu, tarixi günlərdir.

*- Yəni orta hesabla təxminən neçə min kvadratmetr olur?*

- Bunu demək istəməzdim. Çünki bu, hər gün dəyişən rəqəmdir. Ancaq bizim məqsədimiz ərazi bütövlüyümüzü tam bərpa etmək və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldırmaqdır.

*- Bəs, erməni itkiləri ilə bağlı rəqəmin nə qədər olduğunu deyə bilərsiniz?*

- Bu rəqəmlər də hər gün dəyişən bir statistikadır. Yalnız 200-dən çox tank məhv edildi, 33 tank qənimət kimi götürüldü, onlar bizdə saz vəziyyətdədir. Hava hücumuna qarşı 35 OSA sistemi məhv edildi. Hava hücumuna qarşı çox müasir iki S-300 sistemi məhv edildi.

*- Çox qiymətli, bahalıdır.*

- Bəli, çox qiymətli, ondan sonra TOR, o da çox bahalı, o da hava hücumuna qarşı sistemdir. Təqribən 170 karqo maşını ya məhv edildi, ya da bizdədir. Həmçinin 16 komanda mərkəzi məhv edildi. Bizim hesablamalarımıza görə, bu günlər ərzində Ermənistan ordusuna təxminən 2 milyard dollar ətrafında ziyan dəydi və bu, davam edir. Mən demişəm və Ermənistan rəhbərliyinə də müraciət etmişəm, siz atəşkəsə əməl edin, bizə təqvim verin, torpaqlarımızdan çıxın, bu müharibə dayansın, siz də indi qalan silahlarınızı xilas edin. Yoxsa belə gedərsə, biz onların bütün silahlarını məhv edəcəyik.

*- Ermənistanın insan itkisi nə qədərdir, cənab Prezident?*

- İnsan itkisi barədə onların verdiyi rəqəmi, - mən mətbuatda gedən rəqəmi deyirəm, - təqribən 600-dən çoxdur. Amma bizdə olan məlumata görə, onlarda itki bundan bir neçə dəfə çoxdur.

*- Yəni Ermənistan az göstərməyə çalışır?*

- Təbii.

*- Amma cəbhədə vəziyyət fərqlidir.*

- İndi əgər 200 tank məhv edilibsə, bu tankın içində olan əsgərlərin sayına baxın, artıq neçəyə çatır. Ondan sonra döyüş meydanlarında, komanda mərkəzlərində, digər qurğularda. O görüntülər var, onların texnikası necə məhv edilir, ona görə hansısa konkret rəqəm demək istəməzdim. Çünki mən hər zaman dəqiq rəqəmlərə sadiqəm, yoxlanılmamış rəqəmləri səsləndirmək istəmirəm. Amma təbii ki, 600-dən daha çoxdur.

*- Yəni Ermənistanın silahlarının yarısına yaxını yox edildi deyə bilərikmi, cənab Prezident?*

- Biz bilmirik, onlarda nə qədər silah var. Amma bir sual ortaya çıxır ki, onlar bu silahları hansı pulla alıblar? Ermənistanın büdcəsi də, valyuta ehtiyatları bəllidir. Təkcə 17-18 gün ərzində onların 2 milyard dollarlıq silahları məhv edilib və hələ də silahları var. Məhv edilmiş bu silahlar yalnız işğal edilmiş torpaqlardadır. İndi Ermənistan ərazisində nə qədər silahlar var? Baxın, bunlarda nə qədər silah var? Haradan aldılar bunu, haradan bu pulu tapdılar? Təbii ki, bunlarda bu qədər pul yoxdur. Deməli, bunu havayı aldılar.

*- Cənab Prezident, 18 oktyabr önəmli bir gündür. Azərbaycanın müstəqillik günüdür. Azərbaycan xalqı bu tarixdə Sizdən bir müjdə gözləyir, İnşallah. Qarabağla bağlı bir müjdəniz olacaqmı? Buradan “A Haber” ekranlarından bütün Türkiyəyə və azərbaycanlı qardaşlarımıza o müjdəni bölüşmək istərdinizmi?*

- Bilirsiniz, bu, doğrudan da tarixi bir gündür. Çünki Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu. Müstəqilliyin ilk illəri bizim üçün çox ağır keçdi, faciəvi keçdi. Biz müstəqilliyimizi itirə bilərdik. Necə ki, 1920-ci ildə itirdik, cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bu dəfə də Ermənistanın Azərbaycana təcavüzü, eyni zamanda, Azərbaycanın daxilində gedən çarpışmalar böyük böhrana səbəb oldu. Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi, sabitlik təmin edildi və Azərbaycan inamla inkişaf yoluna qədəm qoydu.

Ona görə 18 oktyabr tarixi bizim üçün çox əziz bir tarixdir. Ancaq bu müddətdə - bu 17-18 gün ərzində mən heç zaman bizim ordu qarşısında bu tarixdə bunu alacaqsan, o tarixdə bunu alacaqsan vəzifəsi qoymamışam. Çünki müharibənin öz qaydaları, öz qanunları var. Bizim üçün əsas məsələ ərazi bütövlüyümüzü bərpa etməkdir. Nə zaman müjdə veriləcək - 17-dəmi, 18-dəmi, 19-damı, bu, o qədər önəmli deyil. Önəmli odur ki, biz bunu edək, buna nail olaq. Eyni zamanda biz bəzi kəndlər haqqında məlumatı bu gün də verə bilərik və bəlkə də olacaq. Ancaq ən önəmlisi strateji yüksəklikləri götürməkdir. Çünki bu yüksəklikləri götürərkən biz daha böyük əraziyə nəzarət edirik. Bundan sonra Azərbaycan Ordusunun əks-hücum əməliyyatının daha da uğurlu olmasına şərait yaradırıq.

*- Qarabağın qəlbi, gözü Şuşadır. Azərbaycanlıların gözü-qulağı Şuşadan gələcək xəbərdədir. İstiqaməti Şuşa olaraqmı verdiniz, inşallah?*

- İstiqamət hər tərəfdir. İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Təbii ki, müzakirələr prosesində də hər zaman bu məsələ gündəlikdə idi.

Bilirsiniz, bundan əvvəlki dövrdə danışıqlar masasında bir çox məsələlər var idi. Bəzi təkliflər ondan ibarət idi ki, yaxşı, Azərbaycan bu beş rayonu alsın, bununla kifayətlənsin. Qalanlar da qalsın, yəni, hər şeyi siz almaq istəyirsiniz, belə şey olmur, kompromis olmalıdır və sair. Ancaq mən heç vaxt buna getməmişəm. Beş rayonu alıb qalan rayonları sonraya, qeyri-müəyyən vaxta saxlayıb, məsələni bitmiş hesab etmək heç cür düzgün olmazdı. Ona görə müxtəlif mərhələlərdə vasitəçilər və bəzi beynəlxalq təşkilatlar təəccüb edirdilər ki, nə üçün İlham Əliyev buna razılaşmır. Axı, ona deyirik ki, indi beş rayon, halbuki Ermənistan indi görünür o beş rayonu da vermək istəmirdi. Ancaq belə təkliflər olub. Amma mənim mövqeyim hər zaman belə olub ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq. Bu, nə zaman olacaq?

*- Yaxındamı, cənab Prezident?*

- Onu, yəni, yaxın gələcək göstərər.

*- İnşallah. Yəqin ki, Qarabağı azad etmək rəhmətlik atanızın vəsiyyətidir. Vəsiyyətini də yeri gəlmişkən Sizdən öyrənmək istərdik. Vəsiyyətini hazırda həqiqətən yerinə yetirirsiniz. Sizi də, Azərbaycan xalqını da Türkiyə xalqı adından təbrik edirik. Atanızın vəsiyyəti barədə nə söyləmək istəyirsiniz?*

- Bilirsiniz, mən hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl mən demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm. Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum. Bu gün Azərbaycanın sürətli və uğurlu inkişafı, beynəlxalq müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük layihələrin həyata keçirilməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır.

Təbii ki, dünya dəyişir. Dünyadakı güclər nisbəti də dəyişir. Bugünkü dünya 2003-cü ildəki dünya ilə əlbəttə ki, müqayisə edilə bilməz. Ancaq bizim strateji hədəflərimiz dəyişməz olaraq qalır. O da müstəqilliyi möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu saxlamaq, qorumaq və ərazi bütövlüyümüzü bərpa etməkdir. Yəni, qısa desəm, atamın vəsiyyəti bundan ibarətdir.

Əlbəttə ki, ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir. Biz buna nail olmaq üçün böyük səy göstərdik - siyasi, iqtisadi, diplomatik, hərbi. Bizim ordumuz faktiki olaraq yenidən quruldu. Bu gün ordumuzun potensialı bütün dünyanın gözü önündədir. Mənə verilən məlumata görə, inkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq bizim təcrübəmizi öyrənirlər. Mən əminəm ki, bu təcrübə kitablarda da, tədqiqatlarda da əksini tapacaq. Ona görə atamın yoluna sadiq qalaraq bu şərəfli missiyanı icra edirik. İnşallah, sona qədər başa çatdıracağıq.

*- Azərbaycan çox güclü bir ordu yaratdı. Birinci Qarabağ müharibəsində hava qüvvələri belə yox idi, ancaq indi artıq güclü bir hava qüvvələri, güclü bir ordu var. Təbii ki, “TB2” silahlı pilotsuz uçuş aparatları da bölgədə böyük bir güc oldu. Türkiyədən satın aldınız və hazırda istifadə edirsiniz. Silahlı pilotsuz uçuş aparatları müharibənin gedişini necə dəyişdirdi?*

- Çox dəyişdirdi. Çünki bilirsiniz, Ermənistan 30 il ərzində işğal edilmiş o bölgələrdə bütün təmas xətti boyunca çox güclü istehkam qurmuşdu. Çox böyük mühəndis-istehkam işləri görmüşdü. Bəzi yerlərdə onların dörd müdafiə xətti var. Böyük xəndəklər qazıldı, digər mühəndislik işləri görüldü. Çox böyük beton plitələri vardır, sığınacaqlar vardır, bunkerlər vardır. Bir də bölgənin relyefi elədir ki, o, təbii istehkamdır. Çünki o dağlıq ərazidir və biz aşağıdan yuxarı gedirik. Hər bir ordu üçün bu, böyük çətinlikdir. Çətin bir iş və çox riskli bir işdir. Ona görə bizim bu istiqamətdə gördüyümüz işlər, əlbəttə ki, böyük qəhrəmanlıq tələb edirdi və biz düşmənin texnikasını dəqiq məhv etmək üçün mütləq pilotsuz uçuş aparatlarına möhtac idik. Çox şadıq ki, qardaş Türkiyənin inkişaf etmiş hərbi sənaye kompleksi bu gözəl SİHA-ları və İHA-ları istehsal etməyə başlamışdır. Azərbaycan Türkiyənin xaricində ilk ölkələrdəndir ki, bu SİHA-ları ala bildi. Mən artıq bunu söyləmişəm, yalnız Türkiyə istehsalı olan SİHA-larla bir milyard dollar dəyərində olan erməni hərbi texnikası məhv edildi. Qalan bir milyardı da bizim hərbi vasitələrlə məhv edildi. Yəni, bu, müharibənin gedişatını çox dəyişdirdi.

*- Bölgədə tunellərdən, laylı müdafiədən bəhs etdiniz. Əslində, biz onu Suriyadakı əməliyyatlarda görmüşdük. Bunlar PKK, PYD-nin istifadə etdiyi üsullardır. Otuz ildir bölgədə eyni üsuldan istifadə edilir. Bu baxımdan orada PKK-nın, PYD-nin bir dəstəyi varmı?*

- Ola bilər. Bizdə bu toqquşmadan da əvvəl məlumat var idi ki, PKK-çılar orada düşərgə qurmuşlar. Çünki bilirsiniz, Dağlıq Qarabağ nəzarətsiz bir ərazi idi. Orada hər hansı bir beynəlxalq nəzarət mexanizmi yox idi. Çünki indi Ermənistan da, Azərbaycanda bir çox beynəlxalq təşkilatların üzvüdür. Orada nəzarət mexanizmləri də var, monitorinq də var. Bu isə boz bir sahə, yəni nəzarətsiz bir sahədir. Ona görə orada qaçaqmalçılıq, narkotik ticarəti, qanunsuz silahlı birləşmələrin təlimləri və PKK düşərgələri də mövcud idi. İstisna edilmir ki, onlar da bu istehkamların qurulmasında rol oynayır.

*- Bölgədə neçə dənə PKK düşərgəsi var?*

- Onu biz deyə bilmərik. Çünki onlar bir yerdə dayanmırlar, onlar yerlərini dəyişirlər. Amma kifayət qədər çox idi. Hər halda bu məlumat bizdə bu son toqquşmadan əvvəl də var idi. Bu gün erməni tərəfindən vuruşan, öldürülən insanlar arasında şübhəli insanlar da var. Hər halda Kanada pasportlu, Livan pasportlu insanlar var. Şəxsiyyətini müəyyən etmək mümkün olmayan insanlar var. Amma dəqiqdir ki, onlar erməni əsgəri deyil. Yəni onlar muzdlulardır.

*- Bölgədə xüsusilə Ermənistan öz ərazilərindən raket hücumları həyata keçirir. Öz ərazisindən hücumlara davam edərsə, Sizin üçün Ermənistan ərazilərinə əməliyyat haqqı yaranarmı?*

- Xeyr, bizim belə fikrimiz yoxdur. Mən bunu dəfələrlə demişəm, bizim Ermənistan ərazisində hər hansı bir hərbi hədəfimiz yoxdur. Hərbi əməliyyatları Ermənistan ərazisinə keçirmək fikrimiz də yoxdur. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Biz, sadəcə olaraq, ölkə hüdudları çərçivəsində, beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən tanınmış qanuni Azərbaycan torpaqları çərçivəsində bu əməliyyatları aparırıq. Bu günə qədər biz Ermənistan ərazisinə keçməmişik.

Onu da bildirməliyəm ki, iyul ayında Ermənistan-Azərbaycan sərhədində bizə qarşı hücum təşkil edilmişdir. Ermənistan silahlı qüvvələri Tovuz bölgəsinə və onun müəyyən yerlərinə girə bilmişdir. Biz onları oradan rədd etdik, öz torpaqlarımızı qoruya bildik. Onları sərhəddən kənara atdıq. Ondan sonra da sərhədi keçə bilərdik. Yəni bizim qarşımızda hər hansı bir ciddi maneə yox idi. Onsuz da bu döyüş də onu göstərdi ki, əgər burada biz keçə bilmişiksə, orada daha asandır. Çünki orada bu istehkamlar yoxdur. Amma bunu etmədik. Çünki biz hesab etdik ki, bu, düzgün olmaz. Biz öz torpağımızda özümüzü müdafiə edirik və işğalçıları öz torpaqlarımızdan qovmalıyıq. Ancaq, eyni zamanda, əgər onlar Ermənistan ərazisindən bizə qarşı “Toçka-U”, “İsgəndər”, “Skad” və başqa çox təhlükəli silahlardan istifadə etməyi davam edəcəklərsə, - necə ki, Gəncəni onlar Ermənistanın Vardenis rayonundan vurdular, - bu, bizim üçün legitim, qanuni hərbi hədəflər olacaq. Bunu hər kəs bilsin.

*- Türkiyədən və Pakistandan Sizə dəstək mesajları gəlir. Xüsusilə Prezident Rəcəb Tayyib Ərdoğan “Hər cür dəstəyi verməyi hazırıq” dedi. Bu baxımdan Türkiyə və Pakistandan hərbi dəstək istəyəcəksinizmi?*

- Xeyr. Bizim belə bir fikrimiz yoxdur. Türkiyə və Pakistan bizə ilk dəstək olan ölkələrdir. Onlardan sonra bu ölkələrin sayı artdı. Ondan sonra Əfqanıstan bizə açıq dəstək göstərdi. Bosniya və Herseqovina, ondan sonra digər ölkələr dəstək göstərdilər. Ən çox dəstək göstərən qardaş Türkiyə olmuşdur. Mənim qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilk saatlardan çox dəqiq və çox qəti mesajlar verdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizi daha da ruhlandırdı. Ancaq hərbi dəstəkdən söhbət gedə bilməz. Buna ehtiyac yoxdur. Bu gün Ermənistanın baş naziri tərəfindən uydurulan yanlış məlumat, əlbəttə ki, beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlib. Misal üçün, dünən Rusiya televiziyasına verdiyi açıqlamasında demişdir ki, Azərbaycan tərəfində Türkiyə vuruşur, Pakistan vuruşur, Suriyadan, Liviyadan olan əsgərlər vuruşur. Bunlar hamısı yalandır. Bu yalanı ifşa etmək o qədər də çətin məsələ deyil.

Toqquşmaların ilk günündə demişdilər ki, Ermənistanın Su-25 təyyarəsini Türkiyənin F-16 təyyarəsi vurmuşdur. Biz dedik ki, sübut verin. Verə bilmədilər. Sonra hər kəs gördü ki, bu, yalandır. İndi bunu artıq demirlər. İndi yeni yalan ortaya atırlar ki, guya Pakistan və türk əsgərləri bizimlə bərabər vuruşurlar. Sübutlar versinlər. Yoxdur, bu. Sadəcə olaraq, Ermənistan tərəfi birinci növbədə istəyir ki, Azərbaycan Ordusunun gücünü pərdələsin.

Ardı 3-cü səh.

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Şuşasız bizim işimiz yarımçıq olar”

*Əvvəli 2-ci səh.*

Guya ki, Azərbaycan təkbaşına bunu edə bilməzdi. İkincisi, onun daha bir yalanı odur ki, guya bu toqquşma artıq bölgədən çıxıb, daha qlobal bir toqquşmaya çevrilib. Bu da yalandır. Bizim Türkiyədən, Pakistandan və başqa qardaş ölkələrdən aldığımız dəstək yalnız mənəvi və siyasi dəstəkdir.

*- Cənab Prezident, Türkiyə və Azərbaycanın dostluğu, əlaqələri, yaxınlığı kimləri narahat edir?*

- Bizi istəməyənləri. Türkiyənin gücünün artırılmasını istəməyənlər.

*- Kimlər?*

- Yəni bunların kimlər olduğu bəllidir. Bir çox ölkələrdə belə dairələr var. Bu, islamofob dairələrdir. Təəssüf ki, bu gün Avropada islamofobiya artır. Kasıb ölkələrdən gələn qaçqınlara olan münasibət də göz qabağındandır. Ona görə islamofob partiyalar bu gün bir neçə Avropa ölkəsində parlamentdə yer alırlar. Radikal faşist partiyalar daha çox səs qazanırlar. Bu, çox təhlükəli bir meyildir. İlk növbədə, Avropa üçün təhlükəli meyildir. Çünki bu, irqçiliyə, ayrı-seçkiliyə, ksenofobiyaya, islamofobiyaya şərait yaradan bir meyildir. Eyni zamanda islamofob qüvvələrlə yanaşı, Türkiyənin gücündən narahat olan dairələr var. Çünki bugünkü Ərdoğan Türkiyəsi 20 il əvvəlki Türkiyə deyil. Bunu biz də bilirik, Türkiyədə yaşayan qardaşlarımız da bilirlər. Bu gün Türkiyə dünyada söz sahibidir. Heç kim Türkiyəyə nəyi isə diktə edə bilməz, nəyi isə məcbur edə bilməz. Türkiyə öz maraqlarını, öz müttəfiqlərinin maraqlarını dünyada layiqincə müdafiə edir, öz təhlükəsizliyini bildiyi kimi təmin edir, beynəlxalq aləmdə söz sahibidir. Bölgədə Türkiyənin iştirakı, razılığı olmadan hər hansı bir məsələ həll edilə bilməz. Suriya, Liviya, ondan sonra Aralıq dənizi - bütün bunlar onu göstərdi. Ona görə bunlar Türkiyənin gücünü istəməyən və bundan narahat olan qüvvələrdir. Bu, təbiidir.

*- Cənab Prezident, birlikdən qüvvət doğar dediniz. Türkiyənin güclü olması nə üçün önəmlidir?*

- Türk dünyası üçün ona görə ki, bu, böyük bir gücdür və bizi gücləndirir. Mən bunu dəfələrlə demişəm. Türkiyədə də demişəm, Azərbaycanda da. Əziz qardaşım Prezident burada olanda demişəm ki, Türkiyə-Azərbaycan birliyi bölgə üçün sabitlik gətirir. Əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu dəqiq mesajlar gəlməsəydi, bəlkə də bu işlərə başqaları qarışa bilərdi. Türkiyənin bu mesajları hər kəsə “dur” dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan-Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın, heç kim bizim daxili məsələlərimizə burnunu soxmasın. Biz bunu istəyirik. Türkiyə bu günə qədər kimin işinə qarışıb? Heç kimin. Azərbaycan kimin işinə qarışıb? Heç kimin. Sadəcə, biz deyirik ki, bizə də dəyməyin, kənarda durun. Dost olaq, tərəfdaş olaq, işbirliyi edək. Amma sizinki sizdə, bizimki bizdə. Biz bunu istəyirik və buna haqqımız çatır.

*- Qarabağ probleminin həllində Türkiyəsiz bir masadan həll yolu tapılarmı?*

- Əslində, de-fakto Türkiyə artıq masadadır. Mən bunu söyləmişəm. Bu, reallıqdır. Bu gün Türkiyə digər bölgədə yerləşən ölkələrlə bu məsələni danışır, müzakirə edir. Siz də bilirsiniz, Rusiya və Türkiyə prezidentləri arasında telefon danışığı olub. Xarici İşlər nazirlərinin, Müdafiə nazirlərinin danışıqları olubdur. Eyni zamanda iranlı həmkarları ilə Türkiyənin yüksək vəzifəli şəxslərinin əlaqələri olubdur, digər ölkələrlə. Ona görə Türkiyə de-fakto buradadır. Sadəcə olaraq, Minsk qrupu 1992-ci ildə təşkil olunduğu üçün, - onsuz da Türkiyə Minsk qrupunun üzvüdür, - o zaman bilmirəm hansısa səbəblərə görə həmsədr olmadı. Yəni biz çox istərdik ki, bəri başdan Türkiyə həmsədr olsun. Ancaq o zaman Türkiyə özü bunu etmədi. Özü istəsəydi, məncə olardı. Çünki ona görə mən deyirəm, bugünkü Ərdoğan Türkiyəsi ilə o Türkiyə arasında böyük fərq var. Əgər həmsədr olsaydı, o zaman təbii ki, bu məsələ çoxdan həll olunardı. Ona görə biz deyirik ki, Türkiyəsiz bu məsələ həll olunmaz. Mən demirəm ki, Minsk qrupu artıq tarixdə qalsın. Yox, qoy onlar da çalışsınlar. Halbuki 30 il ərzində bir nəticəyə gəlmədilər. Amma Türkiyəni bu prosesdən kənardan saxlamaq həm düzgün deyil, həm də ki, mümkün deyil.

*- Cənab Prezident, Minsk qrupunun həmsədri Fransanın münasibətini necə dəyərləndirirsiniz?*

- Bilirsiniz, Fransanın son açıqlamaları hesab edirəm ki, müsbət açıqlamalardır. Eyni zamanda mənim Fransa Prezidenti ilə son telefon danışığım da çox müsbət olubdur. Təbii ki, Fransa həmsədr kimi bitərəf olmalıdır. Mən bunu demişdim. Hər bir ölkənin başqa ölkə ilə xüsusi əlaqələri ola bilər. Yəni milli səviyyədə hər bir ölkə sərbəstdir. Heç kim buna bir irad tuta bilməz. Ancaq həmsədrlik artıq başqa bir mexanizmdir. Bu, həmsədr olan ölkələrin üzərinə böyük məsuliyyət qoyur. Ona görə onlar bu mandat çərçivəsində gərək bitərəf olsunlar. Hesab edirəm ki, bu günə Fransanın addımları və yanaşması müsbətdir.

*- Rusiya Xarici İşlər naziri Lavrov bir açıqlama verdi. Açıqlamasında Qarabağ bölgəsinə hərbi müşahidəçilər göndərə biləcəklərini söylədi. Buna razılıq verərsiniz?*

- Bilirsiniz, eyni zamanda, Rusiyanın Prezident ofisində deyildi ki, bu, hər iki tərəfin - Azərbaycanın və Ermənistanın razılığı əsasında ola bilər. Yəni, bu, əslində, hər şeyi özü deyən bir məsələdir. Hər iki tərəf buna razılıq verməlidir, bu, birincisi. İkincisi, təməl prinsipləri arasında, - mən artıq bu məsələ ilə bağlı fikirlərimi bildirmişəm, - sülhməramlı qüvvələrin bölgəyə göndərilməsi məsələsi var, ancaq ən son mərhələdə. Torpaqlar işğaldan azad edilir, beş rayon, ondan sonra iki rayon, daha sonra Dağlıq Qarabağ ərazisinə və Şuşaya Azərbaycan əhalisi qayıdır. Ondan sonra sülhməramlı qüvvələr gəlir. Ona görə bu gün bu haqda danışmaq tezdir. Üçüncüsü, hansı ölkələr bu sülhməramlı qüvvələrin içində olacaq? Bu da hər iki tərəf arasında razılaşdırılmalıdır. Bu məsələ ilə bağlı müzakirələr prosesində hər hansı bir müzakirə olmamışdır. Hesab edirəm ki, Rusiya Prezident ofisindən verilən açıqlama tamamilə əsaslıdır. Hər iki tərəf buna razı olmalıdır. Bunun razılığı və bunun təqvimi verilməlidir. Bu gün feal münaqişələr gedə-gedə bu haqda danışmaq bir qədər tezdir.

*- Təbii. Ermənistanın işğal etdiyi Qarabağda zəngin yeraltı qaynaqlar var. Bilirik ki, Kəlbəcərdə zəngin qızıl yataqları var. Əslində, Ermənistanın əsl dərdi qızıl yataqlarıdırmı?*

- Odur. Amma əsas onların bizə olan əzəli nifrətidir. Ermənistan faşizm siyasəti aparır, Türkiyəyə, Azərbaycana nifrəti aşılayır, uşaqlara türkləri düşmən kimi qələmə verir. Öz əhalisinin beyinlərini zəhərləyir. Yəni Ermənistanın işğalçılıq siyasətinin təməlində bu dayanır. Əsas məsələ budur. Digər bölgələrin həm bitkiçilik, həm heyvandarlıq üçün çox münbit, çox gözəl torpağı var. Onlar bunu istismar edirlər. Kəlbəcərin qızıl yataqları. Onlar qanunsuz olaraq oranı istismar edirlər. Biz bütün o işdə onlara yardımçı olan və oraya investisiya yatıran şirkətlərə məktub göndərmişdik. Mən bu toqquşmadan əvvəl verdiyim açıqlamalarda demişdim ki, bütün bu xarici şirkətlərə son xəbərdarlıq edirik - ya dayandırın bu fəaliyyəti, ya da biz sizi məhkəməyə verəcəyik. Məhkəmədə bizim sözümüz keçəcək. Çünki bu, qanunsuzdur. Oradan çıxarılan qızılları Ermənistan aparır xaricə satır və pul qazanır. Orada çıxan təbii qaynaqları, bizim torpaqdan əldə edilmiş məhsulu onlar Ermənistana daşıyırlar. Ona görə burada bir çox hədəflər var. Əsas məqsəd bu torpaqları əbədi Ermənistanın tapdağı altında saxlamaqdır. Onlar buna da nail ola bilmədilər.

*- Cənab Prezident, Paşinyanın atası Sorosdur dediniz.*

- Doğrudur.

*- İndi Azərbaycan bölgədə Soroslamı mübarizə aparır?*

- O cümlədən Sorosla. Əslində, mən dedim ki, Soros deyəndə, təkcə Corc Sorosu nəzərdə tutmuram. Bu, bir anlayışdır. Bu, bir hərəkətdir, bu, dağıdıcı bir hərəkətdir, bu, yırtıcı bir hərəkətdir. Bu, müstəmləkəçi bir hərəkətdir. Paşinyanın Sorosla o fotoşəklinə baxın, necə eybəcər fotoşəkildir. O, internetdə var. Durublar, bədənləri də yapışıb bir-birinə. Yəni utancverici bir şəkildir, ikisi də gülür, ikisinin də üzündə təbəssüm. Bu şəkil faktiki olaraq Paşinyanın kim olduğunu göstərir. Çünki Ermənistanda çevrilişin təşkil edilməsində Soros qruplarının böyük rolu oldu və Paşinyan, əslində, hər zaman anti-Rusiya mövqeyində olub. Onun partiyasının adı erməncə “Yolka”dır. Onu tərcümə etsək “Çıxış” deməkdir. Haradan çıxış? Rusiya ilə birlikdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından və Avrasiya Birliyindən. O millət vəkili olarkən hər zaman Rusiyanın əleyhinə idi, anti-Rusiya mövqeyində idi. Ona görə mən təəccüb edirəm ki, bu günə qədər Rusiyada bəzi siyasi dairələr onun tərəfini tuturlar. Axı o, ruspərəst qüvvələrə qarşı inqilab etdi, ruspərəst prezidentləri həbsə atdı, ruspərəst ana müxalifət partiyasının sədrini həbsə atdı. Hər şeyi Rusiyanın əleyhinə etdi, Rusiyanın “Qazprom” şirkətinə, dəmir yolu şirkətinə cinayət işi açdı. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, - hansı ki, NATO tipli bir təşkilatdır, - erməni əsilli sədrini həbsə atdı. Yəni bu, Sorosun sözü ilə oturub-duran bir adamdır. Bir də ki, onun komandasına baxın, onların hamısı Soros Fondunun, Açıq Cəmiyyət Təşkilatının, “Amnesty International”ın nümayəndələridir. Yəni Soros Ermənistanda hakimiyyətə gəldi, amma iflasa uğradı.

*- Cənab Prezident, Türkiyədən hərbi baza istəyiniz oldumu? Bu məsələ ilə bağlı bir açıqlama verdiniz, Türkiyə hərbi baza yarada bilər dediniz. Bu məsələ ilə bağlı bir danışıq apardınızmı?*

- Xeyr, bu məsələ ilə bağlı hər hansı bir danışıq olmamışdır, heç zaman olmamışdır və bu gün də belə bir məsələ yoxdur. Onsuz da Türkiyə ilə hərbi sahədə bizim işbirliyimiz gündən-günə möhkəmlənir. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm ki, keçən il 10 birgə hərbi təlim keçirilmişdir, həm havadan müdafiə, eyni zamanda, özəl komandalar, digər sahələr üzrə. Ona görə bu işbirliyi ən yüksək səviyyədədir və bazanın Azərbaycanda yaradılması məsələsi heç zaman müzakirə mövzusu olmamışdır.

*- Cənab Prezident, Azərbaycan cəbhədə status-kvonu dəyişdi dediniz. Sizə təqdim edilən status-kvo nə idi və bundan sonra Azərbaycanın yeni status-kvosu nə olacaq?*

- Status-kvo artıq yoxdur. Mən bu haqda öz sözlərimi dedim və bu, reallıqdır. Status-kvo nə idi? Torpaqların işğal altında saxlanılması demək idi. Baxmayaraq ki, Minsk qrupunun həmsədrləri bununla əlaqədar hələ 10 il bundan öncə çox müsbət açıqlama vermişdirlər ki, status-kvo qəbuledilməzdir. Praktik addım atılmamışdır və biz 30 il bu status-kvonun dəyişdirilməsini gözlədik ki, müzakirə prosesi nəticəsində buna nail ola bilərik. Amma olmadı. Ona görə döyüş meydanında biz bunu artıq məhv etdik. O artıq yoxdur. İndi Cəbrayıl şəhəri bizdədir, Cəbrayıl rayonunun kəndlərinin böyük hissəsi bizdədir. Füzuli rayonunun kəndlərinin də mütləq əksəriyyəti bizdədir. İndi biz Füzuli şəhərini də görürük. Hadrut bizdədir, Suqovuşan bizdədir.

*- İndi Füzuli şəhərinin mərkəzini görə bilirsinizmi?*

- Görürük, əlbəttə, görürük.

*- İnşallah, yaxın zamanda oradan bir müjdə gələcək deyirsiniz.*

- İnşallah. Yəni hansı status-kvodan söhbət gedə bilər. Status-kvo da yoxdur, təmas xətti də yoxdur. Onu da biz yardıq. Yəni 30 il sülh yolu ilə müzakirə prosesi çərçivəsində edə bilmədiyimizi bax, bu günlər ərzində biz etdik.

*- Cənab Prezident, Sizdən bir şeyi də soruşmaq istəyirəm. Müharibə hələ davam edir. Bu müharibədə Sizi ən çox kədərləndirən, ən çox sevindirən hadisələri soruşacağam. Yeri gəlmişkən, rəmzi bir foto, Gəncədə 4 yaşındakı Bəxtiyarın yaralı halda ikən gülümsəməsi. Bu foto bütün dünyaya əsl simvol oldu. Müsahibə aldıq, özü də nə dedi, dörd yaşındakı ağlı ilə dedi: “Qarabağ bizimdir, Azərbaycanındır!”*

- Bəli.

*- Cənab Prezident, Sizə ən çox təsir edən, kədərləndirən, ən çox sevindirən nələr oldu?*

- Ən çox kədərləndirən bizim itkilərimizdir. Həm mülki vətəndaşlar arasında, həm də əsgərlər arasında. Gənc əsgərlərimiz fədakarlıq, rəşadət göstərərək doğma torpaqları uğrunda şəhid olurlar. Bu, böyük faciədir, xalqımız üçün, onların yaxınları üçün, valideynləri üçün böyük faciədir. Ona görə də hər bir azərbaycanlının həlak olması mənim üçün ən böyük üzüntüdür, istər mülki vətəndaş olsun, istər hərbçi olsun, fərq etməz, onların hamısı bizim soydaşlarımızdır, bizim övladlarımızdır, qardaşlarımızdır.

Ən çox sevindirən isə Azərbaycan xalqının iradəsidir. Çünki mərmi altında yaşayan insan yerindən tərpənmir. Tərtəri Ermənistan Stalinqrada çevirir, ikinci Ağdama, Füzuliyə çevirmək istəyir. Niyə sən bu mülki şəhəri atəşə tutursan? Bax, o dəfn mərasimi olsun. Bu gün səhər iki saat ərzində 200-dən çox mərmi atıldı. Niyə? Tərtərdə nə var? İnsanlar yaşayır. Yəni bu erməni faşizmidir. Bir də ki, qorxutmaq istəyir. Bir də ki, fikri gedir 1990-cı illərə ki, onlar bizə hücum edirdilər, bizim ordumuz onların qabağında dura bilmirdi və bizim vətəndaşlar o bölgələri tərk edirdilər, qaçqın və məcburi köçkünə çevrilirdilər. O fikirlə yaşayırlar. Amma bilməlidirlər ki, indiki Azərbaycan o Azərbaycan deyil. İndiki Azərbaycan güclü dövlətdir və özünü qoruya bilən bir dövlətdir. Bizim insanlarımız mərmi altında yaşayır, oranı tərk etmir, evləri yanır, malları batır, amma deyirlər ki, təki “Vətən sağ olsun!” Bax, məni ən çox sevindirən budur. Eyni zamanda bununla bərabər, bizim bayrağımızı işğaldan azad edilmiş torpaqlarda görməyimdir. Məni ən çox sevindirən, bax, bunlardır.

*- Cənab Prezident, Türkiyədə 83 milyon nəfər hər namazdan sonra Azərbaycan üçün dua edir. Bu duaları hiss edirsiniz. Buradan türk xalqına nə demək, nə mesaj göndərmək istəyərsiniz?*

- Təbii ki, görürəm. Bu dualar və Azərbaycan xalqının duaları, bizim digər ölkələrdə yaşayan dostlarımızın, qardaşlarımızın duaları bizi qoruyur. Çünki biz haqq yolundayıq. Biz öz torpağımız uğrunda vuruşuruq. Ermənistan tərəfindən aparılan müharibə şər qüvvələrin müharibəsidir. Biz hər zaman Türkiyədən dəstək görmüşük, dəstək hiss etmişik. Son illər ərzində Türkiyə və Azərbaycan rəhbərliyi bizim ölkələrimizi bir-birinə o qədər güclü tellərlə bağlayıb ki, bu birlik, bu qardaşlıq sarsılmazdır. Bu günlərdə Türkiyədən mənə çoxlu məktublar gəlir. Yazırlar ki, “Cənab Prezident, mən də gəlməyə hazıram, mən də kömək etməyə hazıram”. Bunlar bizi çox duyğulandırır, çox sevindirir. Bizim birliyimiz bir daha bu çətin dönəmdə özünü büruzə verir. Ona görə bütün türk qardaşlarımıza dərin təşəkkürümü bildirirəm. Biz onların dəstəyini hiss edirik, görürük, bu dəstək bizə əlavə güc verir, bizim iradəmizi gücləndirir. Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan demişdi ki, “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır”. Bu, əslində, bizim birliyimizi təsvir edən ən gözəl ifadədir, ən gözəl kəlamdır.

*- Cənab Prezident, mən də son olaraq Rəcəb Tayyib Ərdoğanı necə tərif edəcəyinizi soruşmaq istərdim.*

- Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən. Təbii ki, mən bu işlərə qarışa bilmərəm. Amma bir insan kimi buna biganə qala bilmərəm. Çünki onun Türkiyə üçün gördüyü işlər genişmiqyaslıdır və bu gün Türkiyəni onun kimi sevən, onun maraqlarını müdafiə edən, öz sinəsini irəli verən ikinci bir insan yoxdur Türkiyədə. Bunu hər kəs bilməlidir. Azərbaycanda bunu hər kəs bilir. Türkiyədə də bir çoxları bilir, amma bilməyənlər üçün də mən demək istəyirəm ki, onlar da görsünlər. Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm. Ona bundan sonra da müvəffəqiyyətlər diləmək istəyirəm. Onun sözləri, onun addımları, onun varlığı bütün türk dünyası üçün önəmlidir və türk dünyasının birləşməsi, işbirliyinin dərinləşməsi istiqamətində biz bundan sonra da böyük səylər göstərəcəyik.

*- Son sual, cənab Prezident, Türkiyə ilə bir ürək olmaq lazım olduğunu dediniz. Bu baxımdan Türkiyədə müxalifətdən Sizə dəstək mesajları gəldimi?*

- Belə səylər oldu. Belə mesajlar gəldi. Bilirsiniz, mən elə insanam ki, hər şeyi necə var elə də deyirəm. Bu məsələdə diplomatiyaya ehtiyac yoxdur. Mənim üçün Türkiyədə əsas məsələ mənim qardaşıma olan münasibətdir. Kim ona yaxşı münasibət bəsləyir, o, mənim ürəyimdədir. Kim ona haqsız münasibət bəsləyir, kim ona qarşı çıxır, mənim ürəyimdə onlar üçün yer yoxdur. Dəstək göstərmək istəyən hər kəsə mən, əlbəttə ki, təşəkkürümü bildirirəm. Ancaq hesab edirəm, hər kəs bilməlidir ki, bu gün Ərdoğan olmasaydı, Türkiyənin başı böyük dərddə ola bilərdi. Bunu hər kəs bilsin, hər kəs anlasın. Bunu mən adi bir Azərbaycan vətəndaşı kimi deyirəm. Bunu siz bu gün 10 milyon Azərbaycan vətəndaşından eşidə bilərsiniz. Türkiyə-Azərbaycan birliyi möhkəmlənir. Ona görə bu birliyi təmin edən insanlar da gərək lazımi dəstək alsınlar hər bir yerdə, milli məsələlərdə. O ki qaldı, partiyalar arasındakı məsələlərə, o, başqa bir işdir. Milli məsələ var, milli məsələdə hər kəs gərək vətənpərvər olsun.

*- Çox təşəkkür edirəm, cənab Prezident, bizə vaxt ayırdınız, suallarımızı cavablandırdınız.*

# “Cənab Prezident, biz Sizi sevirik, Sizə inanırıq və Sizi daim dəstəkləyirik”

**Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Ali Baş Komandan İlham Əliyevə məktublar yazmaqda davam edirlər.**

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Balıkesir şəhərindən **Mehmet Bingöl** yazır: “Hörmətli cənab Prezident, bütün varlığımla, qəlbimin dərinliklərindən gələn hisslərlə qardaş Azərbaycana müqəddəs Vətən müharibəsində müzəffər olmasını arzulayır, işğal altında olan digər doğma torpaqların da tezliklə azad olunmasını, bu zəfərin uğurla başa çatmasını diləyirəm. Ürəyim cəbhə xəttində fədakarlıqla vuruşan qəhrəman Azərbaycan Ordusu ilə birlikdə döyünür. Qələmin iti, qılıncın kəskin olsun Azərbaycan!”

İstanbul şəhərindən **Cemail Bakındı, Yusuf Kutlu, Ali Şahin, Yücəl Köksal, Taner Şener, Yusuf Erbaş, Murat Bakındı, Taner Şəkər, Mustafa Çelik, Metin Sav** və **Mustafa Öksüz** yazırlar: “Hörmətli cənab Prezident, Azərbaycanın 30 ildir işğal altında olan torpaqlarını geri qaytarmaq üçün başladığı mübarizəni bütün qəlbimizlə dəstəkləyirik. Ürəyimiz “iki dövlət, bir millət” anlayışı ilə hər mübarizədə Sizin üçün döyünməkdədir. İşğal altındakı torpaqlar mütləq geri alınacaqdır. Başqa bir alternativ fikirləşmirik. Bu mübarizədə şəhid olan əsgərlərimizə Allahdan rəhmət diləyirik. Qələbə mütləq və mütləq Azərbaycanın olacaqdır. Bu münasibətlə Sizi Ali Baş Komandan kimi təbrik edirik. Azərbaycan varsa, Türkiyə var, Türkiyə varsa, Azərbaycan var. Türkiyə Hotel, Restoran, İstirahət Mərkəzləri İşçilərinin (TOLEYİS) Həmkarlar İttifaqının Ali Məclisinin üzvləri olaraq haqq mübarizənizi dəstəklədiyimizi bildiririk”.

Rusiyanın Tula şəhərindən **Asya Əliyeva:** “Hörmətli Prezident İlham Əliyev, mən əslən Balakən rayonundan, milliyyətcə avar olan azərbaycanlıyam. Hazırda Rusiyada, Tula şəhərində yaşayıram. Xalqımıza verdiyiniz sevinc və qürur hisslərini ifadə etmək üçün söz tapmaq çətindir. Həyəcanla Vətənimizdə baş verən hadisələri müşahidə edir, bu günlərdə həmvətənlərimlə bir sırada olmadığıma görə təəssüf edirəm.

Rusiya mətbuatı bəzən hadisələri öz marağı ətrafında təqdim edir, bəzən isə Ermənistan hakimiyyətini dəstəkləyir. Xalqımızın əzmi qarşısında bunların da əhəmiyyəti yoxdur. Artıq ermənilər itkiləri barədə məlumatları aldıqca mənən tükənirlər. Sizin savadınıza, intellektual və mədəni ifadə olunmaq bacarığınıza, ensiklopedik biliyinizə heyranıq, həmçinin Sizinlə qürur duyuruq. Ətrafımda olan rusların, digər millətdən olan insanların da Sizdən təsirləndiyini görürük. Sizinlə və Vətənimizlə fəxr edirik. İnşallah, qələbə bizim olacaq. Dualarımız Sizinlədir”.

Lerik rayonunun sakini **Eldar Əliyevin** məktubunda deyilir: “Hörmətli cənab Prezident, Sizinlə fəxr edirəm. Siz başda olmaqla, şanlı Ordumuzun qazandığı zəfərlərə görə təşəkkür edirəm. Qoy şəhidlərimizin qanı yerdə qalmasın, torpaqlarımız mənfur düşmən tapdağı altında qalmasın. Azərbaycan Ordusu ilə qürur duyuram. Sizə və Ordumuza güvənirik. Nə yaxşı ki, belə mərd, qorxmaz igidlərimiz var. Cənab Prezident, iki oğlum, beş qızım var. Hazırda bir oğlum - Qurbanəli Əliyev ön cəbhədə döyüşür. Mən bütün əsgərlərimizlə fəxr edirəm. Allah onların hamısını qorusun! Lazım gəlsə, özüm də və o biri oğlum da Vətən uğrunda döyüşməyə hər an hazırıq. 1992-1993-cü illərdəki hadisələri, namərd qonşumuzun, düşmənlərimizin dinc əhalimizin başına gətirdiyi müsibətləri, Xocalıda törətdikləri qətliamı ürəkağrısı ilə xatırlayırıq. İnanırıq ki, o zaman həlak olan günahsız insanların qanı yerdə qalmayacaq. Qüdrətli Ordumuzun sayəsində onların intiqamı alınacaq. Qoy Ulu Öndər Heydər Əliyevin ruhu şad olsun ki, övladı İlham Əliyev Qarabağ torpaqlarını düşməndən azad edir. Eşq olsun Azərbaycan Prezidentinə! Qarabağ Azərbaycandır!”

Bakı şəhərinin sakini **Kürdoğlu Əsgərov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal olunmuş torpaqlarımızın Sizin qüdrətli və yüksək komandanlığınızla müzəffər Ordumuz tərəfindən azad olunması və düşmənə sarsıdıcı zərbələr endirilməsi hər bir Vətən övladı kimi mənim də ürəyimi dağa döndərir. Biz hazırda erməni əsirliyində olan Dilqəm Əsgərovun ailəsi adından yazaraq ölkəmizin ərazi bütövlüyü uğrunda başlatdığınız əks-hücum əməliyyatına görə Sizi alqışlayırıq və hər zaman Sizinlə həmrəy olduğumuzu bildiririk. Bütün torpaqlarımızın yağı düşmən tapdağından azad olunacağına, əsirlikdə olan bütün həmvətənlərimizin və atamın azad olunaraq öz doğma yurdlarına dönəcəklərinə əminəm. Fürsətdən istifadə edərək bildirirəm ki, biz də Kəlbəcər rayonundan didərgin düşərək məcburi köçkün həyatı yaşayırıq. Sizin hər bir Azərbaycan vətəndaşının prezidenti olacağınız barədə dediyiniz fikirlər sadə bir vətəndaş olan bizim də həyatımızın bəzəyi olmuşdur. Belə ki, atamın icarəyə götürdüyü ərazidə mülkiyyətə dəymiş zərərə görə kompensasiya ödənilməsi barədə Sizə ünvanladığımız müraciətimizə də həssas yanaşılmış və problem həllini tapmışdır. Bu, Sizin hər bir Azərbaycan vətəndaşına göstərdiyiniz diqqət və qayğının təzahürüdür. Cənab Prezident, Allahdan Sizə cansağlığı və haqq yolunda qələbə arzulayırıq! Qarabağ Azərbaycandır!”

Bakı sakini **Dəniz Babayeva:** “Hörmətli cənab Prezident, bu məktubu Sizə Zəngilan rayonundan məcburi köçkün olan Babayev Elnur Vidadi oğlunun qızı Dəniz Babayeva yazır. Hazırda ailəmiz Nərimanov rayonu, Böyük Şor qəsəbəsi, 4 nömrəli trestin binasında müvəqqəti məskunlaşıb. Mən isə həmin rayonun 73 saylı tam orta məktəbinin 6-cı sinif şagirdiyəm. Əziz Prezidentimiz, mən torpaqlarımızın bir hissəsinin işğaldan azad edilməsi münasibətilə Sizi təbrik edirəm. İnanıram ki, işğal altında olan bütün torpaqlarımız düşmən tapdağından azad olunacaq və bütün məcburi köçkünlər kimi bizim ailəmiz də öz doğma yurd-yuvasına qayıdacaq. Biz Sizi sevirik, Sizə inanırıq və Sizi daim dəstəkləyirik. Yaşasın bizi qələbədən-qələbəyə səsləyən ər sərkərdəmiz İlham Əliyev! Yaşasın şanlı Ordumuz! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”

Ağdam rayonundan **Səfalı Bağırov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, mən, Ağdam rayonu Muğanlı kənd sakini, məcburi köçkün Bağırov Səfalı Rizvan oğlu həm öz adımdan, həm də bütün ağdamlılar adından Sizə təşəkkürümü bildirirəm. Erməni təxribatları səbəbindən başlanan əks-hücum əməliyyatlarında Ulu Tanrı Sizə və Ordumuza yar olsun. Amin. Mən öz növbəmdə, bu günlərə, Sizin kimi Ali Baş Komandana və qüdrətli Azərbaycan Ordusuna görə Ulu Öndərimiz Heydər Əliyevin o böyük ruhu qarşısında baş əyirəm. Allah Ulu Öndərimizə və bütün şəhidlərimizə rəhmət etsin. Cənab Prezident, Sizə möhkəm cansağlığı və böyük zəfər arzu edirəm”.

Bakı şəhər sakini **İntizam Məmmədov:** “Hörmətli Prezidentimiz, mən Ordumuzun qələbələrinə çox sevinirəm. Anam isə sevincindən ağlayır. Əziz Prezidentimiz, mən də əsgər olmaq istəyirəm. 12 yaşında olmağıma baxmayaraq, mən də ön cəbhəyə getmək, Vətən uğrunda döyüşmək istəyirəm. Şəhidlərimiz tarixə düşür, mən də tarixə düşmək istəyirəm. Vətənimi, Azərbaycanı anam qədər sevirəm. Qardaşlarımı vuruşan görəndə, mən də onların yanında olub, kömək etmək istəyirəm. Bunun üçün mən balaca deyiləm. Erməniləri Sizin dediyiniz kimi, “iti qovan kimi” qovmaq istəyirəm. Mən Vətənimi sevirəm! Mən torpağımı sevirəm! Mən Prezidentimi sevirəm!”

Balakən rayon sakini **Qahirə Balayeva:** “Hörmətli cənab Ali Baş Komandan, mən bu məktubu Sizə yazmaya bilməzdim. Cənab Prezident, uzun illərdir ki, düşmən tapdağında olan torpaqlarımız bu gün Sizin qətiyyətiniz nəticəsində geri alınır. Sizə bu çətin və şərəfli işinizdə uğurlar arzu edirəm. Sizin hər dəfə televiziyada çıxışlarınızı izləyərkən evdə ailəlikcə sevinir və bir daha qürur duyuruq ki, dünya liderləri arasında tanınan, sözünü kəskin deyə bilən Prezidentimiz var. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirəm. Arzu edirəm ki, Siz daim bizim dövlətimizin rəhbəri olasınız. Sizin alternativiniz yoxdur. Biz Sizinləyik! Allah Sizi və Ordumuzu qorusun! Qarabağ Azərbaycandır!”

Lənkəran sakini **Rza Rzayev** dövlət başçısına yazır: “Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli Ordumuzun işğal olunmuş torpaqlarımızı azad etməsi xəbərləri bütün vətəndaşlar kimi biz ruhanilərin də böyük sevincinə səbəb oldu. Rəşadətli Ordumuzun bu minvalla Şuşada üçrəngli bayrağımızı dalğalandıracağı gün çox yaxındadır. Cənab Prezident, ehtiyac yaranarsa, biz ruhanilər də müqəddəs torpaqlarımızın mənfur düşmənin tapdağından azad edilməsi uğrunda canımızla, qanımızla döyüşməyə hazırıq. Sizin kimi Ali Baş Komandanımız olduğuna görə fəxr edirik. Bu haqq işimizdə Allah Sizi, millətimizi və dövlətimizi qorusun!”

Gəncə şəhərindən **Tərlan Ələsgərova:** “Hörmətli cənab Prezident, Sizin kimi dahi rəhbəri Azərbaycana bəxş edən Heydər Əlirza oğlunun ruhu şad olsun! Sizin apardığınız uğurlu daxili və xarici siyasət nəticəsində dövlətimiz güclənmiş, ölkəmiz çiçəklənmiş və xalqımızın rifahı yüksəlmişdir. Son illər Ordumuzu gücləndirmək istiqamətində apardığınız işlər bu gün öz bəhrəsini verməkdədir. Şanlı Ordumuz işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda böyük zəfərlər qazanır. Cənab Ali Baş Komandan, Siz Qarabağ daxil olmaqla bütün Azərbaycanın bayraqdarısınız! Gün o gün olsun ki, üçrəngli bayrağımız Şuşaya sancılsın!”

Xocalı sakini **Vəsilə Məhərrəmova:** “Möhtərəm cənab Prezident, mən Xocalı şəhərindən məcburi köçkün düşmüş və hər iki valideynini itirmiş 25 nəfərdən olan bir şəhid qızı kimi bizə indiyə qədər göstərdiyiniz qayğı və diqqətə görə həmişə Sizi öz arxamızda hiss etmişik. İndi də biz hər iki valideynini itirmiş uşaqlar olaraq Sizin arxanızdayıq. Sizin bu çətin anlarda xalqa müraciətinizə baxaraq həsrət göz yaşlarımız sevinc göz yaşları ilə əvəz olunur. Sizinlə hər zaman qürur duyuruq və fəxr edirik. İnşallah, Sizin yürütdüyünüz siyasət nəticəsində tezliklə Xocalımıza, Şuşamıza, Laçınımıza və bütün Qarabağımıza qovuşacağıq, şəhidlərimizin qanı yerdə qalmayacaq və bayrağımızı Sizin sayənizdə Qarabağımızda dalğalandıracağıq. Siz bizim inandığımız və arxalandığımız Prezidentimizsiniz. Siz bizim qüdrətli Ali Baş Komandanımızsınız. Qarabağ Azərbaycandır!”

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Dağlıq Qarabağ ətrafında baş verən hadisələri böyük həyəcan və ürəkağrısı ilə izləyirəm.

Mən vəziyyətlə yaxşı tanışam. Çünki hələ 1988-ci ildə SSRİ Ali Sovetinin nümayəndə heyətinin tərkibində Azərbaycana və Ermənistana səfər etmişəm, bir neçə gün Dağlıq Qarabağda olmuşam. Təəssüf ki, o vaxtdan keçən bir neçə onillik ərzində problem öz həllini tapmayıb. Fikrimcə, bunun başlıca səbəbi BMT Nizamnaməsinin əsas prinsiplərindən birinin - dövlətlərin ərazi bütövlüyü prinsipinin pozulması və BMT-nin məlum qətnamələrinin yerinə yetirilməməsidir. Bu səbəbdən təəssüflə deməliyəm ki, ATƏT-in Minsk qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransa bu münaqişənin həlli üçün öz təsir imkanlarından istifadə etməyiblər.

Nəticədə yenə insanlar həlak olur, yenə qaçqınlar yaranır, çoxsaylı insanlar bədbəxt olur. Aydın məsələdir ki, sülh yalnız beynəlxalq hüquqa riayət edilməsi nəticəsində bərqərar olacaq. Bunun üçün münaqişə başlayana qədər - 1980-ci illərin əvvəlində mövcud olmuş vəziyyətə qayıtmaq, bu zonada sülh və inkişaf üçün məqbul yollar tapmaq, insanları əvvəlki yaşayış yerlərinə qaytarmaq lazımdır. Hərbi əməliyyatlar nə qədər davam etsə də, hər halda həll yolunu danışıqlar masası arxasında tapmaq lazımdır. İnanmaq istəyirəm ki, bu münaqişənin başa çatması üçün cavabdeh olan hər kəs öz rolunu dərk edəcək və sülhün bərqərar olması üçün əlindən gələni əsirgəməyəcəkdir.

Möhtərəm cənab Prezident, biz - Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri bir ailə kimi Sizin dostlarınızıq. Baş katibimiz və həmsədrlərimiz beynəlxalq siyasətçilərə çox fəal müraciətlər edirlər.

*Hörmətlə,*

***Petru Luçinski,***
***1997-1998-ci illərdə Moldova Respublikasının Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# *Laslo KÖVER:* “Macarıstan hökuməti Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləməkdə davam edəcək”

**Macarıstan parlamentinin Sədri Laslo Köver Milli Məclisin Sədri Sahibə Qafarovaya cavab məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, məktubda Laslo Köver bu il sentyabrın 27-dən başlayaraq cəbhə xəttində baş verənlər haqqında ətraflı məlumatlara görə, həmkarına təşəkkürünü bildirib və mülki insanların ölümü ilə nəticələnən qarşıdurmanın beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurduğunu qeyd edib.

Laslo Köver Macarıstan hökumətinin problemin beynəlxalq hüququn ümumi prinsiplərinə uyğun həllini, həmçinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləməkdə davam edəcəyini vurğulayıb.

Xatırladaq ki, Milli Məclisin Sədri Sahibə Qafarova bir sıra ölkələrin spikerlərinə və beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə Ermənistanın sentyabrın 27-dən etibarən cəbhə xəttində törətdiyi təxribatlar haqqında məktublar ünvanlayıb. Məktublarda Ermənistan silahlı qüvvələrinin hərbi təxribatları, Azərbaycanın şəhər və rayonlarının artilleriya və raketlərdən atəşə tutulması, işğalçı ölkə tərəfindən mülki vətəndaşların və mülki obyektlərin hədəfə alınması haqqında geniş məlumat verilib, həmçinin Ermənistanın törətdiyi bu müharibə cinayətlərinə, vandallıq aktlarına və işğalçılıq siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən adekvat münasibətin bildirilməsinə çağırış edilib.

# Macarıstanın Azərbaycandakı səfiri cəbhə bölgəsindəki son vəziyyət barədə məlumatlandırılıb



**Oktyabrın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Sahibə Qafarova ölkələrimiz arasında münasibətlərin zəngin tarixə malik olduğunu vurğulayıb, əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. O, Azərbaycan-Macarıstan münasibətlərinin inkişafında iki ölkə rəhbərliyi arasında əlaqələrin mühüm rolunu xüsusi qeyd edib.

Parlamentlərarası əlaqələrə də toxunan Spiker Sahibə Qafarova hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının münasibətlərimizin inkişafına töhfə verdiyini bildirib. Hazırda qlobal pandemiya ilə əlaqədar olaraq qarşılıqlı səfərlərin təxirə salındığını söyləyən Milli Məclisin Sədri pandemiyadan sonra bu istiqamətdə fəaliyyətin genişləndirilməsi ilə parlament diplomatiyasının münasibətlərin inkişafında rolunun daha da artacağına ümidvar olduğunu qeyd edib.

Bu günlərdə Macarıstan parlamentinin sədri Laslo Köverin son zamanlar cəbhə xəttində baş verənlərdən, xüsusilə mülki insanların ölümü ilə nəticələnən hadisələrdən ciddi narahatlığını ifadə edən məktubunu aldığını xatırladan S.Qafarova macarıstanlı həmkarlarının bundan sonra da Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləyəcəklərinə ümidvar olduğunu bildirib.

Sahibə Qafarova görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə səfirə geniş məlumat verib.

Eyni zamanda sentyabrın 27-dən başlayaraq Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar, Azərbaycanın şəhər və rayonlarının işğalçı ölkənin silahlı qüvvələri tərəfindən artilleriya və raket atəşinə tutulması, mülki vətəndaşların və mülki obyektlərin hədəfə alınması barədə danışan Milli Məclisin Sədri qeyd edib ki, bütün bunlar Ermənistandakı hərbi-siyasi rejimin cinayətkar mahiyyətini əks etdirir. Son olaraq bu gün Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonuna raket zərbəsi endirilməsini səfirin diqqətinə çatdıran Sahibə Qafarova deyib: “Bu, bir daha göstərir ki, Ermənistan bütün vasitələrlə münaqişənin coğrafi miqyasını genişləndirməyə çalışır. Beynəlxalq ictimaiyyət Ermənistanı müharibə cinayətlərinə görə sərt şəkildə qınamalı, onu bu fəaliyyətindən çəkinməyə çağırmalıdır”.

Səmimi görüşə və ətraflı məlumatlara görə minnətdarlığını bildirən Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi də ölkələrimiz arasında yüksək münasibətlərin məmnunluq doğurduğunu bildirib. O, Azərbaycan və Macarıstanın bir çox məsələlərdə bir-birini dəstəklədiyini xatırladaraq, ölkəsinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin haqlı mövqeyinə hər zaman dəstəyini ifadə etdiyini xüsusi vurğulayıb. Səfir terrorizmə, ekstremizmə qarşı beynəlxalq mübarizənin gücləndirilməsi ilə bağlı da ölkələrimizin mövqelərinin üst-üstə düşdüyünü bildirib.

Görüşdə həmçinin ölkələrimiz arasında mədəniyyət, təhsil, elm sahələrində münasibətlərin genişləndirilməsi, qarşılıqlı tələbə mübadiləsi proqramlarının həyata keçirilməsi, humanitar sahədə əməkdaşlığın gücləndirilməsi istiqamətində addımların atılması ilə bağlı müzakirələr aparılıb.

# Azərbaycan əhalisinin sayı 10 milyon 108 min 79 nəfərə çatıb

**İlin əvvəlindən ölkə əhalisinin sayı 40 min 971 nəfər və ya 0,4 faiz artaraq 2020-ci il sentyabr ayının 1-i vəziyyətinə 10 milyon 108 min 79 nəfərə çatıb.**

Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sayı 117 nəfər olub.

# *Hikmət HACIYEV:* “Ordubada raket zərbəsi Ermənistanın bütün vasitələrlə münaqişənin coğrafi miqyasını genişləndirməyə çalışdığını göstərir”



**“Ermənistan Naxçıvanın Ordubad rayonuna raket zərbəsi endirib. Bu göstərir ki, Ermənistan bütün vasitələrlə münaqişənin coğrafi miqyasını genişləndirməyə çalışır”.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” səhifəsində yazıb.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan Azərbaycanın döyüş zonasından kənardakı şəhərlərinə raket atəşi açır. Bütün məsuliyyət Ermənistanın üzərinə düşür.

# İspaniyanın “EL MUNDO” qəzetində Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin müsahibəsi dərc olunub

İspaniyanın böyük oxucu kütləsinə malik “EL MUNDO” qəzetində Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsi dərc olunub.



EL MUNDO Suscríbete
INTERNACIONAL
ENTREVISTA
Hikmet Hajiyev, asesor presidencial azerbaiyano: "Nunca hemos excluido conceder el autogobierno a Nagorno Karabaj"
El principal consejero de política exterior del presidente de Azerbaiyán dice que Bakú estaría dispuesta a ofrecer una amplia autonomía a la región de mayoría armenia a cambio de recuperar los territorios ocupados
Hikmet Hajiyev. ANADOLU / AFP

AZƏRTAC xəbər verir ki, müsahibədə Azərbaycan Prezidentinin köməkçisi cəbhə bölgəsində yaranmış hazırkı vəziyyətdən, Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təcavüzündən ətraflı bəhs edib. Diqqətə çatdırılıb ki, Ermənistan əldə olunmuş humanitar atəşkəs razılaşmasının tələblərini kobud şəkildə pozaraq, yalnız Gəncəni deyil, həm də Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərini, həmçinin digər mülki əraziləri də ağır artilleriya və raket atəşinə tutub. Hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə şəhərinin Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulması nəticəsində 10 dinc sakin həyatını itirib, 34 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan tərəfi Ermənistan-Azərbaycan sərhədi, habelə Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda “SCUD” raket komplekslərι yerləşdirib. Ermənistan tərəfi bu raketlərlə dəfələrlə dinc əhali və mülki obyektləri atəşə tutub.

“EL MUNDO” nəşrinin jurnalisti Xavyer Espinozanın, guya, muzdluların Azərbaycan tərəfindən hərbi əməliyyatlara cəlb olunması ilə əlaqədar şayiələrlə bağlı sualını cavablandıran Hikmət Hacıyev bildirib ki, bu, Ermənistanın Azərbaycana qarşı çirkin təbliğatıdır. Bu gün yüksək döyüş qabiliyyətinə və ən müasir silahlara malik Azərbaycan Ordusunun muzdlu döyüşçülərə ehtiyacı yoxdur. Uzun illərdir ki, erməni tərəfi Suriya və Livan erməniləri adı altında Azərbaycana, onun Silahlı Qüvvələrinə qarşı muzdlular kimi istifadə edir.

Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqları pozmaq üçün hər vasitəyə əl atdığını diqqətə çatdıran Hikmət Hacıyev Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin güc yolu ilə dəyişdirilməsinin yolverilməz olduğunu, BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair 4 qətnaməsinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyini vurğulayıb.

# Ziyafət Əsgərov NATO PA-nın vebinarında ermənilərin yalanlarını bir daha ifşa edib

NATO Parlament Assambleyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vebinarı keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə quruma üzv və assosiativ üzv olan ölkələrin nümayəndələri və ekspertlər iştirak ediblər.

Vebinarı açan NATO PA-nın prezidenti Attila Mesterxazi əvvəlcə münaqişə barədə iştirakçılara məlumat verib.

Tədbirdə çıxış edən ekspertlər Nona Mixelidze, Laurens Broers, Türkiyə, İtaliya, Kanada, Ermənistan nümayəndələri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə fikirlərini bildirib, münaqişənin kəskinləşməsi nəticəsində yaşanan insan itkilərindən narahatlıqlarını ifadə ediblər.

İclasda çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov səsləndirilən fikirlərə münasibətini bildirib.

Vebinarın təşkilinə görə minnətdarlığını bildirən Ziyafət Əsgərov 27 sentyabrdan etibarən baş vermiş hadisələr barədə geniş məlumat verib. O bildirib ki, həmin gün Ermənistan Azərbaycana qarşı növbəti hərbi hücum həyata keçirdi: “Əlbəttə, biz də cavab vermək məcburiyyətində qaldıq. Buna qədər Ermənistan silahlı qüvvələri tərəfindən 2016-cı ildə, sonra 2020-ci il iyulun 12-də Tovuz rayonunda olduğu kimi müəyyən təxribatlar törədilmişdi. Sonra avqust ayında diversiya qrupu sərhədi keçmək istəmişdi və nəhayət, 27 sentyabrdan sonra baş verənlər...”

Nümayəndə heyətimizin rəhbəri Ermənistan tərəfindən Gəncə şəhərinə raket atılması ilə bağlı bildirib ki, Gəncə Azərbaycanın ikinci böyük şəhəridir. Təəssüf ki, Ermənistan tərəfindən atılmış raket yaşayış binasına düşmüş və Ermənistanın bu terroru nəticəsində 10 mülki şəxs həlak olmuş, 34 nəfər yaralanmışdır.

Daha sonra Z.Əsgərov deyib ki, Azərbaycan və Ermənistan arasındakı danışıqlar artıq 30 ildir gedir: “1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunmuşdur, nədənsə ekspertlərimiz bunu qeyd etmədilər. Bunlar 822, 853, 874 və 884 saylı qətnamələrdir. Həmin qətnamələrdə açıq-aydın şəkildə göstərilir ki, Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalıdır.

Türkiyənin bu prosesdə iştirakına gəldikdə isə, bilirsiniz, biz bir çox ölkələrdən, o cümlədən Rusiyadan, Belarusdan, İsraildən, həmçinin Türkiyədən silahlar alırıq. Türkiyə hazırda bizə yalnız siyasi və diplomatik müstəvidə dəstək verir. Türkiyə ilə əlaqədar Ermənistanın dünyaya yaydığı məlumatlar saxtadır və qara təbliğatdan başqa bir şey deyil.

Burada muzdlular barədə məsələyə də toxunuldu. Cənab Lorens dedi ki, guya, Suriyadan hansısa muzdlular Azərbaycana göndərilib. Biz bunu inkar etmişik və yenə inkar edirik. Yeri gəlmişkən, Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətində bu məsələyə toxunmuşdu və heç bir sübut təqdim etməmişdi. Prezident İlham Əliyev bildirmişdi ki, bizə sübutları təqdim edin: hansı muzdlular, haradan, necə, hansı yolla gətirilir? Heç bir sübut yoxdur. Siz də deyirsiniz ki, guya, buraya Suriyadan hərbi muzdlular gətirilir.

Amma bizdə sübutlar var ki, Ermənistana Livandan, Suriyadan və başqa ölkələrdən PKK terrorçuları gətirilir. Biz bunu sübut etmişik. Bizim sübutlarımız var və onları müvafiq beynəlxalq strukturlara təqdim etmişik”.

Ziyafət Əsgərov qeyd etdi ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının beynəlxalq hüquqla tanınmış ərazisidir. Hamının bunu başa düşməsinin vaxtıdır. Bu anlayışlarla manipulyasiya etmək lazım deyil: “Bir daha bəyan edirik ki, biz humanitar atəşkəsə sadiq qalırıq. Moskvada əldə olunmuş razılıqdan sonra Ermənistanın xarici işlər naziri başqa belə bir bəyanat verdi ki, Dağlıq Qarabağ öz müqəddəratını təyin etməlidir və sairə, sonra isə sülh danışıqlarına “Dağlıq Qarabağ” da qoşulmalıdır. “Dağlıq Qarabağ” adlı qurum yoxdur, bu ərazi Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Hörmətli ekspertlər, “Dağlıq Qarabağ” qanunsuz bir qurumdur. Buna görə də biz münaqişənin yalnız bir həlli yolunu görürük: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən, bizim torpaqlarımızdan çıxarılması”.

Tədbirin sonunda ikinci dəfə çıxış edən Ziyafət Əsgərov bir daha qeyd edib ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. O, beynəlxalq ictimaiyyəti Ermənistanın təxribatlarına və işğalçı siyasətinə adekvat münasibət bildirməyə çağırıb.

# Azərbaycan tarixinin şanlı səhifəsi yazılır

*Əvvəli 1-ci səh.*

Ermənistanın bu ağır cinayətinə beynəlxalq birliyin, xüsusən Minsk qrupu həmsədrlərinin səssiz qalması isə ikili standartların, özgə dərdinə, başqasının faciəsinə laqeydliyin təəssüf doğuran təzahürüdür.

## İlham Əliyev Azərbaycana qarşı olan bütün təzyiqləri neytrallaşdırır

Ali Baş Komandan İlham Əliyev Qarabağda əks-hücum əməliyyatları başlanandan sonra xarici KİV-ə verdiyi bütün müsahibələrində bu məsələyə xüsusi toxunur və qətiyyətlə vurğulayır ki, Ermənistanın xain hücumları Azərbaycanı zərrə qədər yolundan döndərə bilməz. Çünki Azərbaycan haqq yolundadır və bu yolu uğurla davam etdirir.

Münaqişəyə kənar qüvvələrin cəlb edilməsi məsələsinə gəlincə isə, Prezident İlham Əliyev konkret olaraq deyib ki, erməni tərəfinin məqsədi kimlərinsə hesabına yenə müdafiə olunmaqdır. Yəni N.Paşinyanın niyyəti odur ki, Azərbaycan Ordusu Ermənistan ərazisinə zərbələr endirsin və bununla da münaqişəyə başqa dövlətləri cəlb edərək daha 30 illik qanunsuz işğalı təmin etsin.

Bütün bu planlar Azərbaycana qarşı artan siyasi-diplomatik təzyiqlər şəraitində həyata keçirilir. Ancaq Prezident İlham Əliyev bu siyasi təzyiqlərə qətiyyətlə sinə gərir. Təmkinli addımlarla Azərbaycana qarşı olan təzyiqləri neytrallaşdırır. Bununla da Ermənistan və onun havadarlarının bir araya gələrək Azərbaycana qarşı vahid diplomatik cəbhə formalaşdırılmasının qarşısı alınır.

Bu gün Azərbaycan hərbi sahədə əldə etdiyi böyük uğuru həm də diplomatik müstəviyə keçirib. Ermənistanın danışıqların formatını dəyişdirmək və Dağlıq Qarabağdakı qondarma rejimin danışıqlar prosesində tərəf kimi çıxış etməsinə nail olmaq, o cümlədən 1994-cü il Bişkek protokolunu əlində bayraq etmək iddiasının üzərindən birdəfəlik xətt çəkilib. Ermənistan etiraf edir ki, bu münaqişədə tərəf olan Dağlıq Qarabağdakı qondarma rejim deyil, məhz Ermənistan dövlətidir.

Aylar öncə Azərbaycanın ancaq qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalı olduğunu iddia edən, qarşımıza 7 şərt irəli sürən N.Paşinyan artıq bunları dilinə gətirə bilmir. İndi Paşinyan ona diktə edilən şərtləri qəbul etmək zorundadır. Bu gün danışıqlar prosesində məhz Azərbaycan öz iradəsini diktə edir və şərt irəli sürür.

Prezidentin də söylədiyi kimi, istənilən bəyanat, təzyiq Azərbaycanı yolundan döndərə bilməz. Ali Baş Komandanın qətiyyətli mövqeyi ortadadır. Azərbaycan Ordusunun əməliyyatları yalnız Prezident İlham Əliyevin şərtlərinin yerinə yetirildiyi halda dayandırıla bilər. Ermənistan silahlı birləşmələri Azərbaycan torpaqlarından tam çıxmayınca Ordumuz dayanmayacaq. Bu, Azərbaycanın haqq işidir.

## Status-kvo, təmas xətti deyilən anlayış yoxdur

İllərdir cəzasızlıq mühitindən yararlanan Ermənistanın status-kvonu saxlamaq niyyəti də alt-üst oldu. Artıq status-kvo, təmas xətti deyilən anlayış yoxdur. “Münaqişənin hərbi həlli yoxdur” tezisi də məhv olub.

Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibəsində söylədiyi kimi, hədəflər dəyişməz olaraq qalır. Azərbaycanın beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin edilməlidir. Azərbaycan döyüş meydanında dayanmağa da hazırdı. Ancaq bir şərtlə ki, Ermənistan da şərtlərə əməl etsin və Azərbaycan torpaqlarını nə zaman tərk edəcəyi ilə bağlı təqvim versin.

Uzun illərdir ki, Ermənistan danışıqlar prosesində özünü üstün tərəf kimi aparmğa çalışır, şərtlər irəli sürür, beynəlxalq təşkilatların qərar və qətnamələrini, beynəlxalq ictimaiyyətin çağırışlarını qulaqardına vurur, öz iradəsini diktə etməyə çalışırdı. Amma bu müharibə Ermənistanın hərbi-siyasi müstəvidə mövqeyini alt-üst etdi, onun iradəsini sarsıtdı. Eyni zamanda iqtisadiyyatını tam çökdürdü. İndi Ermənistanın yeganə qurtuluş yolu var - İlham Əliyevin irəli sürdüyü şərtlərin icrasını təmin etmək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İşğal edilmiş ərazilərdəki oyuncaq rejimin Milan Şəhər Şurası tərəfindən “tanınma”sı ilə bağlı iddialar Ermənistan tərəfinin növbəti təxribatıdır

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki qeyri-qanuni oyuncaq rejimin Milan Şəhər Şurası tərəfindən “tanınma”sı ilə bağlı iddialar Ermənistan tərəfinin növbəti təxribatı və saxtakarlıqlara əsaslanan təxribatının tərkib hissəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

L.Abdullayeva deyib: “Burada söhbət Milan şəhərində fəaliyyət göstərən Ermənistanın fəxri konsulluğu və Milandakı erməni icmasının təşəbbüsü ilə Şəhər Şurası tərəfindən edilən müraciətdən gedir.

Bu xüsusda bildirmək istərdik ki, İtaliyada hər bir ərazi vahidinin yerli orqanının üzvləri mərkəzi hökumətə istənilən mövzuda müraciətlə çıxış edə bilər. Həmin müraciətlər heç bir hüquqi əsasa malik deyil və hüquqi nəticələr doğurmur. Eyni zamanda İtaliya Respublikasının heç bir ərazi vahidinin “tanıma” kimi səlahiyyəti yoxdur. Erməni tərəfinin “tanıma” olaraq iddia etdiyi “müraciət” də bu qəbildəndir və heç bir hüquqi mahiyyətə malik olmamaqla yanaşı, hər hansı hüquqi nəticələr doğurmur.

İtaliya Respublikasının xarici siyasətini mərkəzi hökumət müəyyənləşdirir. İtaliya Respublikası Hökumətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi birmənalıdır və bu mövqe 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Baş Naziri Cüzeppe Konte tərəfindən Roma şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə”də öz əksini tapıb.

Həmin Birgə Bəyannamədə İtaliya Respublikası Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmətini bir daha təsdiq edib və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz həmin prinsiplər əsasında həllini dəstəkləyib”.

# Biz birlikdə güclüyük!

## “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının ərazisində 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək:

1.1. məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələri istisna olmaqla, bütün təhsil müəssisələrində əlavə tətil günləri (ümumi təhsil müəssisələrində payız tətili ilə əvəz olunmaqla) müəyyən edilsin;

1.2. məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələrinin fəaliyyəti dayandırılsın.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri bu Qərarın icrası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

*Bakı şəhəri, 16 oktyabr 2020-ci il*

## “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının 1.2.5-ci yarımbəndindən “və Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin” sözləri çıxarılsın, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.2.6-cı yarımbənd əlavə edilsin:

“1.2.6. Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması.”.

2. Bu Qərar 2020-ci il 19 oktyabr saat 00:00-dan qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

*Bakı şəhəri, 16 oktyabr 2020-ci il*

## Baş Nazir Əli Əsədov Madagizin Suqovuşan adlandırılması haqqında Qanunun tətbiqi ilə bağlı bəzi məsələlər barədə Sərəncam imzalayıb

**Baş Nazir Əli Əsədov “Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 173-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər barədə Sərəncam imzalayıb.**

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Ədliyyə Nazirliyi icra prosesində müəyyən ediləcək aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının “Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 173-VIQ nömrəli Qanununa (bundan sonra - Qanun) uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməlidir.

Razılaşdırma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər. Eyni zamanda hüquqi aktların layihələrini əsas icraçıya təqdim edən subyektlər “Normativ-hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun müvafiq olaraq 48.2-ci, 48.3-cü və 48.5-ci maddələrinin tələblərinə əməl olunmasını təmin etməlidirlər.

Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq Qanunun tətbiqinin təmin edilməsi məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ-hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməlidirlər.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməlidir.

Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilir.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## Təhsil naziri Emin Əmrullayev Operativ Qərargahın brifinqində sualları cavablandırıb





Oktyabrın 16-da Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqi keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə iştirak edən Təhsil naziri Emin Əmrullayev erməni təcavüzü nəticəsində zərər dəymiş təhsil müəssisələri, həlak olan və yaralanan məktəblilər barədə danışıb. Təhsil naziri bildirib ki, bu səbəbdən cəbhə bölgəsində yerləşən 1221 təhsil müəssisəsinin dərs cədvəllərində dəyişiklik edilib. Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində 3 şagird həlak olub, 15 şagird xəsarət alıb, eləcə də 40-dək təhsil müəssisəsi müxtəlif dağıntılara məruz qalıb. Nazir Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qələbəsinə və bu günün uzaqda olmadığına inamını ifadə edib.

Emin Əmrullayev koronavirusla bağlı məktəblərdə vəziyyətə toxunub və nazirlik tərəfindən gündəlik olaraq ictimaiyyətə məlumat verildiyini bir daha xatırladıb. Təhsil müəssisələrinin kontingentinin çoxsaylı olması və bunun nəticəsində yoluxma ehtimalının arta biləcəyini deyən Təhsil naziri qeyd edib ki, buna görə də Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, oktyabrın 19-dan noyabrın 2-dək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub. Qərara əsasən, qeyd edilən dövr ərzində ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələrinin fəaliyyəti tamamilə dayandırılır. Daha sonra çıxış edən TƏBİB-in departament direktoru Yaqut Qarayeva ölkədə koronavirusa yoluxma barədə məlumat verib və bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq, müəyyən addımlar atılır, lokal qapanmalar həyata keçirilir.

## *Operativ Qərargah:*

## Xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib

Son günlər bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunmaqdadır.

Bu səbəbdən mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə aşağıdakı məhdudiyyətlər tətbiq edilir:

- 2020-ci il 19 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılır;
- 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilir. Özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara eyni qaydanın tətbiq edilməsi tövsiyə olunur.

Yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin ən zəruri hallarda yaşayış yerlərini tərk etmələri tövsiyə edilir.

Bir daha vətəndaşlarımızı COVID-19-la bağlı hazırkı vəziyyətdə şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara ciddi əməl etməyə, qoruyucu maskalardan istifadə etməyə, evdən yalnız zəruri ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud karantin şərtlərinə əməl etməyə çağırırıq.

Onu da qeyd edək ki, Milli Ordumuzun Ermənistanın təcavüzünə qarşı uğurlu əks-hücum əməliyyatları apardığı zamanda hər birimiz virusun geniş yayılmaması üçün müvafiq qaydalara riayət etməklə dövlətimizə, ordumuza dəstək vermiş olarıq.

## Azərbaycanda koronavirus infeksiyasına 509 yoluxma faktı qeydə alınıb, daha 129 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 509 yeni yoluxma faktı qeydə alınıb, daha 129 nəfər sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 43 min 789 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 800 nəfər müalicə olunaraq sağalıb, 621 nəfər vəfat edib. Aktiv xəstə sayı 3368 nəfərdir. Ötən müddət ərzində 1 milyon 209 min 802 test aparılıb. Dünənki test sayı isə 7878-dir.

## Vətəndaş məsuliyyəti əsas şərtdir

### Koronavirusla mübarizədə əsas vəzifələrdən biri də karantin rejiminin tələblərinə əməl etməklə Azərbaycan əsgərini qorumaqdır



*Əvvəli 1-ci səh.*

Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilməlidirlər. Özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara eyni qaydanın tətbiq edilməsi tövsiyə olunur. Yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin ən zəruri hallarda yaşayış yerlərini tərk etmələri tövsiyə edilir. Eyni zamanda Nazirlər Kabinetinin qərarına əsasən, oktyabrın 19-dan noyabrın 2-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti də dayandırılır.

### Təhsil sistemi üçün riskli situasiya yaranıb

Təhsil naziri Emin Əmrullayev məlumat verib ki, təhsil müəssisələri yoluxmanı artıra biləcək yerlər kimi qiymətləndirilir. Təhsil sistemi üçün riskli situasiya yaranıb. Buna görə də sözügedən tarixlərdə ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub: “Payız ayında yoluxmanın artması gözləniləndir. Eyni zamanda başa düşməliyik ki, biz xüsusi şəraitdəyik, xüsusilə diqqətdə olmalıyıq. Təhsil Nazirliyi məktəblərdə yoluxma ilə bağlı ictimaiyyətə gündəlik məlumat verirdi. Əgər sentyabrın 15-dən oktyabrın 5-dək cəmi 2 məktəbdə qapanma qeydə alınmışdısa, son günlər hər gün 10-15 məktəb bağlanma məcburiyyətində idi. Yoluxmanın səviyyəsinin 500-ü keçməsi gün ərzində bir neçə məktəbin bağlanmasına gətirib çıxara bilər”.

### Virusun yayılması tibb işçiləri üçün ikinci cəbhənin açılması deməkdir

Nazirlər Kabineti yanında Operativ Qərargah da vətəndaşları COVID-19-la bağlı hazırkı vəziyyətdə şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara ciddi əməl etməyə, qoruyucu maskalardan istifadə etməyə, evdən yalnız zəruri ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud karantin şərtlərinə əməl etməyə çağırıb. Qeyd edib ki, Ordumuzun Ermənistanın təcavüzünə qarşı uğurlu əks-hücum əməliyyatları apardığı zamanda hər birimiz virusun geniş yayılmaması üçün müvafiq qaydalara riayət etməklə dövlətimizə, ordumuza dəstək vermiş olarıq.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib ki, koronavirus xəstələrinin artması tibb işçiləri üçün ikinci cəbhənin açılması deməkdir. O, vətəndaşları daha diqqətli olmağa çağırıb: “28 sentyabrdan başlayaraq TƏBİB-in xüsusi işçi qrupları daim cəbhə bölgəsindədir. Bütün xəstəxanalarda həm Bakıdan ezam olunan, həm də könüllü gedən həkimlər, tibb işçiləri var: “Ən qaynar bölgələrdə TƏBİB-in işçi qrupları var, hərbçilərin təxliyəsi və müalicəsinə kömək edirlər. Bu vəziyyətdə koronavirus xəstələrinin artması tibb işçiləri üçün ikinci cəbhənin açılması deməkdir”.

O, qeyd edib ki, bu gün ölkədə kifayət qədər süni tənəffüs aparatları, dərman ehtiyatları var: “Ancaq insan resurslarından söhbət gedirsə, tibb işçiləri, xüsusən, cəbhə bölgəsində işləmək istəyirlər. Biz heç bir halda koronavirus xəstələrini köməksiz qoya bilmərik. Bu xəstələr də lazımi tibbi yardım alacaqlar. Bu xəstəliklə mübarizə də bu gün Qələbəyə, Orduya dəstəkdir. Bu gün hər hansı tibb işçisinin yoluxması onun 14 gün işləməməsi deməkdir. Biz bu gün kütləvi tədbirlərdən uzaq durmalı, kütləvi tədbirlərdə iştirak edən zaman maskadan istifadə etməli, məsafəni saxlamalıyıq. Özümüzü qorusaq, tibb işçilərinin də işi artmaz. Bu şəkildə Qələbəmizə dəstək olaq”.

### COVID-19 həyatımızdan yox olmayıb

Bu bir reallıqdır ki, qorxulu virusun yayılması hava, damcı yolu ilə olduğu üçün onun qarşısını ala bilmək yalnız profilaktik tədbirlər görməklə, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əməl etməklə mümkündür. Xəstəliyin yayılmasının qarşısını almaq, yaşaya biləcəyimiz acı ssenarilərin önünə keçmək üçün dövlətimiz bütün istiqamətlərdə lazımi addımlar atır. Vətəndaşlarının təhlükəsizliyi, sağlamlığı üçün zəruri tədbirlər həyata keçirir. Amma pandemiyaya qarşı görülən bu tədbirlərin effektivliyi məhz vətəndaşların qaydalara uymasından, onların duyarlılığından birbaşa asılıdır.

Mütəxəssislərin bildirdiyi kimi, sərt karantin rejiminin yumşaldılması, məhdudiyyətlərin aradan qaldırılması, payız mövsümünün gəlişi, bəzi insanların qaydalara ciddi riayət etməməsi yoluxmanın artmasına səbəb olub. Eyni zamanda hazırda Azərbaycan koronavirus kimi təhlükəli daha bir düşmənlə mübarizə aparır və bütün diqqətimiz ön cəbhəyə yönəlib. Demək olar ki, koronavirusa qarşı alınacaq vacib tədbirlər yaddan çıxıb. Amma təəssüf ki, COVID-19 həyatımızdan yox olmayıb.

### Hər iki cəbhədə düşmənin nəfəsini tezliklə kəsəcəyik...

Hazırda Azərbaycan iki təhlükəli düşmənlə vuruşur. Bu düşmənlərin hər ikisi hiyləgər, hər ikisi qəddar xislətli, insan qənimidir. Azacıq bir ehtiyatsızlıq, sərvaxtlıq gözləyirlər ki, amansızlıqla hücuma keçib canlar almaqda davam etsinlər.

Biz bu çətin günlərdə, ətrafımıza düşmənlərin sarıldığı bir zamanda dövlətimizin qoyduğu qaydalara riayət edərək, daha ehtiyatlı davranaraq və məsuliyyətli olaraq təhlükəni dəf edə bilərik. Bilməliyik ki, bu iki düşmənə qarşı qalibiyyət hər birimizin davranışından, vətəndaş həmrəyliyindən, birliyindən asılıdır.

İndi bütün Azərbaycan xalqı Vətən torpaqlarımızın bütövlüyü uğrunda döyüşən igid əsgərlərimiz üçün nə isə etmək, kömək göstərmək arzusundadır. Fürsətdir, Azərbaycan əsgərini, Azərbaycan Ordusunu COVID-19-dan qorumaqla onlara ən böyük töhfə verə bilərik.

Əminik ki, təhlükəyə qarşı səfərbər olaraq vətənimizin üzərinə qara kölgə salan hər iki qəddar düşmənin təhlükəli nəfəsini tezliklə kəsəcəyik...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## *Azərbaycan Müdafiə Nazirliyi:* Cəbhədə vəziyyət gərgin olaraq qalır







**Oktyabrın 15-i gün ərzində və 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən işğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərindəki bölmələrimizin mövqelərini və cəbhə xəttinə yaxın kəndləri dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub.

Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Qoşunlarımız tərəfindən bunun qarşısı alınıb, düşmən ciddi itki verib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyət nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Ermənistan rəhbərliyi bunun qarşısını almaq məqsədilə Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

Ermənistan ordusunun 5-ci dağatıcı alayının müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan var. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmır. Həmçinin düşmənin 10-cu alayının müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan var. Geri çəkilən düşmən, xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb. Bundan başqa, 9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini isə yaralanıb.

Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qisminin döyüşə girməkdən imtina etməsi məlum olub.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən oktyabrın 15-də saat 10:44-də atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazilərini atəşə tutmaqda davam edir.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, döyüş meydanında Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyən düşmən beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq yaşayış məntəqələrimizi, mülki şəxsləri hədəfə alır.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Xocavənd rayonunun işğaldan azad olunan kəndlərindən və Hadrut qəsəbəsindən yeni videogörüntülər paylaşıb.

## Ağdam rayonunda kənd qəbiristanlıqları erməni hərbçilərinin artilleriya atəşinə məruz qalıb




Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir.




Düşmənin atəşi nəticəsində yaşı minillərlə ölçülən tarixi-mədəni abidələrimiz, müqəddəs ocaqlarımız, qəbiristanlıqlarımız da zərər görür. İşğal altında olan ərazilərimizdəki tarixi-dini abidələri məhv edən ermənilər dədə-baba torpaqlarımızdan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı silmək istəyirlər.

AZƏRTAC xəbər verir ki, cəbhə xəttinə yaxın məsafədə yerləşən yaşayış məntəqələrində vətəndaşlara məxsus evlər, mülki infrastruktur obyektləri ilə yanaşı, qəbiristanlıqlar da ermənilərin artilleriya atəşinə məruz qalır. Ağdam rayonunda kənd qəbiristanlıqlarına düşən mərmilərin partlaması nəticəsində bir çox qəbir daşları dağılıb və ya zədələnib.

## *Baş Prokurorluq:* Erməni əsirlərinə qarşı qanunsuz davranışlarla bağlı yayılmış videolar saxtadır

Son günlər bəzi sosial şəbəkə istifadəçiləri, o cümlədən "İnfoteka24" və digər xarici kütləvi informasiya vasitələri tərəfindən, guya, Azərbaycan Ordusunun hərbi qulluqçularının erməni əsirlərinə qarşı qanunsuz davranışlarını, o cümlədən, guya, azərbaycanlı həkimlərin yaralılara qarşı laqeyd münasibət göstərmələrini əks etdirən videogörüntülər yayılıb.

Bununla əlaqədar Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Tərəfimizdən erməni əsirlərinə qarşı qanunsuz davranışlarla bağlı yayılmış videolarla əlaqədar araşdırma aparılıb və onların saxta olması müəyyənləşdirilib.

Bildiririk ki, beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə ermənilər tərəfindən səhnələşdirilən bu tipli videolar təxribat xarakteri daşıyır. Videoların Azərbaycan hərbi qulluqçularının döyüş fəaliyyətinə, o cümlədən cəmiyyətimizə heç bir aidiyyəti yoxdur.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən vətəndaşlarımızdan dövlətimiz üçün həssas və şanlı olan bu dövrdə ayıq-sayıq olmaqla təxribat xarakterli yayılmış videoların ictimailəşdirilməməsi, o cümlədən mobil tətbiqlər vasitəsilə yaymamaq xahiş olunur".

## Qafqaz Müsəlmanları İdarəsi Azərbaycandakı dini konfessiyalarla birgə Vətən müharibəsi ilə bağlı bəyanat yayıb

Oktyabrın 16-da Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Azərbaycandakı dini konfessiyalarla birgə Vətən müharibəsi ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "2020-ci ilin iyul ayından etibarən Azərbaycanın işğal olunmuş ərazilərində, o cümlədən Azərbaycan-Ermənistan dövlət sərhədi məntəqələrində Ermənistanın həyata keçirdiyi son hərbi təxribatlar, habelə işğalçı rejimin mülki əhalimizə və döyüş bölgələrindən uzaq məsafədə yerləşən şəhər və qəsəbələrimizə qarşı tətbiq etdiyi insanlığa qarşı hərbi cinayətləri və onun nəticələri barədə Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycandakı dini konfessiyalar tərəfindən dünya ictimaiyyətinə və dini liderlərinə, xarici ölkələrin dövlət orqanlarına və beynəlxalq təşkilatlara çoxsaylı məktub və müraciətlər ünvanlayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə dair dövlətimizin siyasətinə uyğun olaraq dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsi öz xətti və fəaliyyət istiqamətləri üzrə əməli iş aparmaqdadır. Qafqaz Müsəlmanları İdarəsi malik olduğu geniş beynəlxalq əlaqələrindən hər zaman Azərbaycanın haqq işinin həqiqətləri barədə geniş, əhatəli məlumatları dünya ictimaiyyətinə çatdırmaq üçün istifadə edir. QMİ sədri iştirak etdiyi bütün beynəlxalq forumların xitabət kürsüsündən Qarabağ probleminin ədalətli sülh yolu ilə həllinə dair mövqeyini ifadə edir.

QMİ sədri Azərbaycan xalqının dini lideri olaraq hər zaman münaqişənin ədalətli həllinin vacibliyinə və buna nail olmaq üçün sülhməramlı danışıqların zəruriliyə inam mövqeyindən çıxış edərək 1988-ci ildən, yəni Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlandığı tarixdən müxtəlif illərdə dini mərkəzlərin, nüfuzlu dini liderlərin vasitəçiliyi ilə - ələlxüsus, Rus Pravoslav Kilsəsinin rəhbəri Patriarx Kirillin, Ümumgürcüstan Patriarxı II İlyanın ali vasitəçilikləri, Ümumdünya Kilsələr Şurasının himayəsi və Vatikan nümayəndələrinin də müşahidəçi iştirakı ilə ermənilərin dini liderləri ilə bir araya gəlib. Müxtəlif illərdə İsveçrənin Montrö, Rusiyanın Rostov şəhərlərində, Tbilisidə, dəfələrlə Moskvada, Dünya Dini Liderlərinin I Sammiti zamanı Bakıda, MDB Dinlərarası Şurasının iclası zamanı İrəvanda erməni katolikosları ilə görüşləri qan tökülməsinin qarşısının alınmasına, ədalətli sülh üçün mənəvi zəmin hazırlanmasına xidmət etmək məramı daşıyıb. Görüşlərin nəticələrinə dair QMİ sədrinin erməni katolikosları - I Vazgen, I Qaregin, II Qaregin ilə imzaladığı birgə bəyanatlarda münaqişənin sülh yolu ilə həllinin vacibliyinə dair əminlik, xalqlarımızın dinc yanaşı yaşaması üçün zəminin hazırlanması, dini liderlərin bu işdə mənəvi rolu xüsusi təsbit olunub. Ən mühümü, birgə bəyanatlarda münaqişənin dinlərarası qarşıdurma səciyyəsi daşımadığı birmənalı şəkildə vurğulanıb. Bu vacib nəticə idi və sülhməramlı vasitəçilik missiyasında xüsusi əməyi olan Patriarx Kirill həzrətləri Azərbaycan və Ermənistan dini liderlərinə son müraciətində əldə olunmuş nəticələri qoruyub saxlamaq zərurətindən danışarkən, məhz bu məqamı xüsusi dəyərləndirib.

Bu ilin iyulunda Tovuz istiqamətində Ermənistanın son təxribatları və sentyabrın 27-də hücum halları baş verəndən bəri Azərbaycanın məruz qaldığı yeni təcavüzün əsl mahiyyəti barədə QMİ əməkdaşlıq etdiyi bütün dünya dini mərkəzlərini, qurum və təsisatları məlumatlandırmağı mənəvi vəzifə olaraq həyata keçirməkdədir. QMİ nəzdində 2017-ci ildən fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzi xətti ilə dünyanın nüfuzlu dövlət, hökumət və mənəvi təsisatlarına yönləndirdiyimiz müraciətlər dünyanın yüzə yaxın dövlətini əhatə edir.

Qafqaz Müsəlmanları İdarəsi Vətən müharibəsinin ilk günlərindən Azərbaycan xalqına mənəvi dəstəyinin ifadə olunduğu xalqa müraciətini bəyan etdi. Ardınca QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdəki dini konfessiyaların rəhbərləri ilə birgə Azərbaycan Prezidentinə ünvanlı həmrəylik müraciətini imzaladı. QMİ sədri Şeyxülislam A. Paşazadənin imzası ilə Vatikan dövlətinin rəhbəri, Roma Katolik Kilsəsinin başçısı zati-müqəddəsləri Papa Fransisk həzrətlərinə, Rus Pravoslav Kilsəsinin başçısı, Moskva və bütün Rusiya Patriarxı zati-müqəddəsləri Kiril həzrətlərinə, Ümumgürcüstan Katolikos-Patriarxı zati-müqəddəsləri II İlya həzrətlərinə, Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başkanı cənab Ali Erbaşa, İran İslam Respublikasının Ali Rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri cənab Əli Əkbər Vilayətiyə, habelə beynəlxalq təşkilatların ünvanına - BMT Baş Katibi Antonio Quterreşə, ATƏT-in hazırda fəaliyyətdə olan sədri Edi Ramaya, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi Yusif bin Əhməd Əl-Useyminə, İRSİKA-nın Baş direktoru Halit Erenə, Beynəlxalq İslam Üləmaları İttifaqının baş katibi Əli Muhyiddin Əl-Qaradağiyə (Qətər), Beynəlxalq İslam Xeyriyyə Fondunun idarə heyətinin sədri Abdullah Mətuq Əl-Mətuqa (Küveyt), İslam Aləmi Liqasının baş katibi Məhəmməd Əbdülkərim Əl-İssaya (Səudiyyə Ərəbistanı), Avropa-Türk İslam Birliyinin prezidenti Sərdar Çələbiyə göndərilən müraciətlər vasitəsilə dünyanın nüfuzlu şəxsləri Azərbaycan torpaqlarına qarşı son təcavüz aktlarının nəticələri barədə məlumatlandırılıblar.

Bunlarla yanaşı, QMİ və Bakı Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzinin fəaliyyət zəminində əməkdaşlıq etdiyi Əl-Əzhərin Şeyxi Əhməd Ət-Tayyib (Misir), Əfqanıstanın Həcc, İrşad və Vəqflər naziri Məhəmməd Qasem Həlimi, Seneqal Prezidentinin xüsusi müşaviri Şeyx Məhəmməd Mənsur Nias, Pakistan Dini işlər və dinlərarası harmoniya naziri Nurul-Haqq Qədri, Tunis Respublikasının sabiq prezidenti Məhəmməd Əl-Mərzuqi, Mərakeş Vəqflər naziri Əhməd Taufiq, Əlcəzair Ali Dini Şurasının sədri Buabdulla Qulamulla, Amerika Əsas Yəhudi Təşkilatları konqresinin vitse-prezidenti Malkolm Honlayn, ABŞ Simon Vesental mərkəzinin başçısı Abraham Kuper, ABŞ Yeshiva universiteti Sefardi araşdırmaları institutunun direktoru Eli Abadi, Beynəlxalq Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer, Yerusəlim baş sefardi ravvini Şlomo Amar, ABŞ Xristian liderləri Birliyinin prezidenti Conni Mur, Avropa ravvinlər konqresi idarə heyətinin üzvü Cenevrə ravvini İshak Dayan, Berlinin baş ravvini Yitshak Erenberq, Mərkəzi Asiya ölkələrinin dini liderləri, Şimali Qafqaz respublikalarının müftiləri, Rusiya Federasiyanın bütün subyektlərinin mərkəzi dini idarə rəhbərləri və digərlərinə Azərbaycan torpaqlarına qarşı son təcavüz aktlarının nəticələri barədə ətraflı, müfəssəl məlumatların yer aldığı məktublar göndərilib. Dünya dini liderlərindən, nüfuzlu şəxsiyyətlərdən müraciətlərimizə cavab olaraq Azərbaycanın haqlı mübarizəsinə dəstəyin bilavasitə ifadə olunduğu məktublar daxil olmaqdadır.

Reallıq bundan ibarətdir ki, Ermənistan hakimiyyətinin öz işğalçı siyasətinə dini don geyindirmək cəhdləri həmişə olmuşdur və təəssüflər olsun ki, bu gün də gündəmə gətirilməkdə davam edir. Dini hisslərdən siyasi məqsədlər üçün sui-istifadə kimi olduqca təhlükəli meyli erməni tərəfi dini təəssübkeşlikdən dolayı dünya dövlətlərindən hərtərəfli dəstək almaq məramı ilə zaman-zaman məkrlə, riyakarcasına qabartmaqdadır. Məlum olduğu kimi, dünya birliyinə meydan oxuyan, beynəlxalq qanun və normalara məhəl qoymayan, Rusiyanın təşəbbüsü ilə əldə olunmuş atəşkəsi pozan Ermənistan Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni ağır raket silahı ilə atəşə tutaraq, dinc insanları, yaşayış evlərini, mülki obyektləri nişan alır. Ümumən, bu günədək 5-i uşaq olmaqla 42 dinc sakinimiz qətlə yetirilib. Son təcavüz aktı zamanı Gəncədəki Rus Pravoslav Yeparxiyasına məxsus kilsəyə və müsəlmanlar üçün böyük mənəvi əhəmiyyət kəsb edən Gəncə İmamzadəsinə xəsarət yetirilib. Bu reallıqların müqabilində erməni kilsəsi bütün dünyaya təxribat xarakterli yalan məlumat yayır ki, guya, Azərbaycan tərəfi Şuşadakı xristian kilsəsini hədəfə götürmüşdür. Bu təxribat xarakterli məlumat Azərbaycanın rəsmi qurumları tərəfindən sübutlarla təkzib edilmişdir. Dini konfessiya rəhbərləri olaraq bildirməyi vacib sayırıq ki, Vətənimiz Azərbaycan ölkəmizin ərazisindəki bütün dinlərə məxsus abidələri, məscid, kilsə, sinaqoqları təmir, bərpa, inşa etdirən dövlətdir. Şuşa Azərbaycanın nadir incisidir və buradakı bütün mədəni-dini abidələri də qoruyub himayə edən bir dövlətə belə ittihamlar uyğun gəlmir. Bütün dünya Azərbaycan xalqının tolerantlığının, multikultural dəyərlərə ehtiramının, dövlətimizin başçısı İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dünyanın bəşəri əhəmiyyətli mədəni-mənəvi irs nümunələrinə diqqət və qayğısının əyani şahididir. Serbiyada müharibə zamanı dağılmış kilsə və məscidi təmir etdirən, Vatikanda katakombaları, Fransada kilsə vitrajlarını bərpa etdirən dövlət barəsində beynəlxalq rəydə xristian dini abidələrinə xələl gətirən ölkə imici formalaşdırmaq cəhdi məsələyə dini don geyindirməklə xristian-müsəlman qarşıdurması yaratmaq məqsədi güdür. Azərbaycan dövləti erməni kilsəsini paytaxt Bakının mərkəzində təmir edib qoruyur. Bakıda olarkən erməni katolikosu şəxsən bu kilsəni ziyarət etdi, ibadət mərasimi və Azərbaycanda yaşayan ermənilərlə görüş keçirdi, kilsənin daxilində erməni dilindəki kitabların qorunduğu kitabxana ilə tanış oldu. Ermənistandan fərqli olaraq, Azərbaycanda Rus Pravoslav Kilsəsinin Yeparxiyası, rusdilli tədris, Slavyan Universiteti, pravoslav, katolik, alban-udi xristian dindarlar üçün bazar günü məktəbləri, habelə yəhudi tədris və mədəniyyət mərkəzləri mövcuddur. Ölkəmiz milli və dini azlıq nümayəndələrinin bütün vətəndaşlıq hüquqlarından yararlandığı, öz milli, dini adət-ənənələrini azad yaşatdıqları bir ölkədir və mədəniyyətlər, dinlər arasında dialoq və əməkdaşlıq məkanı kimi dünya miqyasında tanınır. Ermənistanın isə monoetnik dövlət olması, etnik təmizləmə həyata keçirməsi onun ksenofobiyaya meyilli olduğunun təzahürüdür, qonşu torpaqlarına göz dikməsi, Xocalı soyqırımını törətməsi terrorçu xislətinin göstəricidir. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində on minlərlə dini, mədəni abidələri məhv etməsi, mənşəyini saxtalaşdırması vandalizm mahiyyəti daşıyır, müsəlman mədəniyyəti nümunələrini məqsədyönlü məhv etməsi isə islamofobiyanı dövlət siyasəti olaraq həyata keçirməsinin sübutudur.

Azərbaycan xalqı sülhsevər xalqdır, heç vaxt özgə torpağında gözü olmayıb. Və bu gün Azərbaycan öz ərazilərində, öz torpaqlarını işğalçılardan təmizləyərkən, dövlət rəhbərinin siyasi iradəsinə, xalqının əzminə, öz ordusunun güc və qüdrətinə güvənir. Bizim haqq yolunda olmağımız bizə qüvvət verən mühüm amildir. Beynəlxalq birlik özünün tanıdığı ərazi bütövlüyümüzü bərpa etmək yönündə bizim beynəlxalq hüquq çərçivəsində hərəkət etdiyimizin fərqindədir. Bunu bizə daxil olan çoxsaylı dəstək məktublarında, həmrəylik zənglərində görürük. Bütün bizim haqq işimizə dəstək olan, ədaləti müdafiə edən ölkələrə, xalqlara, tanınmış insanlara ürəkdən minnətdarıq.

Biz, Azərbaycandakı bütün dini konfessiya rəhbərləri bir daha bəyan edirik ki, Vətənin haqq işi uğrunda birlikdəyik, həmrəyik və xalqımıza, dövlətimizə, dövlət başçımıza dəstək veririk. Bizim bir tələbimiz var - BMT-nin Azərbaycanın işğal olunmuş ərazilərinin erməni hərbi birləşmələri tərəfindən qeyd-şərtsiz azad olunmasına dair 4 qətnaməsinin yerinə yetirilməsi. Bütün səmavi dinlərin müqəddəs kitablarında ən ali dəyər hesab olunan insan həyatının xilası, qan tökülməsinin qarşısının alınması məramının vacibliyini rəhbər tutaraq dünya ictimaiyyətinə, dini liderlərə, dövlət rəhbərlərinə və beynəlxalq təşkilatlara müraciət edir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həlli üçün səylərini əsirgəməməyə çağırırıq.

Uca Allah bizi qorusun!

***Şeyxülislam Allahşükür Paşazadə,***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*
***Aleksandr,***
*Bakı və Azərbaycan Arxiyepiskopu*
***Melih Yevdayev,***
*Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri*
***Aleksandr Şarovski,***
*Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri*
***Robert Mobili,***
*Alban-udi icmasının rəhbəri".*

## QMİ-də Vətən müharibəsi ilə bağlı yerli və xarici media nümayəndələri üçün brifinq keçirilib

Oktyabrın 16-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Azərbaycandakı dini konfessiya rəhbərlərinin iştirakı ilə Vətən müharibəsi ilə bağlı yerli və xarici media nümayəndələri üçün brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub. Sonra Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycandakı dini konfessiyalarla birgə bəyanatı oxunub.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Vətən uğrunda şəhid olanların xalqımızın yaddaşında daim yaşayacaqlarını bildirib. Qeyd edib ki, belə vətənpərvər övladları olan ölkə heç zaman məğlub ola bilməz. Bu gün Azərbaycan Vətən müharibəsi aparır, şəhidlərimiz, yaralılarımız var. Azərbaycan xalqına, şəhid ailələrinə başsağlığı verir, yaralananlara Allahdan şəfa diləyirəm.

QMİ sədri bildirib ki, Ermənistan 1990-cı illərdə xalqımıza qarşı törətdikləri vandalizm aktlarını bu gün də davam etdirmək istəyirlər. Lakin bu gün Azərbaycan güclü dövlətdir. Azərbaycanın güclü Ordusu və güclü Lideri var. Azərbaycan Prezidenti bir-birindən uğurlu addımlar sayəsində işğal altındakı torpaqlarını azad edir. Qafqaz Müsəlmanları İdarəsi də öz fəaliyyəti ilə dövlətimizin başçısına dəstək olur. Qafqaz Müsəlmanları İdarəsi tərəfindən dünyanın bir çox ölkələrinə erməni vandalizmi barədə məktublar yazılıb, bu ölkələrin rəhbər şəxsləri məlumatlandırılıb. Ermənistanın ən çox qabartmaq istədiyi məsələ münaqişəni dinlərarası müstəviyə daşımaq idi. Lakin onların bu planı da baş tutmadı.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr İşein, Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev, Azərbaycanda katolik icmasının rəhbəri Vladimir Fekete, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbəri Aleksandr Şarovski erməni vandalizmi barədə fikirlərini bildiriblər. Qeyd edilib ki, təcavüzkar siyasətindən, müharibə cinayətlərindən və insanlıq əleyhinə yönəlmiş çirkin əməllərdən əl çəkməyən işğalçı Ermənistan silahlı qüvvələri BMT Nizamnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüquq normalarını, habelə humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriya qurğularından və raketlərdən mütəmadi olaraq atəşə tutmaqda davam edir.

Tədbir sualların cavablandırılması ilə davam edib.

## İki canda bir ürək

# “Sərhəd tanımayan vəhşilik”

### İşğalçı Ermənistanın mülki əhalini hədəf alması Türkiyə mediasında diqqətdə saxlanılır




**Azərbaycan Ordusunun Dağlıq Qarabağdakı uğurlu hərbi əməliyyatları ilk gündən Türkiyədə KİV-in xüsusi diqqətindədir. Eyni zamanda qardaş ölkənin media orqanları Ermənistan ordusunun insanlıq əleyhinə olan cinayətlərinin də dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayırlar. Türkiyənin aparıcı qəzetləri və xəbər agentlikləri cəbhədə baş verənləri operativ şəkildə oxuculara təqdim edir.**

“Milliyət” qəzeti “Mülki əhaliyə yenə bomba atıldı” başlıqlı xəbərini manşetdən verib. Xəbərdə bildirilir ki, erməni silahlı birləşmələri Tərtər şəhər qəbiristanlığını dəfn zamanı artilleriya atəşinə tutublar. Nəticədə 4 nəfər ölüb, 4 nəfər yaralanıb. Qeyd olunur ki, Ermənistan humanitar atəşkəsin arxasında gizlənərək dinc insanlara qarşı terror siyasəti yürütməkdə davam edir.

“Karar” qəzetində “Sərhəd tanımayan vəhşilik” başlıqlı məqalədə döyüş bölgəsində uduzan Ermənistanın acığını mülki əhalidən çıxdığı qeyd olunur. Vurğulanır ki, terrorçu dövlət olan Ermənistan Tərtərdə qəbiristanlığı dəfn zamanı atəşə tutub ki, nəticədə günahsız insanlar qətlə yetiriliblər.

“Azərbaycan Ordusu irəliləyir” başlıqlı məqalə “Yeni Şafak” qəzetinin manşetində yer alıb. Bildirilib ki, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Azərbaycan isə döyüş meydanında onların layiqli cavablarını verir. Sevindirici haldır ki, Azərbaycan Ordusu son iki gündə daha 14 kəndi işğaldan azad edib.

İlk gündən Azərbaycan Ordusunun uğurlarına geniş yer verən “Sabah” qəzeti “Azərbaycan yetim uşaqlara ağlayır” başlıqlı xəbərində yazır ki, Ermənistan silahlı qüvvələri 11 oktyabr gecə saat 2-də öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni “SCUD” ballistik raketi ilə bombalayıb. Nəticədə 10 nəfər həlak olub, 17-si qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 3 bina tamamilə məhv edilib, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəyib.

“Aydınlık” qəzeti “Türkiyə danışıqlarda olsun” başlıqlı xəbərində yazır ki, Azərbaycan hansı sahədə ehtiyac duyarsa, Türkiyə hər cür dəstəyi verməyə hazır olduğunu dəfələrlə bəyan edib. “Dağlıq Qarabağ Azərbaycanındır. İşğal olunmuş ərazilər tam azad edilməyib və bu günədək qəbul edilmiş qətnamələr yerinə yetirilməyib. Bir milyondan çox azərbaycanlı qardaşımız öz evlərinə dönməyi gözləyirlər” - deyə qəzet yazır.

“Diriliş Postası” qəzeti “Azərbaycan tam güclə irəli” başlıqlı xəbərində göstərilir ki, Prezident İlham Əliyevin idarəçiliyi dönəmində daha da güclənən Azərbaycan Ermənistanı olduqca zəif bir dövlətə çevirməyi, dünya erməniliyinə isə böyük zərbələr vurmağı bacarıb. Bildirilir ki, cəbhədəki məğlubiyyəti ilə barışmayan Ermənistan azğınlıq edərək günahsız insanları hədəfə alıb. Ermənilər dinc azərbaycanlı əhaliyə qarşı vandallıq həyata keçirirlər. Azərbaycan Ordusu tərəfindən son 2 gündə daha 14 kənd işğaldan azad edilib.

“Ermənistan çarəsizdi” başlıqlı məqalə “Milat” qəzetində dərc olunub. Qəzet yazır ki, Ermənistanın atəşkəs rejiminə əməl etməməsi bölgədə sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Bildirilir ki, cəbhədəki məğlubiyyəti ilə barışmayan Ermənistan azğınlıq edərək günahsız insanları hədəfə alıb: “Ermənilər dinc azərbaycanlı əhaliyə qarşı vandalizm həyata keçirirlər. Oktyabrın 11-də gecə Gəncədə yaşayış binasının hədəf alınması, Tərtərdə dəfn zamanı qəbiristanlığı atəşə tutması Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror aktlarıdır”.

“Türkgün” qəzeti “Terroristdən şəfa gözlənilərmi?” başlıqlı xəbərində Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın fikirlərinə geniş yer ayrılıb. Yazıda Ermənistanın bölgə və beynəlxalq aləmdə sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid etdiyi diqqətə çatdırılıb.

“Türkiyə” qəzetinin “Qardaş təpələrinə mindi” başlıqlı xəbərində oxuculara cəbhədə baş verən ən son məlumatlar çatdırılır. Yazılır ki, cəbhə bölgəsində genişmiqyaslı hərbi əməliyyatlar davam edir. Yazıda xüsusən son iki gündə daha 14 kəndin işğaldan azad edildiyi sevinc hissi ilə oxucuların diqqətinə çatdırılır. Müəllif onu da göstərir ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaq.

“Yeni akit” qəzetinin “Fahişə Ermənistan qəbiristanlığı vurdu” başlıqlı xəbərində 4 mülkü şəxsin vəfat etdiyi, 4 nəfərin yaralandığı diqqətə çatdırılır. Qeyd olunur ki, hazırkı vəziyyət bölgədəki bütün böyük dövlətlərə real və ədalətli həll üsullarını tətbiq etmək imkanı verir. “Otuz ildir bu problemin həlli üçün heç nə edilməyib, ona görə Azərbaycan problemini özü həll etmək məcburiyyətində qalıb və bunun üçün hərəkətə keçib, istədiyi nəticələrə də nail olmaqdadır”- deyə qəzet yazır.

Qəzetlərdən “Akşam”ın “Ermənistan müharibə cinayəti işləyir”, “Cümhuriyyət”in “Ermənistan mülki əhalini vurdu”, “Yeniçağ”ın “Ankara olmadan Qarabağ problemi çözülməz”, “Yeni birlik”in “Əliyevə dəstək məktubu”, “Yeni söz”ün “Ermənistan şərəfsizcə hücum edir” başlıqlı xəbərlərində Ermənistanın işğalçı siyasəti, son terror əməlləri pislənilir, Azərbaycan Ordusunun öz torpağında ərazi bütövlüyü uğrunda mübarizə apardığı diqqətə çatdırılır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# BVF, Dünya Bankı və üzv ölkələrin nümayəndələri Ermənistanın növbəti hərbi təcavüzü ilə bağlı məlumatlandırılıb

Maliyyə naziri, Beynəlxalq Valyuta Fondunun (BVF) ölkə üzrə rəhbəri Samir Şərifov BVF və Dünya Bankının illik toplantıları çərçivəsində videokonfrans formatında təşkil olunmuş Azərbaycan Respublikasının da daxil olduğu Səsvermə Qrupunun iclasında iştirak edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanla yanaşı, sözügedən qrupa daxil olan İsveçrə, Polşa, Serbiya, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Qırğızıstanın, həmçinin BVF və Dünya Bankının nümayəndələrinin iştirakı ilə keçirilən iclasda COVID-19 pandemiyasının qlobal iqtisadiyyatda, ələlxüsus üzv ölkələrin iqtisadiyyatlarında yaratdığı problemlər və bu problemlərin həlli istiqamətində BVF və Dünya Bankı tərəfindən həyata keçirilmiş dəstək tədbirləri ilə bağlı fikir mübadiləsi aparılıb. Müzakirələrdə pandemiyanın neqativ təsirlərinin azaldılması və bərpa prosesinin sürətləndirilməsi üçün qarşılıqlı əməkdaşlığın əhəmiyyəti qeyd edilib.

İclasda çıxış edən S.Şərifov qrupa daxil olan ölkələrin, BVF və Dünya Bankının nümayəndələrini sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü ilə bağlı məlumatlandırıb. Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizə qarşı həyata keçirilən genişmiqyaslı hərbi təcavüzün hazırkı pandemiya şəraitində müharibəyə səbəb olduğunu qeyd edən nazir bildirib ki, mənfur hücumlar nəticəsində bir sıra şəhərlər, kəndlər və digər yaşayış məntəqələri intensiv olaraq iriçaplı silahlardan, minaatanlardan, müxtəlif çaplı artilleriya qurğularından, ballistik raketlərdən atəşə tutulması nəticəsində çoxlu sayda mülki şəxs həlak olub, evlər, məktəblər, xəstəxanalar və digər sosial infrastruktur dağıdılıb. Xüsusi vurğulanıb ki, dayanıqlı sülhün əldə edilməsi üçün 30 ilə yaxındır davam edən erməni işğalına son qoyulmalı, beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunmalı, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilməli və Ermənistan işğalçı hərbi qüvvələrini Azərbaycanın ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmalı, ölkəmizin ərazi bütövlüyü təmin olunmalıdır. Qeyd edilib ki, yalnız bu əsaslar üzərində regionda dayanıqlı və davamlı sülh bərqərar olunacaq, azərbaycanlı məcburi köçkünlər doğma torpaqlarına qayıdacaq, Azərbaycan xalqı ilə erməni xalqının Dağlıq Qarabağda birgə yaşaması üçün şərait yaradılacaq.

Maliyyə naziri, həmçinin BVF və Dünya Bankı tərəfindən üzv ölkələrə pandemiyanın mənfi təsirlərinin qarşısının alınmasında göstərilən operativ və adekvat dəstəyi təqdir edib, onun qlobal iqtisadi böhranla mübarizəyə töhfə verəcəyinə əminliyini bildirib.

S.Şərifov ölkəmizin BVF və Dünya Bankı ilə əməkdaşlığını uğurla davam etdirdiyini bildirərək hər iki qurum tərəfindən həyata keçirilən texniki dəstək proqramlarının fiskal və monetar siyasət çərçivələrinin gücləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

# Azərbaycanda yüz minlərlə uşaq Ermənistanın davamlı təcavüzündən və onun uzunmüddətli təsirlərindən əziyyət çəkir

Təxminən otuz ildir ki, Azərbaycan Respublikasında yüz minlərlə uşaq Ermənistanın davamlı təcavüzündən və onun uzunmüddətli təsirlərindən əziyyət çəkir.

Bu müddət ərzində Ermənistan mənəvi öhdəliklərinə və qanunla nəzərdə tutulmuş məsuliyyətinə məhəl qoymayaraq, azərbaycanlı uşaqları beynəlxalq sənədlərdə təsbit olunmuş əsas hüquqlardan, habelə Uşaq Hüquqları Konvensiyasında təsbit edildiyi kimi, BMT Nizamnaməsində elan edilmiş ideallar, xüsusilə də barış, ləyaqət, bərabərlik və həmrəylik ruhunda tərbiyə edilmək hüququndan məhrum edib. Ermənistan Mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə Konvensiyası və I Əlavə Protokolla uşaqlar üçün təmin edilməli olan müdafiəni, xüsusilə yaşamaq hüququ, fiziki cəza, işgəncə və kollektiv cəzanın qadağan edilməsi, eləcə də bu sənədlərdə müəyyənləşdirilmiş müharibənin aparılması qaydaları, o cümlədən mülki şəxslər və döyüşçülər arasında fərq qoymağın zəruriliyi və mülki şəxslərə qarşı hücumların qadağan edilməsi kimi qaydaları daim pozub. Bundan əlavə, Ermənistan I Əlavə Protokolda yer alan “uşaqlar xüsusi hörmət obyekti olmalı və hər cür nalayiq hücumlardan qorunmalıdırlar” kimi müəyyənləşdirilmiş xüsusi qoruma prinsipindən irəli gələn öhdəliyinə açıq şəkildə məhəl qoymayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin Ermənistan tərəfindən Azərbaycanda uşaqlara qarşı törədilən kobud hüquq pozuntularına dair məlumatında qeyd olunub.

Bildirilib ki, Ermənistan əhalini qorxutmaq və qaçmağa məcbur etmək üçün soyqırımı aktından istifadə edib. Təkcə 1992-ci ildə Xocalı qətliamında 63-ü uşaq olmaqla 613 mülki şəxs Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülüb və bir çoxu şikəst edilib. IV Cenevrə Konvensiyasının 49-cu maddəsinə zidd olaraq üçdəbiri uşaq olan 1 milyon azərbaycanlı evlərindən zorla qovulub. Təxminən 15 il ərzində məcburi köçkün uşaqların böyük bir hissəsi Azərbaycan Respublikası hökumətinin böyük səyləri və ayırdığı büdcə vəsaitləri sayəsində sonradan ləğv edilmiş çadır şəhərciklərində və qatar vaqonlarından ibarət kəndlərdə yaşamaq məcburiyyətində qalıb. Azərbaycandakı məcburi köçkün uşaqlar, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri də daxil olmaqla, müvafiq sənədlərin müddəalarına baxmayaraq, təhlükəsiz şəkildə və ləyaqətlə öz torpaqlarına könüllü qayıtmaq hüququndan yararlana bilmirlər.

IV Cenevrə Konvensiyasının uşaqlara qayğı və təhsillə bağlı bütün qurumların fəaliyyətinin işğalçı dövlət tərəfindən təmin edilməsini nəzərdə tutan 50-ci maddəsinin əksinə olaraq, Ermənistanın Azərbaycana qarşı davamlı silahlı təcavüzü ölkəmizdə uşaqlar üçün infrastruktura ciddi ziyan vurub. Özünü Təhlükəsiz Məktəb Bəyannaməsinin “dəstəkçilərindən” biri kimi təqdim edən Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindəki 1107 təhsil obyektinin və 855 uşaq bağçasının tamamilə məhv edilməsinə cavabdehdir. Etnik təmizləmə siyasəti nəticəsində bütün azərbaycanlı məktəblilər və tələbələr doğma yurdlarından didərgin salınıblar. On minlərlə azərbaycanlı uşaq təhsil hüquqlarını davamlı köçkünlükdən qaynaqlanan ciddi problemlərlə üzləşərək həyata keçirir. Cəbhə xəttinə yaxın ərazilərdə yaşayan çoxlu sayda uşaq daim Ermənistan silahlı qüvvələrinin mülki şəxsləri hədəfə alan atəş təhlükəsi altında dərslərinə qatılır.

IV Cenevrə Konvensiyasının girov götürülməsini açıq şəkildə qadağan edən 34-cü maddəsinə və Uşaq Hüquqları Konvensiyasının 38-ci maddəsinin 1-ci və 4-cü bəndlərinə zidd olaraq, 224 uşaq Ermənistan tərəfindən girov götürülmüş və sonradan sərbəst buraxılmış, 29 uşaq hələ də erməni girovluğunda sayılır, 71 uşaq itkin düşüb.

Atəşkəs rejimi dövründə də Ermənistan uşaqları hədəf olaraq istifadə etmək kimi çirkin fəaliyyətlərdən çəkinməyib. Bu müddət ərzində 35-dən çox azərbaycanlı uşaq Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilib.

Sentyabrın 27-dən Ermənistanın silahlı qüvvələri Azərbaycana qarşı yeni təcavüzə əl atıb. Nəticədə 3-ü uşaq olmaqla, 47 azərbaycanlı mülki şəxs öldürülüb, 15-dən çox uşaq yaralanıb, 38 məktəb də daxil olmaqla mülki obyektlər dağıdılıb. Sentyabrın 27-də Azərbaycanın Naftalan rayonunun Qaşaltı kəndində bir ailənin beş üzvü, o cümlədən iki məktəbli, 13 yaşlı Şəhriyar Qurbanov və 14 yaşlı Fidan Qurbanova Ermənistan silahlı qüvvələri tərəfindən öldürülüb. Ermənistanın hücumları cəbhə zonasının və Ermənistanla sərhədin yaxınlığındakı yüzlərlə məktəbdə təhsil prosesinə ciddi ziyan vurub və azərbaycanlı uşaqların təhsil almaq hüququ bir daha pozulub.

Oktyabrın 11-də gecə saatlarında cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərindəki yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 mülki şəxs öldürülüb, uşaqlar da daxil olmaqla, 34 nəfər yaralanıb, 3 uşaq hər iki valideynini itirib.

Azərbaycan tərəfinin çoxsaylı xəbərdarlıqlarına baxmayaraq, Ermənistanın mülki şəxsləri, o cümlədən uşaqları və mülki infrastrukturu hədəfə alması beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması və bu dövlətin irqçi və ksenofob siyasətinin bariz nümayişidir. Uşaqları öldürmək və yaralamaq, eləcə də məktəb və xəstəxanaları atəşə tutmaqla Ermənistan BMT Təhlükəsizlik Şurasının 1261 saylı (1999) qətnaməsinə əsasən münaqişələr zamanı uşaqlara qarşı ağır cinayətləri törətməkdə davam edir.

Uşaqlar gələcəyi təmsil edir. Bu gün beynəlxalq birlik bütöv bir nəslin on illərdir davam edən əzablarına məhəl qoymayaraq, haqq və qanunun aliliyini təmin etməməklə münaqişələrin davam etməsinə toxum səpir və gələcək nəsli qorumaq və onları təhlükəsiz mühitlə təmin etmək üçün ümumbəşəri mənəvi borcunu yerinə yetirməməklə dünyanın gələcəyini təhlükə altına alır. Bu baxımdan, beynəlxalq ictimaiyyəti, xüsusilə müvafiq beynəlxalq təşkilatları Ermənistanın Azərbaycan Respublikasında uşaqları və təhsil müəssisələrini qəsdən hədəfə almasına qarşı açıq şəkildə reaksiya verməyə və otuz ildir davam edən cəzasızlıq mühitini dayandırmaq üçün təsirli tədbirlər görməyə çağırırıq. Biz, həmçinin Ermənistanın Azərbaycanda uşaqlara qarşı ciddi qanun pozuntuları törətməsinə töhfə verən hərəkətlərdən, yəni bu ölkəyə siyasi, maliyyə və xüsusilə də hərbi dəstək verilməsindən çəkinməyə çağırırıq.

# Beynəlxalq ictimaiyyət Ermənistanı təxribat fəaliyyətindən əl çəkməyə çağırmalıdır

**“Beynəlxalq ictimaiyyət Ermənistanı həyata keçirdiyi terror aktlarına görə sərt şəkildə qınamalı və bu fəaliyyətindən çəkinməyə çağırmalıdır”.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Yaponiyanın ölkəmizdəki səfiri Cuniçi Vada ilə görüşdə səsləndirib. Görüş zamanı R.Quluzadə səfirə Ermənistanın ölkəmizə qarşı son hərbi təxribatları barədə məlumat verib.

Nazir bildirib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Ağdam, Ağcabədi, Tərtər, Goranboy, Bərdə, Ordubad rayonlarına, o cümlədən Gəncə və Mingəçevir şəhərlərinə raket hücumları nəticəsində sentyabrın 27-dən bu günədək 3-ü uşaq olmaqla, 47 dinc sakin həlak olub, 23-ü uşaq olmaqla 230-a yaxın mülki şəxs yaralanıb. 38 məktəb daxil olmaqla 2 mindən çox mülki infrastruktura, o cümlədən telekommunikasiya və poçt infrastrukturuna ziyan dəyib. “Sentyabrın 27-də Azərbaycanın Naftalan rayonunun Qaşaltı kəndində bir ailənin beş üzvü, o cümlədən 13 və 14 yaşlı, bir ailənin 2 məktəbli üzvü Ermənistan silahlı qüvvələri tərəfindən öldürülüb. Ermənistanın hücumları cəbhə zonasının və Ermənistanla sərhədin yaxınlığındakı yüzlərlə məktəbdə təhsil prosesinə ciddi ziyan vurub, azərbaycanlı uşaqların təhsil almaq hüququ bir daha pozulub. Oktyabrın 11-də gecə saatlarında cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərindəki yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 mülki şəxs öldürülüb, uşaqlar da daxil olmaqla, 34 nəfər yaralanıb, 3 uşaq hər iki valideynini itirib. Oktyabrın 15-də Ermənistan silahlı qüvvələri işğal olunmuş Qubadlı rayonu ərazisindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonuna raket atıb. Beynəlxalq ictimaiyyət Ermənistanı həyata keçirdiyi hərbi və müharibə cinayətlərinə görə sərt şəkildə qınamalı, bu fəaliyyətindən çəkinməyə çağırmalıdır”, - deyə R.Quluzadə vurğulayıb.

Görüşdə iki ölkə arasında innovasiya və yüksək texnologiyalar, o cümlədən tranzit daşımalar və aviasiya sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Hazırda ölkələrimiz arasında aviasiya sahəsində yükdaşımaların “Silkway” şirkəti vasitəsilə həyata keçirildiyini deyən səfir C.Vada gələcəkdə sərnişindaşımanın da inkişaf etdirilməsi istiqamətində addımların atılmasının vacibliyini vurğulayıb. Səfir bildirib ki, Azərbaycan və Yaponiya arasında turizmin inkişafı bu sahəyə təkan verə bilər: “Təəssüf ki, hazırda COVID-19 pandemiyası ilə əlaqədar turizm sahəsi bütün dünyada durğunluq yaşayır”.

Eyni zamanda görüşdə Azərbaycanın yüksək texnologiyalar parklarında Yaponiyanın texnologiya şirkətləri tərəfindən elmtutumlu istehsalat müəssisələrinin yaradılması imkanları müzakirə olunub.

Nazir C.Vadanı ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona uğurlar arzulayıb.

# Humanitar atəşkəsin antihumanist qatilləri

## Dağlıq Qarabağa sülh və ədalət!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri adından

### BƏYANAT

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri "Dağlıq Qarabağa sülh və ədalət" adlı bəyanat yayıblar. AZƏRTAC bəyanatın mətnini təqdim edir:**

"Biz Azərbaycan Respublikasının beynəlxalq ictimaiyyət və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini tam dəstəkləyirik.

Azərbaycan güclü beynəlxalq qanuni dəstək alıb: BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Beynəlxalq ictimaiyyət ərazinin müharibə yolu ilə ələ keçirilməsini tanımadığını bir daha təsdiqləyib. Qanunsuz yolla gücün tətbiqi heç bir şəkildə əsaslandırıla bilməz. Biz Ermənistan və Azərbaycan sərhədi boyunca Azərbaycan vətəndaşlarının və mülki obyektlərinin hədəfə alınmasını qətiyyətlə pisləyirik. Qanunsuz fəaliyyətlər, eləcə də Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırılma dayandırılmalıdır.

Bu gün təxribatlara, atəşkəs sazişinin pozulmasına baxmayaraq, Azərbaycan yenə də təmkin göstərərək, müvafiq qanuni kanallar vasitəsilə vəziyyəti düzəltməyə çalışır. Münaqişə qan tökülməsi və resurs itkisi bahasına başa gəlir.

İndi bütün mümkün diplomatik kanalları fəallaşdırmağın vaxtıdır. BMT və Avropa İttifaqı dərhal atəşkəsə çağırmalı və beynəlxalq səviyyədə mümkün olan hər bir vasitədən istifadə etməklə növbəti hərbi fəaliyyətin qarşısını almalıdır. Lakin uzunmüddətli münaqişənin nəhayət həlli üçün axtarış istiqamətində irəliləyiş zəruridir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas prinsiplərindən biri sülhməramlı yollarla sülh üçün çalışmaqdır. Beləliklə, biz beynəlxalq ictimaiyyəti əvvəlki qətnamələrin, xüsusilə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasını, beynəlxalq hüquq çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün bərpasını, tələb olunduğu kimi, Azərbaycanın işğal edilmiş ərazilərindən Ermənistan hərbi qüvvələrinin çıxarılmasını təmin etməyə və Ermənistan-Azərbaycan münaqişəsinin davamlı həllinə nail olmağa çağırırıq.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin - Rusiya, Fransa və ABŞ-ın vasitəçilik etdikləri danışıqlar prosesi münaqişənin həll olunması üçün heç bir real nəticə verməyib. Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qətnamələrindən irəli gələrək mandat əldə edən həmsədrlər davamlı sülhə nail olmaq istiqamətində məqsədyönlü danışıqlar aparılmasını təmin etmək üçün öz səylərini ikiqat artırmalıdırlar.

Bütün bəşəriyyətin ümumi düşmən olan COVID-19 ilə mübarizə apardığı belə bir zamanda insanlıq üçün məntiqə uyğun deyil ki, bütün enerjimizi və resurslarımızı bir-birimizi öldürmək və məhv etmək üçün istifadə edək. Gəlin məntiqlə və qanunun aliliyi prinsipini əsas tutaraq Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll edək.

Həqiqi sülh daha vacibdir və o, yalnız ədalət və inklüzivlik üzərində qurula bilər. Bu, Avropa İttifaqının vəzifələrinə uyğundur və BMT-nin 75-ci ildönümündə müvafiq canlanma yaradacaqdır. Beləliklə, gəlin biz beynəlxalq ictimaiyyətlə bərabər çalışaraq keçmişin ədalətsiz miraslarını geridə qoyub qlobal çağırışlar üzərində duraraq daha yaxşı sabahlar üçün təməl qoyaq.

***Vayra Vike-Freyberqa***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*
***İsmail Serageldin***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*
***Şahzadə Türki bin Feysəl bin Əbdüləziz Al Saud***
*Kral Feysəl Fondunun Tədqiqatlar və İslam Araşdırmaları Mərkəzinin sədri*
***Əbdüləziz əl-Tuveycri***
*İCESCO-nun sabiq Baş direktoru*
***Şövkət Əziz***
*2004-2007-ci illərdə Pakistanın Baş Naziri*
***Rəşid Alimov***
*2016-2019-cu illərdə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi*
***Rozalia Artega Serrano***
*Ekvadorun sabiq Prezidenti*
***Sali Berişa***
*1992-1997-ci illərdə Albaniyanın Prezidenti 2005-2013-cü illərdə Albaniyanın Baş Naziri*
***Hikmət Çətin***
*1991-1994-cü illərdə Türkiyənin Xarici İşlər naziri*
***Emil Konstantinesku***
*1996-2000-ci illərdə Rumıniyanın Prezidenti*
***Mirko Svetkoviç***
*2008-2012-ci illərdə Serbiyanın Baş Naziri*
***Franko Frattini***
*2002-2004, 2008-2011-ci illərdə İtaliyanın Xarici İşlər naziri 2004-2008-ci illərdə ədalət, azadlıq və təhlükəsizlik məsələləri üzrə Avropa komissarı*
***Amina Qurib-Fakim***
*2015-2018-ci illər Mavritaniyanın Prezidenti*
***Jan Fişer***
*2009-2010-cu illərdə Çex Respublikasının Baş Naziri*
***Ekmələddin İhsanoğlu***
*2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi*
***Mladen İvaniç***
*2014-2018-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü*
***Dalia İtzik***
*İsrailin sabiq Prezidenti və parlamentin sabiq sədri*
***Georgi İvanov***
*2009-2019-cu illərdə Şimali Makedoniya Respublikasının Prezidenti*
***İvo Yosipoviç***
*2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti*
***Yadranka Kosor***
*2009-2011-ci illərdə Xorvatiyanın Baş Naziri*
***Aleksandr Kvasnievski***
*1995-2005-ci illərdə Polşanın Prezidenti*
***İv Leterme***
*2008, 2009-2011-ci illərdə Belçikanın Baş Naziri*
***Zlatko Laqumciya***
*2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş Naziri, 2012-2015-ci illərdə Bosniya və Herseqovinanın Baş Nazirinin müavini, Xarici İşlər naziri*
***Petru Luçinski***
*1997-2001-ci illərdə Moldovanın Prezidenti*
***Əmr Musa***
*2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi, 1991-2001-ci illərdə Misirin Xarici İşlər naziri*
***Elnur Əliyev***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru*
***Rövşən Muradov***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi*
***Recep Meidani***
*1997-2002-ci illərdə Albaniyanın Prezidenti*
***Buyar Nişani***
*2012-2017-ci illərdə Albaniyanın Prezidenti*
***Jomart Otorbayev***
*2014-2015-ci illərdə Qırğızıstanın Baş Naziri*
***Elza Papademetru***
*Yunanıstan parlamentinin sabiq vitse-prezidenti*
***Rosen Plevneliyev***
*2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti*
***Oskar Ribas Reyq***
*1982-1984, 1990-1994-cü illərdə Andorranın Baş Naziri*
***Petar Stoyanov***
*1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti*
***Boris Tadiç***
*2004-2012-ci illərdə Serbiyanın Prezidenti*
***Eka Tkelaşvili***
*2010-2012-ci illərdə Gürcüstanın Baş Nazirinin müavini*
***Filip Vuyanoviç***
*2003-2018-ci illərdə Monteneqronun Prezidenti*
***Viktor Yuşenko***
*2005-2010-cu illərdə Ukraynanın Prezidenti*
***Katerina Yuşenko***
*2005-2010-cu illərdə Ukraynanın birinci xanımı*
***Valdis Zatlers***
*2007-2011-ci illərdə Latviyanın Prezidenti".*

## Nizami Gəncəvinin doğma şəhərini qoruyaq - erməni terroruna yox deyək!

### Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü ilə kampaniya başlayıb

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü ilə "Nizami Gəncəvinin doğma şəhərini qoruyaq" kampaniyası başlayıb. Beynəlxalq Mərkəzin həmsədrləri və üzvləri dünya ictimaiyyətini erməni terroruna son qoymağa çağırırlar.**



AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri oktyabrın 16-da Gəncəyə səfər ediblər.

Mərkəzin üzvləri əvvəlcə Gəncə şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar.

Sonra şəhər icra hakimiyyətində brifinq keçirilib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatına dünya dövlətləri susmamalıdır. Düşmən mülki əhalini birbaşa hədəf alır. Beynəlxalq təşkilatlar isə bu terror əməllərinə hər hansı münasibət bildirmir, ikili standartlardan çıxış edirlər.




Nizami Gəncəvi yurdunun - Gəncənin hər zaman ədalət, sülh, mərhəmət, birgə yaşayış, mehriban qonşuluq ənənələrini təbliğ etdiyini vurğulayan N.Bayramov qeyd edib ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutur. Dinc sakinlər hədəf alınır, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyir. Ordumuz düşmənin hücumlarının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhəboyu əks-hücum əməliyyatına başlayıb.

Diqqətə çatdırılıb ki, işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Belə müharibə cinayətlərindən biri oktyabrın 11-də gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncədə yaşanıb. Düşmənin məqsədli şəkildə şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını ağır artilleriyadan - "Skad" raketlərindən atəşə tutması nəticəsində 5-i qadın olmaqla, 10 nəfər həlak olub. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla, 40-dək insan yaralanıb. Ondan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Ümumiyyətlə isə oktyabrın 4-dən bəri Gəncə şəhərinə Ermənistan Respublikası ərazisindən edilən raket hücumları nəticəsində, bu şəhərdə uşaq və qadınlar da daxil olmaqla 11 mülki şəxs həlak olub, 70-dən çox dinc sakin xəsarət alıb.

Sonra çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru Elnur Əliyev Ermənistan ordusunun Gəncədə törətdiyi terroru pisləyərək deyib ki, Ermənistan hakimiyyətinin mülki insanlara, günahsız şəxslərə qarşı kütləvi qırğın silahlarından istifadə etməsi müharibə cinayətdir, azərbaycanlılara qarşı soyqırımı siyasətinin davamıdır.

Elnur Əliyev bildirib ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda insanın qətlə yetirilməsi məqsədi daşıyır. Erməni terroru nəticəsində sentyabrın 27-dən bəri Azərbaycanda 47 dinc sakin həlak olub, 222 mülki şəxs xəsarət alıb. Həmçinin Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1669 ev, 84 çoxmənzilli yaşayış binası və 301 mülki obyekt yararsız vəziyyətə düşüb.

Brifinqin sonunda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri adından "Dağlıq Qarabağa sülh və ədalət" adlı bəyanat yayılıb (Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Sonra Beynəlxalq Mərkəzin üzvləri erməni faşizminin izləri ilə tanış olub, tamamilə dağıdılmış yaşayış binasının ətrafına həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq gül düzüblər.

Həmçinin erməni terroru nəticəsində ailə üzvlərini və yaxınlarını itirmiş insanlarla, eləcə də zərərçəkmiş digər ailələrlə görüş keçirilib.

Daha sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri "Nizami" məqbərəsini ziyarət edib, önünə əklil qoyublar.




## Erməni faşizminin qanlı cinayətləri

Əvvəli 1-ci səh.

10 oktyabr saat 12:00-dan etibarən Moskvada razılaşdırılıb elan edilmiş humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı bölmələri hər gün gecə-gündüz yaşayış məntəqələrimizi atəşə tutur. Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini nişan aldığı halda, erməni silahlı qüvvələri həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərimizi ağır artilleriya və raket atəşinə tutur, nəticədə mülki şəxslər yaralanır, həlak olur, evlər və sosial obyektlər dağıdılır.

### Məkrli erməni siyasətinin çirkin üzü

Oktyabrın 11-də gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri, cəbhə xəttindən 80 kilometr uzaqda yerləşən Gəncənin Ermənistan rəhbərliyinin əmri ilə bombardman edilməsi isə Xocalıdan sonra azərbaycanlılara qarşı törədilən növbəti soyqırımı aktıdır. Ermənistanın bu vəhşi hücumu nəticəsində 4-ü qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəydi. Humanitar atəşkəsin elan olunmasından bir neçə saat sonra Gəncədə çoxmənzilli yaşayış binalarına endirilən raket zərbələri erməni terrorçularının barbarlığını, qəddarlığını dünyaya bir daha göstərdi.

Oktyabrın 15-də günorta saatlarında isə erməni dığaları insanlığa sığmayan növbəti əmələ əl atdılar. Dəfn mərasimi keçirilən zaman Tərtər şəhər qəbiristanlığını qəsdən ağır artilleriyadan atəşə tutdular. 3 mülki şəxs elə hadisə yerindəcə həlak oldu, 5 nəfər müxtəlif bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirildi. Hadisə zamanı yaralananlardan biri - İsgəndər Əmirov isə axşam saatlarında xəstəxanada dünyasını dəyişdi.

Həmin vaxt dəfn edilən qadın İsgəndər Əmirovun qayınanası idi. Tərtər rayonundan olan 80 yaşlı Rəfiqə Məmmədova Yevlaxda qızıgildə vəfat etmişdi. Onun cənazəsi dəfn edilməsi üçün Tərtərə gətirilmişdi...

Ermənistanın Azərbaycanın dinc və günahsız əhalisinə qarşı qətliam törətməsi terrorçu xislətindən heç bir zaman əl çəkməyəcəyini göstərir. Mülki vətəndaşlarımıza tuşlanan hər nişan erməni faşistlərinin nə qədər vəhşi, rəhmsiz, qaniçən olduğunun növbəti sübutu, bariz nümunəsidir. Bu murdar xislətli təcavüzkarlar nifrətə, kinlə o qədər kökləniblər ki, hətta dinc əhaliyə atdığı raketlərdə qadağan olunmuş odsaçanlardan - kaset döyüş başlıqlarından belə istifadə edirlər. Bu isə məkrli erməni siyasətinin çirkin üzünü, mənfur düşmənin öz qəddar əməllərini törətmək üçün bütün vasitələrə əl atmaqdan çəkinmədiyini göstərir.

### Gəncə qətliamı Bakıda da baş verə bilərdi

Oktyabrın 13-də Ermənistan silahlı qüvvələrinin növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi, dinc əhali arasında növbəti tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə Gəncə, Mingəçevir və digər şəhərlərə doğru hədəfləndiyi müşahidə edildi. Təbii ki, mülki insanların təhlükəsizliyini təmin etmək məqsədilə hərbi hədəf kimi start vəziyyətində olan raketlər Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən vaxtında aşkarlanaraq qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarıldı. Əgər o raketlər zamanında məhv edilməsəydi, Gəncə qətliamı Bakıda və digər şəhərlərimizdə də baş verə bilərdi.

Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHM) Qərargah rəisi general-mayor İkram Əliyev ölkəmizdə akkreditə olunan diplomatik korpusun rəhbərləri və hərbi attaşelərin iştirakı ilə keçirilən brifinqdə qeyd etdi ki, ballistik raketlərə qarşı xüsusi əməliyyatların nəticəsində oktyabrın 12-də saat 14 radələrində işğal altındakı Qubadlı rayonu ərazisində bir ədəd "Toçka-U" raketi, oktyabrın 14-də gecə saat 01 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla ümumilikdə üç ədəd "Elbrus" ballistik raket qurğusu raketləri ilə birlikdə ordumuz tərəfindən aşkarlanaraq məhv edilib.

İkram Əliyev bildirib ki, 300 kilometr atış məsafəsinə malik "Elbrus" ballistik raketi kifayət qədər ön cəbhəyə gətirildiyi halda Bakı şəhərinə çatacaq uçuş məsafəsinə malikdir. Əgər bu raket Dağlıq Qarabağ ərazisinə gətirilsəydi, atəş məsafəsi hətta Bakını da ötə bilərdi.

Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, Azərbaycana qarşı raket hücumları Ermənistan ərazisindən həyata keçirilir. Müstəqil Dövlətlər Birliyi tarixində ilk dəfədir ki, Ermənistan bu cür dağıdıcı gücə malik ballistik raketləri sivillərin sıx məskunlaşdığı böyük şəhərə qarşı istifadə edir.

Hikmət Hacıyev diqqətə çatdırıb ki, Azərbaycan humanitar atəşkəsə sadiqdir. Amma Ermənistan ərazisindən ölkəmizin hərbi və mülki obyektlərinə, dinc insanlara qarşı raket və digər hücumlar olduğu təqdirdə, Azərbaycan legitim hərbi hədəflər olaraq onların zərərsizləşdirilməsi hüququnu özündə saxlayır.

### Tökülən qanlar yerdə qalmayacaq

Ermənistan ərazisindən Azərbaycan şəhərlərinə raket hücumlarının əsas məqsədi Azərbaycanı eyni tərzdə cavab verməyə təhrik, münaqişənin coğrafiyasını genişləndirmək, beləliklə də, münaqişəyə üçüncü ölkələri cəlb etməkdir. Bundan başqa, erməni şovisinitləri dinc əhalini hədəf almaqla xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi dədə-baba torpaqlarımızın itirilməsi ilə razılaşmağa məcbur etmək istəyirlər. Amma Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayıb və unutmayıb. Elə ona görə də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, müzəffər Ordumuzun şücaəti və xalqın dəstəyi ilə Azərbaycanın tarixi torpaqlarının erməni işğalından azad edilməsi uğrunda haqq savaşına başlayıb. Terroru dövlət siyasəti səviyyəsində həyata keçirən, vətəndaşlarımıza qarşı soyqırımlar törədən qatil Ermənistan bu cinayətlərə görə ədalət məhkəməsi qarşısında mütləq cavab verəcək. Tökülən qanlar yerdə qalmayacaq!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



# Arxa cəbhə



# Təbii resurslarımız xalqımızın və ölkəmizin milli maraqlarına xidmət edir

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycanın təbii resursları xalqımızın milli maraqlarına xidmət edir. Neftdən əldə olunan gəlirlər, o cümlədən Azərbaycan Ordusunun gücünü, qüdrətini artırıb, silah-sursatla təchizatını yüksək səviyyəyə çatdırıb. Dövlət başçısı bu barədə belə demişdir: "Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".



Azərbaycan Ordusunun işğalçı Ermənistana qarşı apardığı müharibədə, düşmən tapdağında olan torpaqlarımızı azad etmək üçün döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıq deyilənlərin əyani təsdiqidir. Bu gün Azərbaycanın güclü iqtisadiyyatı və güclü ordusu var. Neft gəlirləri, eləcə də ölkə qarşısında dayanan digər ümdə problemlərin həllinə, məsələn, məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılmasına, təhsilin, səhiyyənin inkişafına, infrastrukturun təkmilləşdirilməsinə və s. yönəldilir.

Dövlət başçısı keçən ay "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra telekanallara müsahibəsində xalqımızın keçmişində və bu günündə neft amilinin rolundan ətraflı bəhs etmişdir. Xatırlatmışdır ki, Azərbaycan qədim neft diyarıdır. Həm çar Rusiyası və sovet dönəmlərində, həm də indiki müstəqillik dövründə xalqımızın həyatı neft amili ilə sıx bağlı olub. Lakin təbiətin böyük səxavətlə yurdumuza bəxş etdiyi bu sərvətdən uzun illər boyu, yəni ölkəmizin müstəqilliyindən əvvəlki dövrlərdə insanlar lazımınca bəhrələnə bilməyiblər. Prezidentimizin dediyi kimi: "Əgər biz tarixə baxsaq görərik ki, o vaxt Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Çünki çar Rusiyası dövründə varlılar varlanırdı, amma kasıblar daha da ağır vəziyyətə düşürdü, insanların əməyi çox ağır idi. Bir daha deyirəm, Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik".

Sərvətlərimizin özümüzə məxsus olmadığı o çətin dövrlərdə nə yaxşı ki, zəngin neft maqnatları, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və başqaları əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf ediblər. Onların xeyirxah əməlləri yaşayır və xoş xatirələrlə nəsillərdən nəsillərə çatdırılır.

Məsələn, H.Z.Tağıyevin görkəmli həkim, dövlət xadimi Əziz Əliyevin həyatında böyük rolu olmuşdur. Prezident İlham Əliyev bunu xatırladaraq demişdir: "Mənim babam Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində kasıb ailədə doğulmuşdu və oxumaq istəyirdi. Ancaq oxumaq üçün pulu yox idi. O vaxt o, Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlamışdı və xahiş etmişdi ki, ona maddi kömək göstərsin. O, həkim olmaq istəyirdi. Təbii ki, Tağıyev onu tanımırdı, ancaq bir vətənpərvər, xeyirxah insan kimi ona pul göndərdi və o pul hesabına Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil oldu, orada oxudu, gözəl həkim, görkəmli dövlət xadimi oldu. Onu da bildirməliyəm ki, İkinci Dünya müharibəsi zamanında o, Dağıstana birinci katib vəzifəsinə göndərilmişdir və müharibə illərində Dağıstana rəhbərlik etmişdir. O vaxt dağıstanlıları da digər Qafqaz xalqları kimi sürgün etmək üçün planlar var idi. Demək olar ki, bu qərar artıq sovet rəhbərliyi tərəfindən verilmişdi. Məhz Əziz Əliyevin fəaliyyəti, onun çox cəsarətli addımları nəticəsində dağıstanlılar bu bəladan xilas ola bildilər. Bu gün onun xatirəsi Dağıstanda yaşayır, onun şərəfinə abidə ucaldılıb".

Təbii ki, mesenatlar heç də hamıya kömək edə bilməzdilər. Digər tərəfdən, o vaxt Bakının neft maqnatları arasında ermənilər də az deyildi. Onlar torpağımızda qazandıqları pulları xalqımıza ziyan gətirən işlərə sərf edirdilər.

XX əsrin əvvəllərində, eləcə də sonrakı onilliklərdə texnika və texnologiya çox primitiv idi. Odur ki, neft hasilatındakı artım insan əməyinin istismarı nəticəsində baş verirdi. Bir sözlə, neft amili neft ölkəsi olan Azərbaycanda bütün zamanlarda bu və ya digər şəkildə ailələrin və nəsillərin bir çoxunun taleyindən keçib. Prezident İlham Əliyev vaxtilə neft mədənlərindəki ağır işin neftçilərin sağlamlığına zərbə vurduğunu da qeyd etmişdir: "Deyə bilərəm ki, bizim ailədə də bu, öz təsirini göstərdi. Çünki mənim digər babam Əlirza Əliyev pul qazanmaq üçün Naxçıvandan Bakıya gəlirdi və aylarla neft mədənlərində işləyirdi. Bu, onun səhhətinə çox mənfi təsir göstərmişdi və məhz buna görə gənc yaşlarında vəfat etdi".

Sovet dövründə isə respublikamızın iqtisadiyyatı SSRİ-nin planlı təsərrüfatı ilə birbaşa bağlı idi. Bütün sahələrdə qazanılan vəsaitlər, o cümlədən neft gəlirləri ümumi büdcəyə daxil olurdu.

İkinci Dünya müharibəsi zamanı Sovet İttifaqında yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi Azərbaycan tərəfindən təmin edilirdi. Azərbaycanda hərbi texnika istehsal olunurdu. Sovet İttifaqı dağılanda üzləşdiyimiz vəziyyətin isə şərhə ehtiyacı yoxdur. Sərvətlərimizlə müdafiə olunan, varlanan o ölkədən bizə dağılmış neft infrastrukturu qaldı. Dəniz özülləri köhnəlib sıradan çıxmışdı. Neft hasilatı aşağı düşmüşdü. Qaz hasilatı ölkəmizin tələbatını ödəmirdi. Bakının yarısı qazsız qalmışdı. Rayonlar, ümumiyyətlə, qazdan istifadə edə bilmirdilər.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra neft sənayesinin inkişafına da xüsusi diqqət ayırdı. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan xalqının öz sərvətlərinin sahibi olduğunu bütün dünyaya bəyan etdi .

Ümummilli Lider 1999-cu ildə ARDNF-ni (Azərbaycan Respublikası Dövlət Neft Fondu) yaratdı. Neft hasilatı artdıqca ölkənin gəlirləri, neft fonduna daxil olan vəsaitlər də artdı. Heydər Əliyev ənənələrini davam və günün tələbləri baxımından inkişaf etdirən Prezident İlham Əliyev neft kapitalını insan kapitalına çevirməyi qarşıya məqsəd qoydu. İndi ölkəmizdə bu istiqamətdə artıq çox böyük işlər görülüb. Dövlət başçısı bu barədə belə deyir: "Bu gün Azərbaycan nefti tam şəkildə Azərbaycan xalqının maraqlarına xidmət edir və nəinki nəhəng neft-qaz layihələri, bütün başqa sahələr də. İndi Azərbaycan bütün reytinqlərdə ən qabaqcıl yerlərdədir. Azərbaycanda aparılan infrastruktur siyasəti, infrastruktur layihələrinin icrası nümunə kimi göstərilir. Sovet vaxtında bizim dağ rayonlarımızda qaz xətləri yox idi. Daşkəsən, Gədəbəy, Lerikə ilk qaz xətlərini biz çəkdirdik. O vaxt Azərbaycan qazı başqa respublikalara nəql edilirdi, ancaq respublikanın bəzi yerlərində qaz yox idi. İndi qazlaşdırma 96 faizdir. Bu gün biz infrastruktur layihələrinin təhlilinə verilən qiymətə görə dünyada qabaqcıl yerlərdəyik".

Təsadüfi deyil ki, Davos İqtisadi Forumu avianəqliyyat, dəmir yolu nəqliyyatı sahələrində Azərbaycanı 11-12-ci yerlərə layiq görüb. Yol infrastrukturunun keyfiyyətinə görə ölkəmiz dünyada 27-ci yerdədir. Müstəqillik dövründə ölkədə 3700 məktəb tikilib və təmir edilib. 700-dən çox xəstəxana inşa edilib və ən müasir avadanlıqla təchiz olunub. Bu illər ərzində Azərbaycan kosmik dövlətə çevrilib, nəhəng neft-qaz və ixrac layihələri icra edir. Bir sözlə, uğurlarımız bütün sahələri əhatə edir. Məsələn, sovet dövründə heç təsəvvür etmək olmazdı ki, Azərbaycan idmançıları indiki qədər uğurlar qazanacaqlar.

Prezidentimizin dediyi kimi: "Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***



## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 20,5 faiz artıb

Cari il sentyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 59,8 min nəfər və ya 3,7 faiz artaraq 1 milyon 670,9 min nəfər olmuşdur.

Onlardan 902,3 min nəfəri iqtisadiyyatın dövlət, 768,6 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 19,4 faizi təhsil, 18,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,3 faizi tikinti, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2020-ci ilin yanvar-avqust aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 20,5 faiz artaraq 710,2 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## 9 ayda sənayenin qeyri-neft sektorunda 10,8 faiz artım qeydə alınıb

Dövlət Statistika Komitəsi xəbər verir ki, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2020-ci ilin yanvar-sentyabr aylarında 27,8 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir.

Bu dövrdə sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 10,8 faiz artmışdır.

Sənaye məhsullarının 60,1 faizi mədənçıxarma, 33,8 faizi emal, 5,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,6 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,3 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 8,2 dəfə, metallurgiya sənayesi məhsullarının istehsalı 74,9, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 72,2, sair nəqliyyat vasitələrinin istehsalı 59,4, kompüter, elektron və optik məhsulların istehsalı 39,7, kağız və karton istehsalı 30,4, geyim istehsalı 29,2, maşın və avadanlıqların istehsalı 28,9, ağacın emalı və ağacdan məmulatların istehsalı 28,5, tikinti materiallarının istehsalı 25,9, poliqrafiya məhsullarının istehsalı 24,7, kimya sənayesi məhsullarının istehsalı 20,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 16,4, tütün məmulatlarının istehsalı 13,5, toxuculuq sənayesi məhsullarının istehsalı 5,1 faiz artmışdır. Qida məhsullarının istehsalı 1,8, hazır metal məmulatlarının istehsalı 2,1, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 5,3, neft məhsullarının istehsalı 5,5, elektrik avadanlıqlarının istehsalı 9,6, içkilərin istehsalı 9,8, mebel istehsalı 26,6, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri isə 41,8 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 8,7 faiz artmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda 2,8 faiz azalmışdır.

## Xarici ticarətdə 2,2 milyard dollarlıq müsbət saldo var

Yanvar-avqust aylarında Azərbaycan dünyanın 175 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 105 ölkəyə məhsul ixrac, 162 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 15 milyard 667,8 milyon ABŞ dolları olmuşdur. Ticarət dövriyyəsinin 8 milyard 977,3 milyon dollarını (57,3 faizini) ölkədən ixrac olunmuş, 6 milyard 690,5 milyon dollarını (42,7 faizini) ölkəyə idxal edilmiş məhsulların dəyəri təşkil etmiş, nəticədə 2 milyard 286,8 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 29,8, real ifadədə 22,9, o cümlədən idxal 42,2, ixrac isə 8,9 faiz azalmışdır.

Hesabat dövründə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 9,7, real ifadədə 18,4 faiz azalaraq 1 milyard 153,2 milyon dollar olmuşdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 31,2 faizini İtaliyaya, 19,4 faizini Türkiyəyə, 4,7 faizini Rusiyaya, hər biri 4,2 faiz olmaqla Çin və Hindistana, 3,9 faizini İsrailə, 3,5 faizini Yunanıstana, hər biri 3,4 faiz olmaqla Xorvatiya və Gürcüstana, 2,8 faizini Ukraynaya, 2,3 faizini İspaniyaya, 1,9 faizini Çexiyaya, 1,7 faizini Tunisə, 1,5 faizini Almaniyaya, 11,9 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (39 faiz), Türkiyəyə (19,7 faiz), İsveçrəyə (12 faiz), Gürcüstana (8 faiz), Çinə (2,8 faiz), Ukraynaya (2,3 faiz), İtaliyaya (1,8 faiz), Qazaxıstana (1,5 faiz), İrana (1,2 faiz), Belarusa (1,0 faiz), Türkmənistana (1 faiz), ABŞ-a (0,9 faiz) göndərilmiş malların payı üstün olmuşdur.

İdxal olunmuş məhsulların ümumi dəyərinin isə 18,7 faizi Rusiya, 14,7 faizi Türkiyə, 13,3 faizi Çin, 7,4 faizi ABŞ, 5,3 faizi Almaniya, 4,2 faizi Ukrayna, 4,1 faizi İtaliya, 3,0 faizi Birləşmiş Krallıq, 2,7 faizi İran, 2,0 faizi Yaponiya, 1,8 faizi Koreya, 1,7 faizi Fransa, 21,1 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

## Əsas kapitala 10,4 milyard manatdan çox vəsait yönəldilib

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 9 ayında əsas kapitala 10430,2 milyon manat məbləğində vəsait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 15,2 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 14,1 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 6995,8 milyon manatı və ya 67,1 faizi məhsul istehsalı, 2492,0 milyon manatı (23,9 faizi) xidmət sahələrinə, 942,4 milyon manatı (9 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6665,8 milyon manatını və ya 63,9 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6667,2 milyon manatı və ya 63,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 59,9, büdcə vəsaitləri 22,3, bank kreditləri 6,5, əhalinin şəxsi vəsaitləri 6,1, sair vəsaitlər 3,4, büdcədənkənar dövlət fondlarının vəsaitləri 1,8 faiz təşkil etmişdir.

2020-ci ilin yanvar-sentyabr aylarında Bakı şəhərində "Yeni klinika" tibb müəssisəsi, 3 saylı DOST mərkəzi, modul tipli xəstəxana kompleksi, modul tipli hospital, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin modul tipli hospitalı, "Böyükşor" və "Əhmədli" elektrik yarımstansiyaları, S.Bəhlulzadə adına Mədəniyyət Evi, ADA Universitetinin iki yeni korpusu, 60 çarpayılıq xəstəxana binası, Naxçıvan Muxtar Respublikasında ümumi təhsil müəssisəsi, 3 ambulatoriya-poliklinika müəssisəsi, Sumqayıt şəhərində 2 tibbi maska istehsalı müəssisəsi, qoruyucu kombinezonların istehsalı müəssisəsi, modul tipli xəstəxana, Kimya Sənaye Parkının nəzdində Peşə Təhsili Mərkəzi, Gəncə şəhərində tikinti materialları istehsalı zavodu, Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusu, 200 çarpayılıq xəstəxana binası, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusu, Mingəçevir şəhərində Dövlət Rəmzləri Muzeyi, Şəki şəhərində modul tipli xəstəxana, 200 çarpayılıq xəstəxana binası, Abşeron rayonunda modul tipli xəstəxana, Ağcabədi rayonunda "Asan Həyat" kompleksi, dənli bitki toxumlarının emalı zavodu və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

# Cəbhəyə uzaq, savaşa yaxın kəndimiz



Quba rayonunda, doğma kəndimiz Xucbaladayam. Hamı xəbərlərə baxır, dövlət başçısının müsahibələrinə qulaq asır və ürəklərindən tikan çıxır. "Kişidir, ermənilərin dizini qatladı, halal olsun" deyib qəlbən sevinir. Bax beləcə, dağ yamacının sinəsində qərar tutan 1600 illik tarixə malik bu kənddə hər evdə müharibənin ab-havası duyulur.

Burdan paytaxta baxanda Ali Baş Komandandan sıravi əsgərə kimi hamının bütün varlığı ilə müqəddəs Qələbəyə kökləndiyini aydın görürsən. Xucbala kəndi qanlı və amansız döyüşlərin getdiyi Qarabağdan nə qədər uzaq olsa da, kiminlə danışsan, kəlmə kəssən anlayırsan ki, uşaqdan böyüyə hər kəs ruhən səngərdədir. Azərbaycan xəritəsinə kiçicik bayraq kimi sancılan Xucbala da döyüşdədir. Kənddə övladı, qardaşı, yaxını, qohumu müharibədə olmayan yoxdur, təxminən 50-dən yuxarı həmkəndlim əsgər və zabit müqəddəs Vətən müharibəsindədir.

Son illər Azərbaycan müdafiə qüdrətini gücləndirdikcə, ordunu müasirləşdirdikcə, əsgər və zabitlərin sosial qayğılarına diqqəti artırdıqca insanların qəlbində Milli Orduya rəğbət birə yüz artmışdır. Yaxşı yadımdadır: 1992-ci ildə Qarabağ döyüşlərinin ağır vaxtında kəndimizdə elələri var idi ki, müharibəyə əsgər yığan OMON-un əlindən qaçıb gizlənməklərindən cəngavər kimi danışardılar. O vaxt hamı özünü düşünürdü. Çünki ordu yox idi.

Bu gün isə qüdrətli Azərbaycan Ordusu hamımızın qəlbinə hakim kəsilib. Hamımız onunla öyünürük, onun gücü və möhtəşəmliyi ilə fəxr edirik. Məhz bunun sayəsində ölkədə peşə kimi hərbi seçənlərin sayı on minlərlədir.

Orduya dəyişən münasibət Xucbalada da hiss olunur. Kənd sakini Müşfiqin bir oğlu döyüş bölgəsindədir, o biri oğlu Hərbi Akedemiyanın kursantıdır. Ümumiyyətlə, son 10 ildə Xucbalada çoxları talelərini hərbə bağlayıb. Onların arasında müddətdən artıq xidmət edənlər, zabitlər var və bu gün əksəriyyəti döyüş bölgəsindədir. Hamı onların qələbə ilə qayıtmasını gözləyir. Hamı gözü yolda, ürəyi səksəkədə yalnız bir xəbəri - Qələbə müjdəsini gözləyir.

Kənddə uşaqdan böyüyə kiminlə kəlmə kəsdiksə, gördük ki, müharibə sanki uzaqda, ölkənin o biri başında deyil, səngərlərimiz yalnız Qarabağdakı mövqelərimizdən yox, həm də hər birimizin içindən, ürəyindən keçir.

7-ci sinif şagirdi Dilbər anasını erkən itirdiyi üçün dövlətdən müavinət alır. O, bu ayın pulunu Azərbaycan Ordusuna göndərib: "Əmi, 68 manatlıq isti corablar, papaqlar aldım, məktəbimizdən cəbhəyə göndərdim. Onlar mənim qardaşlarımdır, qoy üşüməsinlər davada".

Kəndimiz böyüdüyü üçün camaat öz arasında onu üç məhəlləyə bölüb - Yuxarı, Orta və Aşağı məhəllələrə. Hər məhəllədən 10-15 adam döyüşlərdədir.

Ramilin oğlu təzə əsgər gedib. Oqtayın və sinif yoldaşım Əliağanın övladları, Ağasəfin iki oğlu, Muradın üç oğlu münaqişə bölgəsindədir. Camaat deyir ki, aslan kimi uşaqlardır, dəyirmanın boğazından ölü salsan diri çıxarlar. Biri yaralanıb. Güllə qarnından necə dəyibsə, xoşbəxtlikdən daxili orqanlarını zədələməyib. Uşaq bir-iki gün yatıb, sonra səngərə qayıdıb ki, qalanı döyüşdə sağalacaq. Cəsurluğun həddi-hüdudu olmazmış...

Narıncın iki oğlunun ikisi də müharibə bölgəsindədir. Qapısına getdik ki, hal-əhval tutaq. Dedilər, Bərdədir. Demə, Narıncın bir oğlu Qafar Bərdədən qız alıb. Evlənib, ailə qurub, elə orda da yurd salıb. Ermənilər cəbhə rayonlarını bombardmana başlayanda Narınc ananın ürəyi dözməyib, Bərdəyə yola düşüb ki, gəlini, nəvəsi tək qalmasın. Zəng etdik ki, danışaq, dediyi söz tək bu oldu: "Mən nə deyim ki, balama bir köynək yaxın gəlmişəm, qalanları televizordan görürsünüz".

Kəndimizdən 1992-ci ildə də Qarabağ döyüşlərində iştirak edənlər olub. Onlardan biri Xosrov Ələkbərovdur. 4 il müharibədə olub. Ondan o dövrün ordusu ilə bugünkü ordumuzun fərqini soruşduq.

- Müqayisə etmək mümkün deyil! Fərq yerlə göy arasındakı qədərdir. 1992-ci ildə kimin əlində avtomat vardısa, özünü aslan sayırdı. Başqa silahları demirəm. Amma hər əsgərdə də avtomat olmazdı. Təchizat, arxa cəbhə ilə əlaqə, döyüş sirlərinin qorunması yox dərəcəsində idi. Döyüş bölgəsində, sərhədyanı əhali arasında panika çox güclü idi. Qaçırdılar. Heç kimin güvənən yeri yox idi. İndi vəziyyət fərqlidir. Avtomat bir yana qalsın, pulemyotdan, qumbaraatandan danışan yoxdur. Azərbaycan Ordusu misli görünməmiş intellektual müharibə aparır. Bu döyüşlərə bütün dünya təəccüblə, az qala qeyri-adi hadisə kimi baxır. Heç kimin ağlına gəlməzdi ki, ordumuz 20-30 ildə bu dərəcədə yenilməz və güclü olar. Oğlum Əli bu dəqiqə ən ağır döyüşlər gedən yerdə vuruşur. Arxayınam, əminəm və görürəm ki, Ali Baş Komandan hər bir əsgərin həyatını qorumaq üçün əlindən gələni edir.

Müharibədən uzaq bu kənd sanki döyüşlərin içindədir. Əslinə qalsa, bütün Azərbaycan müqəddəs savaşdadır. Qələbə bizim alnımıza yazılıb. Onu qazanmaq üçün neçə illərdir kifayət qədər qurbanlar vermişik. Bu gün Azərbaycan əsgərinin barmağı tətiyin üstündə müharibənin Qələbə simfoniyasını çalır. Qanunsuz erməni terror dəstələri isə Paşinyanın dirijorluğu altında "Əlvida, Qarabağ" adlı matəm marşının sözlərini əzbərləyir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qarabağda ədaləti bərpa etmək tarixi missiyadır

## Azərbaycan haqq savaşında mütləq qalib gələcək!

### Bu, tanınmış yerli və xarici idmançıların fikridir









Qəhrəman ordumuzun erməni işğalçılarına qarşı apardığı əks-hücum əməliyyatının davam etdiyi bir vaxtda xalqımız görünməmiş birlik və həmrəylik nümayiş etdirir. Bu milli birlik, taleyüklü məqamlarda öz dövlətinin və Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx həmrəylik nümayiş etdirmək xalqımızı səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Müharibə şəraitində yaşadığımız indiki dövrdə ordumuza dəstək olmağı hər bir Azərbaycan vətəndaşı özünün müqəddəs borcu sayır. Təbii ki, belə bir məqamda idmançılarımız da hadisələrdən kənarda qalmır.

Bu günlər erməni terrorçuları tərəfindən Gəncəyə atılmış raket nəticəsində baş vermiş faciə dünyanın diqqət mərkəzindədir. Bədii gimnastika üzrə milli komandamız baş məşqçi, bolqarıstanlı mütəxəssis Marina Vasilyevanın rəhbərliyi ilə Gəncədə olmuş, yaralıların və həlak olanların ailələrini ziyarət etmişdir.

Azərbaycan futbolunun veteranı Mehman Allahverdiyev isə raket hücumunun canlı şahididir. "Ermənistan həqiqi terrorla məşğuldur. Dinc əhalini qətlə yetirirlər. Gəncə döyüş zonasına daxil deyil. Lakin ermənilərin xisləti belədir. Onlar həmişə qadınları və uşaqları hədəf seçirlər. Atılan mərmilər və raketlər bizi qorxutmur, əksinə, düşmənə qarşı daha çox qətiyyət və haqlı nifrət yaradır. Hamımız Ali Baş Komandanı dəstəkləyirik və Vətən yolunda hər şeyə hazırıq. Əlbəttə, Qələbə bizim olacaq. Həm Gəncədə, həm də digər şəhərlərimizdə insanların yüksək mənəvi əhvali-ruhiyyəsi var. Hamı ancaq Qələbəyə köklənmişdir", - deyə Gəncə futbol məktəbinin tanınmış nümayəndəsi bildirib.

Uzun müddət yığma komandamızın heyətində çıxış etmiş əslən ukraynalı futbolçu Aleksandr Çertoqanov da Gəncədə baş verənləri dəhşət adlandırıb: "Ümumiyyətlə, mən təsəvvür etmirəm ki, dinc sakinlərə necə atəş açmaq olar?! Fikrimcə, Azərbaycan öz ərazilərini qaytaracaq. Düzdür, bir çox amillər Rusiyadan asılıdır. Lakin indi Moskva Ermənistanı əvvəlki kimi dəstəkləmir. Müharibənin tezliklə Azərbaycanın qələbəsi ilə bitməsini və insanların sülh və əmin-amanlıq şəraitində doğma torpaqlarında yaşamasını arzulayıram".

SSRİ yığma komandasının tərkibində Olimpiya çempionu olmuş daha bir futbolçumuz İqor Ponomaryov erməni terrorçularının hərəkətlərini hərbi cinayət kimi qiymətləndirir: "Müharibənin də öz qaydaları var, lakin ermənilər buna riayət etmirlər. Azərbaycan öz ərazisində, əzəli torpaqlarının azad edilməsi uğrunda mücadilə aparır".

Yüngül atletika üzrə dünya çempionu, hazırda Türkiyənin idman şərəfini qoruyan Ramil Quliyev Gəncədə baş vermiş dəhşətli hadisələrlə bağlı post dərc etmişdir. O, bütün dünya ictimaiyyətini Azərbaycanın dinc sakinlərinə qarşı törədilmiş erməni təcavüzünə diqqət yetirməyə və onu pisləməyə çağırmışdır.

Latviyada çıxış edən idmançımız Vüqar Əsgərov isə antiterror əməliyyatı günlərində Ağdamın "Qarabağ" klubunun Avropa Liqası yarışları çərçivəsində Varşavadakı möhtəşəm uğurunu xatırlayır: "Komanda hamıya nümayiş etdirdi ki, Qarabağ Azərbaycandır!"

"Biz bu məqamı 30 ildir gözləyirdik və nəhayət, qisas zamanı gəlib çatdı. Azərbaycan Ordusu erməni işğalçılarının ələ keçirdiyi ərazilərin azad olunması və adamların öz əcdadlarının Vətəninə qayıtması uğrunda mücadilə aparır. Hazırda şanlı ordumuz tarix yazır. Lakin əzəli torpaqlarımızı geri qaytarmaq üçün biz sonadək getməliyik. Özüm döyüş əməliyyatlarında iştirak edə bilməsəm də, zabit və əsgərlərimizə mənəvi dəstək olmaq üçün bu günlərdə cəbhəyanı zonaya yollanmışdım. Orada hamı bir-birini dəstəkləyir və üzərlərində olan müqəddəs missiyanı tam dərk edir. Bizim işimiz haqq işidir və öz torpaqlarımızı erməni terrorçularından azad edəcəyik. Hərbçilərimizə müraciətimdə bildirdim ki, Azərbaycan bayrağı idmançılarımızın qələbələri sayəsində dünyanın bir çox ölkəsində dəfələrlə yüksəyə qaldırılmışdır. İndi isə bayrağımız Şuşada, Xankəndidə və işğal altında olan digər şəhər və kəndlərimizdə qaldırılmalıdır", - deyə ikiqat paralimpiya çempionu İlham Zəkiyev bildirmişdir.

İngiltərənin "Arsenal" klubunun türkəsilli futbolçusu, Almaniya Milli Komandasının heyətində Dünya çempionu olmuş Məsut Özil Azərbaycana dəstək postu dərc etmişdir. Özil "Twitter"dəki səhifəsində Mustafa Kamal Atatürkün sözlərini xatırlatmışdır: "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir".

Gimnastika üzrə Avropa çempionu, dünya çempionatlarının mükafatçısı Aliyə Qarayeva da torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda mübarizədə Azərbaycana dəstəyini bildirir: "Artıq 30 ildir Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunub. Yüz minlərə azərbaycanlı qaçqın və məcburi köçkündür. Bu onilliklər ərzində Ermənistan müntəzəm olaraq Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmuş, nəticədə dinc sakinlər, o cümlədən qadınlar və uşaqlar həlak olmuşdur. Buna baxmayaraq, Azərbaycan münaqişəni dinc yolla həll etmək ümidini itirmirdi. Lakin hər bir səbrin sonu olur. Hazırda Azərbaycan Ordusu torpaqlarını erməni işğalçılarından təmizləyir. Biz dinc sakinlərə qarşı vuruşmuruq. Biz müharibə istəmirik. Azərbaycan öz ərazilərini geri qaytarmaq istəyir və buna nail olacaq".

Hazırda Gürcüstanda çıxış edən braziliyalı futbolçu Reynaldo və Türkiyənin "Konyaspor" klubunun və Bosniya və Herseqovina yığmasının qapıçısı İbrahim Şehiç haqq savaşında Azərbaycana dəstəyini ifadə etmiş və dünya birliyini erməni təcavüzünü pisləməyə çağırmışlar.

Digər məşhur futbolçu, Çeçenistanın fəxri vətəndaşı Deni Qaysumov hesab edir ki, Azərbaycan Prezidenti tam haqlıdır - erməni terrorçuları və xarici muzdlular Azərbaycan ərazisini tərk etməlidirlər: "Biz çeçenlər də müharibə görmüşük. Bu, faciədir. İlham Əliyev isə əlindən gələni edir ki, Azərbaycan xalqı öz torpaqlarında və ərazisində sülh və əmin-amanlıq şəraitində yaşasın. Ümidvaram ki, tezliklə tarixi ədalət zəfər çalacaq və Qarabağda dinc həyat bərqərar olacaq!"

Dünya şöhrətli şahmatçımız, beynəlxalq qrossmeyster Şəhriyar Məmmədyarov Vətənin azadlığı uğrunda mübarizə aparan əsgərlərə müraciət etmişdir: "Mənə görə bizi Qələbəyə aparan əsas iki qüvvə var - xalqın dəstəyi, özünəinam və ruh yüksəkliyi. Azərbaycan xalqı, hər birimiz sizinləyik, hər an fikrimiz sizin yanınızdadır və qəlbimiz sizlərlə birgə döyünür! Biz sizə inanırıq, ruhunuzu yüksək tutun və inanın, siz qalib gələcəksiniz! Çünki yolunuz haqq yoludur və haqq mütləq qalib gələcək! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır! Qələbə bizimdir!"

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***



Əsgərə məktub

## Vuran qolun bükülməsin...

Salam, Azərbaycan əsgəri! Bu gün adı dilimizin əzbəri olan Vətən övladı! Bu məktubu sənə ürəyimi qanadlandıran coşqu ilə yazıram. Biz hamımız sizinlə, bugünlərdə dağ boyda sevinci bizə yaşadan, xalqımıza xoş ovqat bəxş edən Milli Ordumuzla qürur duyuruq.

Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərimizdə apardığımız əks-hücum əməliyyatları sayəsində strateji əhəmiyyətli Murovdağın və bu qəbildən olan digər yüksəkliklərin, Cəbrayıl şəhərinin və ətraf yaşayış məntəqələrinin, Füzuli rayonunun zəbt olunmuş neçə-neçə kəndinin, habelə Xocavənd rayonunun Hadrut qəsəbəsi və 8 kəndinin düşməndən azad edilməsi dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin dönməz iradəsinin, ordumuzun əzmkarlığının daha bir göstəricisidir. Müzəffər ordumuz gündən-günə artan ruh yüksəkliyi, mübarizə əzmi və sərkərdəsinin qətiyyəti ilə çağdaş günümüzdə tarix yazır. Bu qəhrəmanlıq tarixi sənin də hünərinlə yazılır, əsgər oğlum!

Düşmən əsarətində qalmış yurd yerlərimizin hər qarışı uğrunda çarpışan, şirin canından keçən igidlərimizin torpağa səpələnmiş al qanıyla yazılır hərb salnaməmiz. Doğma yurdun ərazi bütövlüyü uğrunda şəhid olan oğulları dünyaya gətirmiş analar "Təki Vətən sağ olsun!" deyirlər. Axı məmləkəti düşmənə çəpər oğullar qoruyar, millətin namusunu, heysiyyətini, şərəfini hər şeydən uca tutarlar. Bu gün ordumuzun sıralarında birləşən ərənlər kimi. Sənin kimi, sənin silahdaşların kimi.



"Qalib haqlı olandır" deyiblər. Siz haqq işimiz naminə döyüşür, məlum münaqişə nəticəsində öz yurdunda qaçqına və məcburi köçkünə çevrilmiş 1 milyondan artıq soydaşımızın çəkdiyi iztirablara son qoyulması, əzəli torpaqlarımızın murdar düşməndən təmizlənməsi üçün od-alov püskürən, barıt qoxulu cəbhədəsiniz. Çünki bizim öz müstəqil respublikamızın ərazi bütövlüyünü müdafiə etmək hüququmuz var. Siz Vətən müharibəsinə qoşulmusunuz. Savaşınız, mücadiləniz müqəddəs amal uğrundadır.

İndi hər birimiz möhtəşəm həmrəyliyin şahidiyik: dövlət, xalq və ordu birliyinin! Bu sıx vəhdət ürəyimizdə ehtişam, fəxr-fəxarət duyğusu yaradıb. Xalqımız bütün dünyaya, bizi dəstəkləyən və dəstəkləməyən dövlətlərə haqq işi naminə bir yumruqtək birləşmək nümunəsi göstərdi. Bu gün Vətənimiz düşmənin strateji nöqtələrini sərrast nişan alan, hədəfi iti görən qartal baxışınıza, aslan pəncənizə, gücünüzə, təpərinizə güvənir. İşğal altında olan torpaqlarımızı buxovdan, qandaldan sən qurtaracaqsan, əsgər oğlum, əsgər qardaşım!

Birinci Qarabağ savaşında döyüşmüş cəsur oğul və qızlarımızın övladları indi odlu cəbhələrdə zəfər yürüşünə çıxıb, düşmənə qan uddurur. Uzun müddətdən bəri bağlanmış, kol-kos basmış yollarımız açılır. Otuz il əsirlikdə qalan, tank tırtıllarından cadar-cadar olmuş torpaqlarımız tezliklə öz gerçək sahiblərinin nəfəsi ilə sevinəcək.

Uğrunda çarpışdığın Vətənin anaları, həm də yurd aydınları adından deyirəm: "Vuran qolun bükülməsin, Azərbaycan əsgəri!"

Yaşasın tarix yazan Milli Ordumuz!

Qələbə bizimdir!

Qarabağ Azərbaycandır!

*Hörmətlə:*

***Zemfira MƏHƏRRƏMLİ, yazıçı-publisist***

## Təcavüzkarın ona yaradılan son şansdan da əli üzüldü

### Ermənistan Gəncəyə, Azərbaycan isə hərbi-siyasi müstəvidə işğalçıya ağır zərbə endirdi

Azərbaycan hələ əks-hücum əməliyyatından əvvəl Ermənistan tərəfindən törədilən ardıcıl təxribatları və erməni yalanlarını sistemli şəkildə beynəlxalq arenada alt-üst etməyi bacardı. 2020-ci ilin iyul təxribatından istər əvvəl, istərsə də sonra Azəbaycan Prezidenti İlham Əliyev bütün beynəlxalq platformalarda Ermənistanın işğalçı siyasətini ifşa etdi. Təcavüzkarın Azərbaycana qarşı yeni işğal planları qurduğunu faktlarla sübuta yetirdi.

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində başlanan hərbi əməliyyatlar dövründə Prezident İlham Əliyev nüfuzlu beynəlxalq televiziya kanallarına müsahibələr verərək, əsl həqiqəti dünya xalqlarının diqqətinə çatdırdı. Bunun bir sıra səbəbləri var. Öncə Azərbaycan Prezidenti bununla qarşı tərəfin yalan, böhtan, iftira, saxta göz yaşları üzərində qurduğu informasiyaların qarşısını aldı. Daim sülh danışıqlarını pozan, lakin bunu Azərbaycanın üzərinə çamur kimi atmağa çalışan Ermənistan bu dəfə havadarlarının da dəstəyindən məhrum olduğunu hiss etdi. Son vaxtlar gözlədiyi ünvanlardan istədikləri şəkildə maddi-mənəvi, eləcə də hərbi dəstək almadığı üçün daha da aqressivləşən Ermənistan bir növ taym-auta düşdü. Bu həm də Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, səbəbləri, hazırkı vəziyyəti ilə bağlı hüquqi, siyasi, mənəvi və digər amillərin Azərbaycan Prezidenti tərəfindən bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırılmasının, haqlı mövqeyimizin ortaya qoyulmasının nəticəsidir.

Ali Baş Komandan kimi Prezident İlham Əliyevin eyni vaxtda həm döyüş, həm də informasiya cəbhəsində məharətli sərkərdə kimi ölkəsinin maraqlarını inamla və qətiyyətlə müdafiə etməsi göz qarşısındadır. Prezident İlham Əliyev "CNN International", "CNN-Türk", "Sky News", "Euronews", "Əl-Cəzirə", "Əl-Ərəbiyə", Türkiyənin nüfuzlu "TRT Haber", Rusiyanın aparıcı "Rossiya-1", "Pervıy Kanal", RBK televiziya kanallarına müsahibələrində Azərbaycana qarşı "feyk-nyuslar"ı ifşa etməklə, təcavüzkar Ermənistanın yalan, şər-böhtan, saxtakarlıq üzərində qurulmuş informasiya maşınına ağır zərbə vurdu.

Bu da müharibənin yazılmış və ya yazılmamış qanunlarından biridir. Yəni qarşı tərəfin niyyətlərini və gerçəklikləri dünyaya çatdırmaq qələbədə mühüm amillərdəndir.

Sosial şəbəkə resurslarından istifadə edən ermənipərəst elektron KİV-də Ermənistanın saxta informasiyaları özünə yer almamış Azərbaycan öz həqiqətlərini, məqsəd, məram və niyyətini ortaya qoydu: biz özgəsinin torpaqlarında döyüşmürük. 30 ilə yaxındır ki, təcavüzkarın işğalına məruz qalan tarixi ərazilərimizi terrorçulardan, quldurlardan - Ermənistanın silahlı qüvvələrindən azad etməklə, regiona və dünyaya sülh gətirmək istəyirik. Bu həm də Azərbaycanın haqq işi, eyni zamanda beynəlxalq səviyyədə sülhün, təhlükəsizliyin təminidir. Hansı ki, bunu nə ATƏT-in Minsk qrupu bacardı, nə də qəbul etdiyi 4 qətnaməsinin icra mexanizmi olmayan BMT Təhlükəsizlik Şurası. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev isə məhz bu baxımdan məsələlərə operativ müdaxilə etməyə məcbur oldu.

Oktyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verərkən bəyan etdi ki, biz dayanmamışıq, axıra qədər gedəcəyik. Əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda axıra qədər gedəcəyik. Bizim məqsədimiz dəyişməz olaraq qalır: "Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılması. Buna görə bizim məqsədimiz dəyişməz qalır. Sadəcə bu məqsədə doğru necə getməliyik? Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil. Biz döyüş meydanında göstərdik ki, bu, belə deyil. Göstərdik ki, hərbi tərkib hissəsi olmasa, bu danışıqlar daha 30 il davam edərdi".

Dövlət başçısının vurğuladığı kimi, Ermənistan rəhbərliyində axır ki, başa düşməlidirlər: Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz! Paşinyan Azərbaycana 7 ultimatum təqdim edib xalqımızın heysiyyəti ilə oynayanda düşünməıi idi ki, bunun bədəlini ödəyəcək, hərbi-siyasi müstəvidə cəzalandırılacaq. Buna görə hələ də o təhqirinin cavabını almaqdadır. Ona görə Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, yalvarmadığı, qapısını döyməd iyi, telefon zəngləri ilə zəhləsini tökmədiyi dövlət rəsmiləri qalmadı. Bu, xüsusən Rusiyanın Prezidenti V.Putinə davamlı şəkildə etdiyi zənglərdə özünü təsdiqlədi.

Dövlət başçısı oktyabrın 12-də Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verəndə də bir daha təcavüzkarın öz layiqli cəzasını axıra kimi alacağını gizlətmədi: "Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir. Hər gün biz yeni mövqeləri azad edirik. O mövqelər şərt deyil ki, kənd olsun, yaxud da ki, şəhər olsun. Təpə olsun, dağ olsun - o, kənddən, şəhərdən daha önəmlidir. Şəhərlərə biz onsuz da qayıdacağıq. Bizim üçün əsas məsələ strateji yüksəklikləri almaqdır. İndi Hadrutun bütün ətrafı bizim nəzarətimizdədir. Şəhərdə də biz varıq. Amma şəhərə girək-girməyək, o, başqa məsələdir. Bizim qarşımızda indi belə bir siyasi vəzifə yoxdur ki, mütləq bu gün oranı elan edək, sabah oranı elan edək".

Ali Baş Komandanın bəyan etdiyi kimi, artıq bu gün nə status-kvo var, nə də təmas xətti. Ermənilərin öz işğalçı, terrorçu silahlı quldur dəstələri haqqında uzun illər uydurduğu yenilməz ordu əfsanəsi isə darmadağın edilib. Azərbaycan Ordusu özünün müzəffər yürüşləri, terrorçulara dərs vermələri ilə kimin nəyə qadir olduğunu göstərdi. Qısa vaxt ərzində bir-birinin ardınca şəhər və kəndlərimizi, onlardan daha strateji əhəmiyyətli olan yüksəklikləri işğalçılardan azad etməklə sülh danışıqlarının vacibliyini isbatladı. Təəssüf ki, ermənilər və onların baş naziri bunu da anlamadı. Terrorçuluq xislətindən əl çəkməyərək, Azərbaycan tərəfini yenidən təxribata çəkməyə can atdı. Əslində, bu reallıqlarla gərək həm Ermənistan, həm də onların havadarları, daha geniş mənada, bütün dünya hesablaşsın: "Bizə dur deyənlər bilməlidirlər ki, yaxşı, biz dura bilərik, biz də istəmirik ki, qan tökülsün. Amma ondan sonra gərək siyasi proses başlasın. Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər..."

Məsələnin başqa bir tərəfi də ondan ibarətdir ki, həqiqəti söyləmək asan olmur, çünki acıdır. Azərbaycan Prezidentinin beynəlxalq KİV-ə müsahibəsində də göstərdiyi qətiyyət, cəsarət məhz həqiqətə söykəndiyi üçün hədəfə çatırdı. Ermənistanın baş nazirinin isə dəfələrlə telemüsahibələrində çaşması, ilk növbədə, uydurmağa çalışdığı yalanlarla bağlıdır. Hətta N.Paşinyan fikrini ifadə edə bilmədiyi üçün Dağlıq Qarabağın Azərbaycan ərazisi və işğal edilməsi fikrini də dilə gətirdi. Bu, əlbəttə, Azərbaycan Prezidentinin rəqib üzərindəki diplomatik qələbəsinin nümayişi idi.

Bəzi ermənipərəst KİV-in təxribat xarakterli suallarına təmkinlə, soyuqqanlı, lakin tutarlı faktlarla cavab verən Azərbaycan Prezidenti siyasi müstəvidə güclü diplomat, Ali Baş Komandan kimi isə ön cəbhədə düşmən üzərinə əks-hücuma keçən sərkərdə təsiri bağışlayır. Azərbaycan Prezidentinin təmkini ilə yanaşı, səbrimizin hüdudunun olmasını göstərən anlar da xalqımızın iradəsinin ifadəsi kimi qəbul edilir. Nəinki öz xalqına, hətta daim ermənilərə arxa-dayaq olan müttəfiqlərinə də həyəcan yaşadan Ermənistan rəhbərliyinə layiq olduğu ifadələrlə öz yerini göstərməsi diqqətdən yayınmayan məqamlardı.

Hadisələri nəzarətə götürmək, vəziyyəti idarə etmək bacarığı ilə istənilən ağır şəraitdə, taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin təşkili ilə bağlı şəxsi nümunəni ortaya qoyan dövlət başçısının istər daxili, istərsə də xarici auditoriya qarşısındakı çıxışları xalqın ürəyindən xəbər verir. Çünki xalqın sözünü və mövqeyini ifadə edir. Bu müsahibələr bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı Prezident İlham Əliyevi öz iradəsini ən layiqli şəkildə müdafiə etmək qabiliyyətinə malik lider kimi görür, inanır, güvənir və tam dəstəkləyir.

Onu da qeyd edək ki, təcavüzkarın ona yaradılan son şansdan da əli üzüldü. Ermənistan Gəncəyə, Azərbaycan isə hərbi-siyasi müstəvidə işğalçıya ağır zərbə endirdi. Prezident İlham Əliyevin döyüş və informasiya cəbhəsində əldə etdiyi qələbələr həm də onun təsdiqidir ki, dövlət başçısı bütün addımlarında Azərbaycan xalqının dərin inamına əsaslanaraq hərəkət edir və bu etimadı layiqincə doğruldur.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## Döyüş meydanında da, danışıqlar masasında da BİZ GÜCLÜYÜK!

**Azərbaycan torpaqlarının bir hissəsi 30 ildir işğal altındadır. Bununla belə, ötən dövrdə ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə münaqişənin sülh yolu ilə həlli üçün aparılan danışıqların heç bir nəticə vermədiyi hamıya məlumdur.**

Ermənistan tərəfi sözdə problemin danışıqlar yolu ilə həllinin tərəfdarı olsa da, hər dəfə onu müxtəlif bəhanələrlə pozması da məlum faktdır. Məsələnin məğzi budur ki, özlərini sülh tərəfdarı kimi göstərən işğalçılar hər vəchlə əsas məsələdən - torpaqlarımızdan çıxmaqdan yayınır, işğal etdikləri torpaqları geri qaytarmaq istəmirlər.

Ermənilər indiyədək danışıqlarda "sülhpərvərlik"lərini göstərmək üçün iki tərəfin də güzəştlərə hazır olmasını tələb edirdilər. Bununla özlərini guya güzəştə gedən, Azərbaycanın isə bundan imtina edən tərəf olduğunu bildirmək istəyirdilər. Onların "güzəşt"i ondan ibarət idi ki, torpaqların bir hissəsini qaytarsınlar, əvəzində biz Dağlıq Qarabağın müstəqilliyini tanıyaq. Təbii ki, Azərbaycan bu haqsız tələblə razılaşa bilməzdi.

Sülh danışıqlarının nəticəsiz qalmasında dünya birliyinin və beynəlxalq təşkilatların ikili standartlarının da günahı az deyil. Təbii ki, Azərbaycan erməni işğalına, həmsədrlərin və beynəlxalq təşkilatların ikili standartlarına axıra kimi dözə bilməzdi. Xüsusilə Nikol Paşinyanın "Qarabağ Ermənistandır. Nöqtə" bəyanatından sonra sülh danışıqlarının aparılması mənasız vaxt itkisinə çevrilmişdi. Prezident İlham Əliyev dəfələrlə beynəlxalq təşkilatları, həmsədr ölkələri xəbərdar etmişdi ki, Azərbaycan öz torpaqlarını azad etməyə qərarlıdır. Təəssüflər olsun ki, vasitəçi dövlətlər bu xəbərdarlığı nəzərə almadılar. Cəzasızlıq və məqsədli şəkildə göstərilən laqeydlik Ermənistanı sülh danışıqlarını pozmağa, üstəlik, "yeni torpaqlar uğrunda yeni müharibə aparmağa" sövq etdi. Bu üzdən Ermənistan sentyabrın 27-də səhər saatlarında Azərbaycan tərəfinin mövqelərini atəşə tutmağa başladı. Nəticədə dinc sakinlər və hərbçilərimiz həlak oldu, vətəndaşların mal-mülkünə, infrastruktura ciddi ziyan dəydi. Səbir kasası dolduğu üçün Azərbaycan Ordusu azğınlaşmış düşməni yerində oturtmaq, işğal olunmuş torpaqlarımızı azad etmək üçün əks-hücuma keçdi.

30 il ərzində erməniləri müdafiə edən dövlətlər və beynəlxalq təşkilatlar yenə də onlara qahmar çıxaraq bizi atəşkəsə çağırdılar. Gördülər ki, Azərbaycan Ordusunun vurduğu ağır zərbələr nəticəsində düşmən geri çəkilməyə məcburdur. Bu o demək idi ki, növbəti sülh danışıqlarında şərtləri diktə edən tərəf Azərbaycan olacaq, döyüş meydanında qalib tərəf olduğu kimi. Prezident İlham Əliyevin isə şərti belə idi: "Erməni işğalçı qüvvələri ərazimizi tərk etməli, Ermənistan rəsmi surətdə Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır".

Onu da qeyd edək ki, dövlət başçısının bu tələbi beynəlxalq hüquqa uyğundur və ədalətlidir. Odur ki, Azərbaycanı sanksiya və müxtəlif təzyiqlə hədələməyin heç bir əhəmiyyəti yoxdur. Ölkəmizə qarşı heç vəchlə heç bir sanksiya tətbiq oluna bilməz. Ən azından ona görə ki, BMT-nin Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizin azad olunması barədə dörd qətnaməsi mövcuddur. İkincisi, bu gün ölkəmiz qonşu dövlət tərəfindən işğal edilən ərazilərini azad etmək üçün savaşır və bunu əksər ölkələr qəbul edir. Elə BMT Nizamnaməsinin 51-ci maddəsində açıq şəkildə yazılıb ki, işğala məruz qalan dövlət bütün vasitələrlə ərazisini düşməndən azad edə bilər. Biz də ərazilərimizi beynəlxalq hüquqda əksini tapan qaydada işğalçılardan azad edirik. Mübarizəmiz ədalətli və haqlıdır. Ona görə də güclüyük.

Ermənilərin döyüş ruhu isə gündən-günə tükənir. Daha Ermənistanda əvvəlki kimi Qarabağda döyüşmək üçün növbəyə duranlar yoxdur. İndi küçələrdə ələ keçənləri tutub zorla döyüş bölgəsinə göndərirlər. Cəbhədən gələn acı xəbərlərdən sarsılan ermənilər döyüşməmək üçün gizlənməyə yer axtarırlar. Ön cəbhədə olanlar isə arxadakılara "acıq, ərzaq gətirin, əlavə kömək göndərin" deyib fəryad qoparırlar. Erməni əsgərinin qarnı acdır, üstəlik, başına yağdırılan mərmilərdən gizlənməyə yer axtarır. Bir sözlə, erməni əsgəri bilmir ki, qarnının hayına qalsın, yoxsa başının. Yeganə ümidləri humanitar atəşkəs idi ki, ona da əməl etmirlər. Humanitar atəşkəsin şərtlərini pozaraq şəhər və kəndlərimizin dinc əhalisinin ölümünə, dağıntılara səbəb olan qatı cinayətlər törədirlər. Bir sözlə, kim olduqlarını bir daha təsdiqləyirlər.

***Rüstəm KAMAL, "Azərbaycan"***

Əvvəli 1-ci səh.

# Yolumuz Qarabağadır, üzü Şuşaya doğru!

## Azərbaycan Ordusunun müzəffər yürüşü artıq 10 minlərlə məcburi köçkünün yurdsuzluq həsrətinə son qoyur

Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, şərt o deyil ki, mövqelər kənd, yaxud şəhər, dərə-təpə, ya da ki, dağ olsun. Əlbəttə, azad edilən hər yüksəklik kənddən, şəhərdən daha önəmlidir: "...Şəhərlərə biz onsuz da qayıdacağıq. Bizim üçün əsas məsələ strateji yüksəklikləri almaqdır. İndi Hadrutun bütün ətrafı bizim nəzarətimizdədir. Şəhərdə də biz varıq. Amma şəhərə girək-girməyək, o başqa məsələdir. Bizim qarşımızda indi belə bir siyasi vəzifə yoxdur ki, mütləq bu gün oranı elan edək, sabah oranı elan edək. Yoxdur. Bəzi hallarda biz kəndləri, şəhərləri azad edirik, bir gün, iki gün sonra açıqlama veririk. Bunun da taktikası var".

### Siyasi proses başlamasa, durmayacağıq

Daşnak ideologiyalı ermənilərin özlərinin uzun illər uydurduğu "yenilməz ordu" əfsanəsi qəhrəman Azərbaycan əsgərləri tərəfindən darmadağın olundu: silah-sursatını, ağır artilleriyasını qoyub qaçan erməni əsgərləri bununla təsdiqlədilər ki, onlar vətən uğrunda döyüşmür, daşnakların sərsəm ideyalarının qurbanları kimi qarşı tərəfə atəş açmağa məhkumdurlar. Bunu təsdiqləyən faktlardan biri öz səngərində zəncirlə bağlanan erməni əsgəridir. Ona görə bu reallıqlarla təcavüzkar Ermənistan və onun son günlər başını itirmiş baş naziri N.Paşinyan və onların havadarları hesablaşmalıdırlar. Dövlət başçısının Azərbaycan xalqında və ordusunda mübarizlik ruhunu qaldıran qətiyyətli fikirlərindən biri də budur: "Bizə dur deyənlər bilməlidirlər ki, yaxşı, biz dura bilərik, biz də istəmirik ki, qan tökülsün. Amma ondan sonra gərək siyasi proses başlasın. Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər. Amma necə? Hərbi yolla, yaxud da ki, siyasi yolla, o, başqa məsələdir. Biz istəyirik ki, hərbi mərhələ dursun, qan tökülməsin, şəhidlər olmasın və sülh yolu ilə öz torpaqlarımızı azad edək".

Azərbaycanın beynəlxalq birlik tərəfindən haqq işinin dəstəklənməsi döyüş meydanlarındakı üstün möveyimizlə yanaşı, informasiya cəbhəsində də düşməni qabaqlamağımızdır. Dünyanın, o cümlədən qardaş Türkiyənin aparıcı televiziyalarına müsahibəsində dövlət başçısı məhz bu amili də diqqətdə saxlayır. Dövlət başçısına ünvanlanan suallardan biri işğaldan azad edilən ərazilərlə bağlı idi: "Bu gün biz, daha doğrusu, Bakıya gəldiyimiz andan etibarən oranı tərk etmək məcburiyyətində qalmış insanlarla görüşdük, aralarında xocalılılar, cəbrayıllılar var idi. Azərbaycan dövlətinin, Sizin köməyinizlə tikilən qəsəbələrə getdik. Hər kəsin üzündə bu ifadə var idi: Sizə, dövlətə böyük minnətdarlıq hissi. "Biz burada heç bir şeyə ehtiyacımız olmadan yaşayırıq, lakin biz öz torpaqlarımıza dönmək istəyirik",- deyirlər. Xüsusilə cəbrayıllılar, "işğaldan azad edilən torpaqlarda nə edəcəksiniz?" sualına, "təki bir damımız olsun, kifayətdir",-deyirlər. Bəs, Siz nə edəcəksiniz o insanlar üçün?

### Köhnə yurdda yeni həyat başlayacaq

Azərbaycan Prezidenti bu sualı cavablandırarkən bir daha Ermənistanın təcavüzkar siyasəti nəticəsində doğma ev-eşiyindən didərgin salınan insanların vətən, torpaq, yurd sevgisinin heç vaxt azalmadığına xüsusi diqqət ayırdı. Onların pozulmuş insan hüquqlarının bərpasından söz açaraq bildirdi ki, biz orada nəinki damlar, şəhərlər quracağıq, ora əmin-amanlıq, dinc həyat qaytaracağıq: "Bütün dağılmış yerləri bərpa edəcəyik. Artıq işğaldan azad edilmiş torpaqların bəzilərinə bizim mətbuat nümayəndələri də gedirlər. Bəzilərində isə hərbçilər videoya çəkirlər. Orada bir dənə də salamat ev, yaxud inzibati bina yoxdur. Bu faşist əməlləri dünya görməlidir. Görün, indi Ağdam, Füzuli nə gündədir?! Bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. Biz Cocuq Mərcanlını təqribən 8 aya qurduq. O kənd ki, biz 2016-cı ildə işğaldan azad etdik, 6-7-8 aya artıq oranı biz inşa etdik və indi orada insanlar yaşayırlar, qazı da, suyu da, elektriki də, məscidi də, xəstəxanası da, məktəbi də, evlər də var, hər şey var. Bir də ki, kənd təsərrüfatı üçün onlara avadanlıq vermişik və indi o kənd dirçəlib. Bütün o torpaqları biz cənnətə çevirməliyik. Onsuz da oranın mənzərəsi cənnətdir və uzun illər erməni tapdağının altında olmasına baxmayaraq. O torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar".



Dəfələrlə qeyd edildiyi kimi, Azərbaycan dövlətinin qaçqın və məcburi köçkünlərin istər məskunlaşması, istərsə də işlə təmin olunması, sosial şəraitlərinin yaxşılaşdırılması məsələsində həyata keçirdiyi siyasət dünyada, xüsusən Avropada nümunəyə çevrilib. Çadır düşərgələrinin ləğvi, məcburi köçkünlərin bütün infrastruktura malik yeni salınmış qəsəbələrə köçürülməsi dövlətimizin sosial siyasətinin prioritetinə çevrilib. Bu il daha 7 min ailə yeni mənzillərə köçürülüb. Təqribən 35 min nəfər bir il ərzində dövlət tərəfindən pulsuz mənzil alır. Əlbəttə, bu, məcburi köçkünlərə dövlət qayğısının bir hissəsidir. Biz bura hər nəfər məcburi köçkünə ayrılan aylıq müavinət və kommunal xərcləri də əlavə etsək, real mənzərə yaranar. Ona görə, təbii ki, onlar dövlətin qayğısından razıdırlar. Bunun nəticəsidir ki, dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşlərdə onlar həmişə təşəkkürlərini bildirirlər və deyirlər ki, "burada hər şey yaxşıdır, bu yeni evlərdə yaşayırıq, belə şəraiti görməmişik, amma bizi ora qaytarın, biz oraya getmək istəyirik".

### Xəyalıyla yaşadığımız yurdlar, gəlirik!

Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır: ya hansısa bir şəhər, ya kənd azad edilir, yaxud işğalda qalan ərazisi nəzarət altına alınır. Ermənistanın sentyabrın 27-də cəbhə xəttində törətdiyi növbəti təxribatın nəticəsi olaraq başlanan hərbi əməliyyatlar işğal altındakı torpaqlarımızın bir qisminin azad edilməsi ilə nəticələndi. Artıq Tərtər, Cəbrayıl, Füzuli rayonlarının 30 ilə yaxındır işğal altında olan yaşayış məntəqələri, Hadrut düşməndən azad edilib. Bu, Azərbaycan Ordusunun tarixi missiyasını rəşadətlə yerinə yetirməsi deməkdir. Azad olunan yaşayış məntəqələrimiz çoxaldıqca, o yerlərə həsrət qalan doğma sakinlərin də sayı artır. Füzuli rayonunun işğaldan azad edilən Qərvənd, Yuxarı Əbdürrəhmanlı, Horadiz, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Yuxarı Güzdək, Gorazıllı kəndlərinin 13 min 743 nəfərlik əhalisinin o yerlərə tezliklə dönmələri reallığa çevrilib. Belə sevinci yaşayan yalnız onlar deyil. Cəbrayıl rayonunun Nüzgar, Böyük Mərcanlı, Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Dəcəl, Şıxəli Ağalı, Sarıcalı, Məzrə, Süleymanlı, Əfəndilər, Qaracallı, Qışlaq kəndləri, Cəbrayıl şəhəri də daxil olmaqla, 43 min nəfərin də yurdsuzluq həsrətinə son qoyulub! Hələ bu davam edir.

2016-cı ildə Lələtəpə zəfəri ilə işğaldan azad edilən Cocuq Mərcanlı kimi, bu kənd və qəsəbələrdə də həyat 30 il əvvəlki axarına dönəcək. Ən əsası isə onlara "qaçqın-köçkün" deyilməyəcək. Bu yaşayış məskənləri də yenidən qurulacaq və oraların əsl sahibləri geri dönəcəklər.

### Mənə "qaçqın-köçkün" deməyin…

Düşməndən azad edilən yalnız Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələri deyil. Bu günlər şanlı tarix yazan Azərbaycan Ordusu sentyabrın 27-dən genişmiqyaslı əks-hücuma keçərək Ermənistanın işğal altında saxladığı bir çox yaşayış məntəqələrimizi, strateji yüksəklikləri, o cümlədən Murovdağ zirvəsini, Tərtərin "alınmaz qala" kimi tanınmış Suqovuşan, Talış, Çaylı, Ağdərənin Madagiz, həmçinin Xocavəndin Hadrut qəsəbəsi və Sur kəndlərini, ümumiyyətlə, 40-dan artıq yaşayış məntəqəsini də işğaldan azad edib.

2016-cı ilin aprelindən zəfər salnaməsi yazan Azərbaycan Ordusunun müzəffər yürüşləri ilə bu günlər açılan yolumuz Qarabağadır, üzü Şuşaya doğru! Azərbaycan Ordusu on minlərlə məcburi köçkünün yurdsuzluq həsrətinə son qoyub. Bu yol müqəddəs amalla açılır, azadlığa, haqq-ədalətin bərpasına aparır! Yoluna davam, Ali Baş Komandan! Azərbaycan əsgəri! Biz bütün cəbhələrdə birlikdə güclüyük!

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# Azərbaycanda Ümumdünya Statistika Günü qeyd olunmayacaq

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ölkə statistikləri adından bütün beynəlxalq təşkilatların və dünya ölkələrinin statistika qurumlarına müraciət ünvanlayıb.

AZƏRTAC müraciəti təqdim edir:

"Hörmətli həmkarlar!

Məlum olduğu kimi, BMT Baş Assambleyasının 69/282 saylı Qətnaməsinə uyğun olaraq 2020-ci il oktyabrın 20-də bütün dünya statistikləri hər 5 ildən bir keçirilən Ümumdünya Statistika Gününü təntənəli şəkildə qeyd etməyə hazırlaşırlar.

Qeyd etmək istərdik ki, son illər ərzində dünyada statistikanın əhəmiyyətinin xeyli dərəcədə yüksəlməsi fonunda istər beynəlxalq, istərsə də milli səviyyədə rəsmi statistikanın inkişafı naminə böyük işlər görülüb, statistikanın modernləşdirilməsi, kadr potensialının inkişafı, metodoloji bazaların təkmilləşdirilməsi və sair istiqamətlərdə ciddi uğurlar əldə edilib. Statistika qurumları hazırda olduqca çətin şəraitdə - bəşəriyyət üçün fəlakətə çevrilmiş COVID-19 pandemiyası və iqlim dəyişiklikləri nəticəsində getdikcə dərinləşən ekoloji problemlər, qlobal siyasi, iqtisadi təlatümlər, artan silahlı münaqişələr, humanitar böhranlar dövründə fəaliyyət göstərir, cəmiyyətin inkişafı və gələcək nəsillərin firavanlığı naminə fədakarcasına çalışaraq milli və beynəlxalq səviyyədə daha dəqiq qərarların verilməsi üçün statistik informasiya təminatının fasiləsizliyini təmin edirlər.

Böyük təəssüf hissi ilə bildiririk ki, yuxarıda qeyd olunanlara şahidlik etdiyimiz bir zamanda Ermənistan silahlı qüvvələrinin cari ilin sentyabr ayının 27-dən başlayaraq ölkəmizə qarşı növbəti hərbi təcavüzü, Azərbaycan Respublikasının yaşayış məntəqələrini ağır artilleriyadan, ballistik raketlərdən atəşə tutması, mülki əhalini hədəfə alması, onlarca dinc sakinin, o cümlədən qadın və uşaqların qətlə yetirilməsi, yüzlərlə insanın yaralanması, minlərlə yaşayış evlərinin və sosial obyektlərin dağıdılması nəticəsində yaranmış vəziyyət Azərbaycanda statistiklərin böyük səbirsizliklə gözlədiyi Ümumdünya Statistika Gününün qeyd edilməsini mənəvi prinsiplər və etik normalar baxımından mümkünsüz edib.

Beynəlxalq hüququn fundamental norma və prinsiplərini, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrini bu günədək icra etməyən, beynəlxalq humanitar hüququ, Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozmaqda davam edərək beynəlxalq təşkilatların münaqişənin sülh yolu ilə həllinə dair çağırışlarına məhəl qoymayan Ermənistanın silahlı qüvvələri son 20 gündə döyüş bölgəsindən kənarda yerləşən Gəncə, Mingəçevir və Naftalan şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər və Yevlax rayonlarının yaşayış məntəqələrini, ölkənin ən iri su elektrik stansiyasını, Avropanın enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rol oynayan və regionun iri strateji obyektləri sayılan Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərlərini hədəfə alaraq intensiv şəkildə atəşə tutub, humanitar məqsədlərlə oktyabrın 10-da əldə edilmiş atəşkəs razılığına da əməl etməyib. Ermənistan silahlı qüvvələri oktyabrın 11-də gecə saat 2-də öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə növbəti dəfə ballistik raketlər atıb, yalnız bu vandalizm aktı nəticəsində 4-ü qadın olmaqla 10 nəfər həlak olub, 16-sı qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb, 3 azyaşlı uşaq hər iki valideynini itirib, 3 yaşayış binası tamamilə dağıdılıb, onlarca çoxmənzilli yaşayış binasına və sosial təyinatlı müxtəlif obyektlərə ziyan dəyib.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycanda Ümumdünya Statistika Gününün qeyd olunmayacağına dair qərarımıza hörmət və anlayışla yanaşacağınıza ümid edirik. Hesab edirik ki, BMT-nin bütün qərarları, o cümlədən Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələri icra olunmalı, beynəlxalq təşkilatlar və ictimaiyyət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe sərgiləməli, Ermənistanın ölkəmizə qarşı 30 ilə yaxın müddətdə davam edən işğalçılıq siyasəti dayandırılmalı, onun işğalçı qüvvələri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisini tərk etməli, 1,2 milyon qaçqın və məcburi köçkünün öz evlərinə qayıtmaları təmin edilməlidir.

Hörmətli həmkarlar!

Bütün bunlara baxmayaraq, Azərbaycanın statistikləri öz nikbinliyini itirmir və dünyamızın daha yaxşı gələcəyinə əminliyini ifadə edərək Ümumdünya Statistika Günü münasibətilə sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə sülh və firavanlıq arzu edir".


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez- Ortopedik Bərpa Mərkəzi eşitmə aparatlarının satın alınması ilə əlaqədar *açıq tenderə dəvət edir*

LOT - 1. Eşitmə aparatlarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1 üzrə 500 AZN**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Hesab: AZ81IBAZ38060019449725614215**
**VÖEN: 9900001881**
**Bank: ABB Xətai filialı**
**Kodu: 805625**
**VÖEN: 1000341661**
**M/H: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (iddiaçının hüquqi statusu, nizamnaməsi notarial qaydada təsdiq olunmalıdır. İddiaçının tam adı,qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri təşkilatın blankında, təşkilatın möhürü və səlahiyyətli rəhbər şəxs tərəfindən imza ilə təsdiq olunmalıdır);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Həmçinin müvafiq arayış 14.10.2020-ci il tarixdən sonra əldə edilməlidir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Həmçinin müvafiq arayış 14.10.2020-ci il tarixdən sonra əldə edilməlidir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (dövlət büdcəsindən maliyyələşən qurumlar və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV-ləri);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.11.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.11.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qəbələ rayonunda yerləşən Uşaq Bərpa Mərkəzinə xarici kommunikasiya xətlərinin çəkilməsi işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları bənzər işlərdə təcrübə və kadr imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 50 (əlli) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (İddiaçının hüquqi statusu,nizamnaməsi notarial qaydada təsdiq olunmalıdır. İddiaçının tam adı,qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri təşkilatın blankında, təşkilatın möhürü və səlahiyyətli rəhbər şəxs tərəfindən imza ilə təsdiq olunmalıdır);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Həmçinin müvafiq arayış 01.10.2020-ci il tarixdən sonra əldə edilməlidir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Həmçinin müvafiq arayış 01.10.2020-ci il tarixdən sonra əldə edilməlidir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (dövlət büdcəsindən maliyyələşən qurumlar və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV-ləri);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (Notarial qaydada təsdiq olunmuş surəti təqdim olunmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.11.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.11.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün yanğın mühafizə sistemlərinin alınıb-quraşdırılması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 23 oktyabr 2020-ci il saat 15:00-a kimi qəbul olunur.

Zərflərin açılışı 26 oktyabr 2020-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanda, Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: İlham Şixbabayev, tel.: (012) 465-73-48.**

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzinin inzibati binasının şüşə və fasad örtüyünün il ərzində 4 dəfə yuyulması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 22 oktyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisə təqdim olunmalıdır. Zərflər 23 oktyabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır (telefon: 012 525-50-27/ dax: 9505).

Maraqlananlar müvafiq məlumatları 3 saylı Bakı DOST mərkəzinin AZ1073 Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

Lot 1: - “Aztelekom” MMC tərəfindən yanğından mühafizə üçün tələb olunan yanğınsöndürmə balonlarının, tam komplektləşdirilmiş yanğınsöndürmə lövhələrinin, digər tələb olunan ləvazimatların alınması və yanğınsöndürmə balonlarının “Aztelekom” MMC-nin respublikanın regionları üzrə TKQ-də doldurulması şərtilə xidmətinin satın alınması.

**İştirak haqqı: 500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **“ASAN ödəniş”** sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti, 187**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **13 noyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **23 noyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **24 noyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## ELAN

### Sığorta sahəsində verilmiş lisenziyalar barədə

Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə “Aqrar Sığorta Müştərək Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyətinə sığorta fəaliyyətini həyata keçirmək üçün lisenziya verilmişdir.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 1 saylı Bakı DOST Mərkəzinin inzibati binasının şüşə və fasad örtüyünün il ərzində 4 dəfə yuyulması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 22 oktyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisə təqdim olunmalıdır. Zərflər 23 oktyabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır. (Telefon: 012 525-50-26)

Maraqlananlar müvafiq məlumatları 1 saylı Bakı DOST mərkəzinin AZ1073 Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzinin inzibati binasının şüşə və fasad örtüyünün il ərzində 4 dəfə yuyulması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 22 oktyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım, 30B ünvanında yerləşən ofisə təqdim olunmalıdır. Zərflər 23 oktyabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır. (Telefon: 012 525-50-27/ dax: 9410)

Maraqlananlar müvafiq məlumatları 2 saylı Bakı DOST mərkəzinin AZ1044 Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım, 30B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 09 oktyabr 2020-ci il tarixdə LOT-1 üzrə Bakı Metropoliteninin III yeni (“Bənövşəyi”) xəttinə aid “Xocasən” elektrik deposunda Blok Post binasının, B-DA-00 yarımstansiyasının 1 və 2 saylı Nəzarət Buraxılış məntəqələrinin santexnika və istilik sisteminin quraşdırılması işlərinin satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə “TMS LTD” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 14.10.2020-ci il tarixdə 66858.68 (altmış altı min səkkiz yüz əlli səkkiz manat 68 qəpik) manat (ƏDV daxil) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 09 oktyabr 2020-ci il tarixdə keçirilmiş Bakı Metropoliteninin III yeni (“Bənövşəyi”) xəttinə aid “Xocasən” elektrik deposu ərazisində müxtəlif obyektlərdə və “B-3” stansiyasında Nəzarət Buraxılış Məntəqələri Dizel Elektrik Stansiyası Dizel generatorları binasında və 3 saylı Ventilyasiya şaxtasında yanğın siqnalizasiya sisteminin quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə “FIRE COMPANY” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 14.10.2020-ci il tarixdə ƏDV daxil 74 178,58 (yetmiş dörd min yüz yetmiş səkkiz manat 58 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 07 may 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş “Avtonəqliyyat və xüsusi texniki vasitələrin təmiri üçün ehtiyat hissələrinin, sürtkü yağlarının və texniki qulluq xidmətinin satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “STANDART LTD” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “STANDART LTD” MMC arasında 09 sentyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Aparatı, “KOB Evi” və KOB İnkişaf Mərkəzi üçün inzibati binanın layihə-smeta sənədlərinin (elektrik təchizatı, havalandırma, su təchizatı və kanalizasiya, memarlıq-planlaşdırma, yanğın-siqnalizasiya, rabitə şəbəkələri, videomüşahidə sistemi) hazırlanması işlərinin satın alınması ilə əlaqədar təkliflər sorğusuna dəvət edir

Maraqlanan malgöndərənlər (podratçılar) (+994 55) 200-01-06 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər sənədləri 23.10.2020-ci il saat 10:00-dək Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Tender komissiyasına təqdim edə bilərlər.

**Ünvan: AZ 1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr. 134**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Ağcabədi rayonu İmanqulubəyli kənd tam orta məktəbinin əsaslı təmir işlərinə dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 20 noyabr 2020-ci il tarixdə saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Portal vasitəsilə elektron elanla tanış ola və 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### *açıq tenderə dəvət edir*

- Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin 4 saylı Bakı DOST Mərkəzi və Abşeron DOST Mərkəzinin əməkdaşları üçün uniformaların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Əlaqələndirici şəxs - Aysel İlyasova (012 525-50-26 #9234)

**İştirak haqqı: LOT üzrə 150 (bir yüz əlli) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06.11.2020-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.11.2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.11.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Redaksiya və nəşr işləri şöbəsinin əməkdaşları şöbənin sektor müdiri Lətif Babayevə anası

**GÜLSƏNƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin kollektivi cəmiyyətin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin İdarə Heyəti sədrinin müavini Hüsnü Quliyevə əzizi

**FİZULİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7466
Sifariş 2398
Qiyməti 40 qəpik